**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**AKADEMİK Z.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

***Əlyazması hüququnda***

**ƏMİNƏ TƏVƏKKÜL QIZI ƏLİYEVA**

# XƏLVƏTİYYƏ: İDEYA MƏNBƏLƏRİ VƏ MÜASİR İNKİŞAF MEYİLLƏRİ (ƏLCƏZAİR NÜMUNƏSİNDƏ)

**(İxtisas: 7214.01 – "Dinin tarixi və fəlsəfəsi")**

*Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi*
*almaq üçün təqdim edilmiş*

**DİSSERTASİYA**

**Elmi rəhbər:**
**akademik V.M.Məmmədəliyev**

Bakı-2021

## MÜNDƏRİCAT

**GİRİŞ**..........................................................................................................3
**FƏSİL I. SUFİZMDƏ XƏLVƏTİLİK ANLAYIŞI**.............................................16
1.1. Sufizmin İslam mənəvi mədəniyyət tarixində yeri və rolu.................................16
1.2.Xəlvətiliyin meydana çıxması. Dövrün ictimai-siyasi mənzərəsinə qısa baxış....................................................................................................26
1.3. Sufi xəlvətilərin əsas ideya mənbələri...............................................................34
**FƏSİL II. XƏLVƏTİYYƏ TƏRİQƏTİNİN YARANMASI VƏ İNKİŞAFI**........42
2.1. Xəlvətiyyə təriqətinin ortaya çıxması və təriqət silsiləsi.....................................42
2.2. Xəlvətiyyə təriqətinin sufi qaynaqları..............................................................54
2.3. Seyyid Yəhya Şirvaninin (Bakuvi) xəlvətilik içindəki rolu və təsirləri................54
2.4. Xəlvətiyyə təriqətinin başlıca qolları...............................................................68
**FƏSİL III. XƏLVƏTİYYƏNİN ƏLCƏZAİRDƏ YARANMASI VƏ İNKİŞAF TARİXİ**...........................................................................................................79
3.1. Məğrib ölkələrinin ictimai-siyasi və mədəni həyatında xəlvətilik........................79
3.2. Xəlvətiliyin Əlcəzairdə qolları........................................................................92
**FƏSİL IV. XƏLVƏTİYYƏ TƏRİQƏTİNDƏ MÜASİR İNKİŞAF İSTİQAMƏTLƏRİ**.......................................................................................110
4.1.Sufizm və xəlvətilik müasir dini, fəlsəfi fikirlər kontekstində............................110
4.2. Xəlvətiliyin mistik mahiyyətinin müasir İslam fəlsəfi nöqteyi-nəzərindən tədqiqi və təbliği..........................................................................................118
**NƏTİCƏ**.......................................................................................................124
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**...........................................131

# GİRİŞ

**Problemin aktuallığı.** Məlum olduğu kimi, müasir dövrdə tədqiqatçıların diqqətini cəlb edərək xüsusi maraq doğuran məsələlərdən biri də sufizm və onun müxtəlif təriqətlərinin tədqiqidir. Bunun isə özünəməxsus səbəbləri mövcuddur.Belə ki, özünün daşıdığı xüsusi missiya, ümumbəşəri miqyasda sülh, ədalət, tolerantlıq ideyaları sufizmi nəinki müsəlman ölkələrinin alimləri, həmçinin Qərb dünyasının görkəmli tədqiqatçıları üçün də maraqlı edən amilə çevirmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, hal-hazırda yaşadığımız dövrü səciyyələndirən dini qarşıdurmalar, etnik münaqişələr, dini dözümsüzlük hallarına qarşı irəli sürülən multikulturalizm, humanizm və tolerantlıq ideyalarının əsas mənbələrindən biri də məhz sufilikdir.

Bütün bu sadalanan amilləri nəzərə aldıqda, sufiliyin İslam fəlsəfəsinin cərəyanları içərisində ən çox maraq doğuran, yarandığı gündən mənsub olduğu dinin istinadgahına çevrilməyə cəhd etmiş bir cərəyan olduğunu görmək mümkündür. Şərqlə Qərb arasında körpü yaradan sufizmin əsrlər boyunca ona tapınanların, onunla yaxından maraqlananların mənəviyyatında oynadığı rolu, bildiyimiz kimi, heç bir ideologiya və ya hətta ən yüksək təhsilin verdiyi mükəmməllik belə oynaya bilməmişdir. Bu həqiqəti müasir dünyanın aparıcı şərqşünasları da etiraf etmək məcburiyyətində qalırlar.Deyilən fikirləri təsdiqləmək üçün sufizm həyat tərzinə üz tutanların tərcümeyi-halları ilə qısaşəkildə tanış olmaq kifayətdir. Belə qənaətə gəlmək olar ki, bunun yeganə səbəbi irqindən, dinindən asılı olmayaraq ən adi insanları belə mənəvi saflığa, əxlaqi gözəlliyə və kamilləşərək mahiyyətləri olan Həqiqətə qovuşmağa dəvət edən sufizmin təbliğ etdiyi ideyaların ancaq bəşəri olması ilə əlaqədardır.

Beləliklə, yüksək ideoloji, dini və mənəvi-psixoloji baxışları özündə əxz edən, ardıcıllarını mənəvi-əxlaqi prinsiplərə dəvət edən sufizmin daşıdığı toplum ideallarının mərkəzində insan faktoru durur. Bu isə insanın Allahın ən mükəmməl

şəkildə yaratdığı  bir çox mənəvi və maddi hisslərlə zənginləşdirdiyi üstün bir varlıq olmasını bir daha sübut edir. Bu baxımdan sufizm öz mahiyyəti etibarilə insanın inkişafı, ucalması, Ali Həqiqətə çatması istiqamətində qət edilən yol hesab edilə bilər. Emal edilməyən filizlər işə yaramadığı kimi, insandakı maddi-mənəvi duyğular da müsbət yöndə istifadə edilmədikdə və inkişaf etdirilmədikdə işə yaramaz, hətta zərərli hala gələ bilər. Böyük sufi şeyxi Bakuvinin izah etdiyi kimi, "insanda ən güclü hiss olan, hətta hislərin mərkəzi hesab olunan qəlb, mənəviyyatda doğru rəhbər olan ruh istiqamətinə meyl edər və yaradıldığı məqsəd üzrə inkişaf etdirilərsə, insan gerçək insanlıq məqamına çata, həm dünyada, həm də axirətdə səadət tapa bilər. İnsana nəzarət edən nəfs deyilən bir hiss də vardır ki, əgər qəlb ora tərəf meyl edərsə, heyvani arzu və istəklərin ardınca gedərək özünü fəlakətə sövq edər, dünyada da, axirətdə də bədbəxt olar." [23]

Sufizm təliminin mövcudatın vəhdəti (vəhdəti-vücud) nəzəriyyəsinə və onun ardıcıllarına görə, bütün gördüklərimiz özünün müxtəlifliyi ilə Allahın təzahürləridir. Başqa sözlə desək, real dünya kiçik hissəciklərdən tutmuş böyük kosmik sferalara qədər Allahın mahiyyətinin təcəssümüdür və bu təcəssümü ən kamil formada inikas etdirən insandır.

Beləliklə, sufizmdə bu cür təfəkkür tərzinin obyekti Allah, subyekti isə Onun tərəfindən yaradılmış dünyadır. Təlimdə məqsəd isə Allahın, Həqiqətin dərki, bu dərk etmədə insanın özünü tanıması və Allaha sevgidən doğan yoldur (təriqətdir). Sufilərin idrak yolu bütün mövcudatınYaradana sonsuz sevgisindən başlayır. Bu sevgi ilə Allah özünü sonuncu, kamil təzahür olan insan pilləsinə qədər aşkarlayır. İnsan bu pillələrin məntiqi davamı olmaqla, onların bütün xüsusiyyətlərini özündə ehtiva edir. Bu pillələrin mahiyyətini daşıyan insan geniş mənada Aləmin "Həqiqəti", konkret mənada götürdükdə isə cismani varlığın elə insan adlı yetkin (kamil) formasıdır.

Özünün kamil yaradılışını dərk edən sufi, Allahın mövcudatı yaratdığı eşqə bərabər bir cazibə və eşq ilə Yaradana istiqamətlənərək, eynilə əks istiqamətdə

təkamül edərək mahiyyəti olan Varlığa qovuşmağa can atır. İnsanın mənəvi və əxlaqi kamiliyyinə yönəlmiş sufizmin öndə gələn cərəyanlarından biri də Azərbaycanla bağlı olmuşdur. Müasir dövrdədə milyonlarla insanı vahid təşkilatda birləşdirən Xəlvətiyyə təriqəti getdikcə daha çox tədqiqat obyektinə çevrilməkdədir.

Xəlvətiyyə təriqəti ilə bağlı əlimizdə olan zəngin yazılı irs, bu təriqətin əsasprinsipləri, əxlaqi və mənəvi təlimi barədə geniş məlumat əldə etməyə imkan verir. Azərbaycan mühitində yetişib dünyanın bir çox ölkələrinə yayılan Xəlvətiyyəliyi nəzərdən keçirdikdə, "Sufiliyin sirləri" kitabının timsalında bir daha öyrənirik ki, dünya dərk edən məxluq, yəni insan naminə onun xeyri və həzzi üçün yaradılmışdır. Bundan əlavə olaraq,Kainat fərdin Mütləq Varlığı dərk etmə vasitəsi olmaqla insanın özünü dərkinə xidmət edir. Bu təlim öz mahiyyəti etibarı ilə insanın yalnız özü-özünü nəzərdən keçirməsi olmayıb, eləcə də Allahla, Uca Yaradanın mahiyyəti vasitəsilə təbiətlə, digər insanlarla, deməli, ictimai aləmlə münasibətlərini tənzimləyir.

Sufizmin vəhdəti-vücud prinsipi əsasında qurulan təliminə görə İlahi Mahiyyət yaxud İlahi Varlıq öz mütləq ideallığının gücünə və ağlına görə hər bir mövcudata hopur. Təlimə görə hər bir insanın daxili aləmi bütövlükdə Varlığın İlahi mahiyyətini özündə ehtiva edir. Bu aləmi cilalayan insan isə "Kamil İnsan"a çevrilir. Bu halda o, bir tərəfdən vahid təbiətin hissəsi, real aləmin bütün potensial imkanlarının xülasəsi, təbiətin xüsusiyyətlərinin məcmusu kimi, digər tərəfdən isə öz nəfsi etibarı ilə ruhani ilahi aləmin nümayəndəsi kimi çıxış edir.

Bu gün milyonlarla insanın Xəlvətiyyəyə müraciət etməsi bu təriqətin insanları cılız hisslərdən arındırıb bəşəri ideyalara dəvət etməsi, irqindən, dinindən, millətindən və cinsindən asılı olmayaraq hər bir kəsi onu Yaradana istiqamətləndirməsi ilə əlaqədardır. Müqəddəs kitabların toplum surətdə səmərəli ideyalarına malik olan sufilər ayrı-ayrı millətlərin deyil, bəşərin övladlarıdırlar.

Sufilik ideyalarının intişar tapdığı əsas tarixi məkanlardan biri olaraq Azərbaycan göstərilir. Sufizmin Azərbaycanda həqiqi mənada ardıcıl təmsilçiləri X əsrdən etibarən bərqərar olmuşdur. Belə ki, təsəvvüfün bu torpaqlarda sistemləşdiyi XII əsrdən etibarən Sührəvərdiyyə, Əbhəriyyə, Zahidiliyyə, Xəlvətiyyə, Səfəviyyə, Hurufilik, İşragilik, Əxilik kimi mühüm fəlsəfi cərəyanlar təsəvvüfi dünya görüşünün formalaşmasından doğmuşdur.

Tədqiqatçıların rəyinə əsasən sufizmin ən önəmli cərəyanlarından biri Azərbaycan mühitində formalaşaraq dünyanın bir çox ölkələrinə yayılmış Xəlvətiyyədir. Bu təriqətin yaradıcılarından ən məşhuru olan Seyyid Yəhya Bakuvidir.O, Xəlvətiyyə təriqətinin qurucusu - piri-əvvəli (yəni ilk piri) hesab edilən Əbu Abdullah Siracəddin Ömər əl-Xəlvəti Şirvaninin tələbəsidir. Tez-tez insanlardan uzaqlaşaraq dağlarda və meşəlik sahələrdə ibadət edən, bəzən də ağac oyuğunda xəlvətə çəkilən bu təriqət şeyxinin Həqiqətə yüksəliş metodunun görünən tərəfinin ən cazib hissəsi başlanğıcda bu cür ibadətdən ibarət idi.

Orta Əsrlərdə Şirvanda yaranan və formalaşan Xəlvətiyyə təriqəti, ardıcıllarının vasitəsi ilə Azərbaycana, Anadoluya, İrana, Türküstana, Şimali Afrikaya, Orta Şərqə, Hindistan və Balkan yarımadasına qədər yayıldı.

Əlcəzairin 2009-cu ildə dərc olunmuş "Əl-Vətən" dərgisi heyranlıq içərisində yazır: "Necə ola bilər ki, heç bir miniyin, kütləvi informasiya vasitələrinin, internetin olmadığı zamanda Bakıda Xəzərin sahillərində yaranan bir cərəyan Balkanlara, Suriyaya, Misirə, Sudana və Əlcəzairin bərbərlər oylağı olan Kabiliya dağlarına belə asanlıqla yayıla bilmiş və hətta Rəhmaniyyə kimi yeni bir adla fəaliyyət göstərməyə başlamışdır." [154, 12]

Xəlvətiyyə təriqətinin əsas qurucusu Piri-sani, yəni ikinci pir kimi məşhur olan Seyyid Yəhya Şirvani hesab olunur. Belə ki, Xəlvətiyyə təriqəti Seyid Yəhya tərəfindən yenidən təsis edilib yayıldığı üçün bu təriqətin bütün şöbələrinin silsilənamələrində silsilənin əvvəli Seyid Yəhya ilə başlayır. Bu təriqət sahibinin

Bakuvi nisbəsi ilə tanınmasının səbəbi isə Şeyxin ömrünün ən uzun (40 il) və səmərəli bir hissəsini Bakıda yaşaması ilə əlaqədardır.

Nəsli Şirvanşahların naqibləri olan əs-Seyyid Cəmaləddin Yəhya ibn əs Seyyid Bəhaəddin əş-Şirvani əl Bakuvi mükəmməl bir təhsil alıb zamənəsinin ziyalıları üçün üç böyük dildə: türk, ərəb və fars dillərində əsərlər yazmışdır. Bu əsərlərdə o, Xəlvətiyyə təriqətinin və irfan ədəbiyyatının özünəməxsus nümunələrini yaratmışdır.

Əsərlərinin məğzindən məlum olur ki, Seyid Yəhya təsəvvüf fəlsəfəsində insanı qəlb, nəfs, və ruhdan ibarət bir varlıq kimi təqdim etmiş, "Ətvarul-Qəlb", "Kəşful-Gulub", "Şərhi-Məratibi-Əsraril-Qulub", "Şəfa əl Əsrar" əsərlərində elə bu anlayışları dərinləşdirərək səciyyələrini ətraflı şəkildə şərh etmişdir.

Bakuvi sufiliyin inkişafı üçün bir sıra dini elmləri öyrənməyi zəruri hesab edirdi. Bu elmlər təfsir, hədis, məntiq, fiqh (müsəlman hüququ) kimi elmlər idi. Şeyx bu elmləri mənimsəmədən təsəvvüfə daxil olmanın mümkünsüzlüyündən bəhs etmişdir. Bu səbəbdən də deyilənə əməl etməyən cərəyanların ardıcılları batiniliyə yuvarlanıb həm din, həm də cəmiyyət üçün təhlükəyə çevrilmiş, iğtişaşlara səbəb olmuşlar. Qısası, Bakuvinin elmi təsəvvüf anlayışı səmərəsini vermiş və onun sufi məktəbi olan Xəlvətiliyin, zaman keçdikcə çox geniş yayılmasına baxmayaraq, heç bir zaman öz etiqadından azdığı, dini-ictimai və siyasi qarışıqlıqlara səbəb olduğu tarixi mənbələrdə öz əksini tapmamışdır. Halbuki müəyyən siyasi və ictimai təsirlər göstərmək üçün Xəlvətiyyə təriqətinin kifayət qədər gücü olmuşdur. Belə ki, bu təriqət şeyxinin artıq sağlığında iyirmi min müridi var idi.

Şirvan ərazisində yaranmış və Azərbaycan fəlsəfi-dini fikrinin böyük nailiyyətlərindən hesab edilən Xəlvətiyyə təriqətinin ideya mənbələri və müasir dövrdə inkişaf istiqmətləri xüsusi maraq doğurmaqdadır. Azərbaycan ərazisindən çox uzaqlara yayılmış, xüsusilə də Şimali Afrikanın aparıcı ideya mənbələrindən birinə çevrilmiş Xəlvətiyyə getdikcə daha çox alim və tədqiqatçıların diqqətini cəlb edir.

Bütün bu sadalanan amilləri nəzərə alaraq, bu təriqətin Azərbaycan elminin müasir nailiyyətləri kontekstində araşdırılması da aktuallıq kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Hələ orta əsrlərdən etibarən xəlvətiyyə təriqəti və onun qurucularının həyatı, dini-fəlsəfi fikirləri, müxtəlif hadisələrlə bağlı irəli sürdükləri rəylər müasirlərinin diqqət mərkəzində olmuşdur. Həmin dövrün mədəni mühitini, təsəvvüfün yayılma miqyasını nəzərə aldıqda, digər mədəni sahələrlə müqayisədə sufi şeyxlərinin və onların dünyagörüşlərini ifadə edən əsərlərin daha geniş yayılmasının, öyrənilməsinin şahidi olmaq mümkündür. Dövrün şərtlərinə uyğun olaraq, bu yazılı mənbələr Osmanlı İmperiyasının və digər dövlətlərin kitabxanalarında qorunub saxlanılmış, beləliklə də, yazılı mənbələrin əlçatanlığı təmin olunmuşdur.

Xəlvətiyyə təriqəti barədə danışarkən bir məqamı qeyd etmək zəruridir ki, təriqət barədə əsas məlumatları böyük mütəfəkkir alim Seyid Yəhya Bakuvinin öz əsərlərindən əldə etmək mümkündür. Müəllifin türk, fars və ərəb dillərində yaratdığı çoxsaylı əsərlər sayəsində müasir tədqiqatçılar onun dini-fəlsəfi təlimi barədə ilkin mənbədən zəngin məlumat almaq imkanı qazanırlar.

Sovet hakimiyyəti illərində Azərbaycanda dini düşüncəyə qarşı məlum münasibət Xəlvətiyyə təriqətinin və Seyid Yəhya Bakuvinin dərindən tədqiq edilməsinə mənfi təsirlərini göstərmişdir. Azərbaycanlı tədqiqatçılardan Salman Mümtazın, A.Seyidzadənin, Y.V.Çəmənzəminlinin, Z.Quluzadənin, M.Nağısoylunun, A.Musabəylinin, Z.Məmmədovun, E.Həsənovanın, N.Ələsgərovanın,Ə.Əliyevanın [11; 12; 15; 16; 17; 27; 28; 29; 30; 31; 36; 42; 43] adıçəkilən təriqətlə bağlı müəyyən araşdırmalarının olduğunu qeyd etmək olar. Görkəmli tarixçi alim, tədqiqatçı Məşədixanım Nemət müxtəlif xanəgah, ribat, məzar, zaviyə, türbə və abidələri tədqiq edərkən, Orta Əsrlərdə Azərbaycan ərazisində mövcud olmuş sufi təriqətlərini, onlara aid məlumatları öyrənmiş, bu zaman Xəlvətiyyə ilə bağlı da müəyyən məlumatları əldə etmişdir.

Xəlvətiyyə təriqətinə, bu təriqətin müxtəlif mənbələrinə aid yazılı mənbələr heç də az deyildir. Bu baxımdan xüsusilə görkəmli Osmanlı alimlərinin əsərlərini qeyd etmək lazımdır. Məlum olduğu kimi, Anadolu yarımadasında təsəvvüfün geniş yayılması, Xəlvətiyyə təriqətinin bu ərazilərdə də özünü göstərməsi üçün münbit şərait yaratmışdır. Həmin dövrün dini, mədəni və fəlsəfi mənzərəsini əks etdirən yazılı mənbələrdə Xəlvətiyyə təriqəti, xüsusən də onun ikinci qurucusu və şeyxi Seyid Yəhya Bakuvi barədə dolğun məlumatlara rast gəlinir. Misal olaraq Lamii Mahmud Çələbinin "Nəfahət tərcüməsi", Taşköprülüzadənin "Şəqayiqi-Numaniyyə fi üləmayi-dövləti Osmaniyyə", Məcdi Məhəmməd əfəndinin "Hədaiqüş-şəqayiq", Yusif ibn Yaqubun "Mənaqibi-şərif və təriqətnammeyi-piran və məşayixi əliyyəyi-xəlvətiyyə", Məhəmməd Cəmaləddin əl-Xulvinin "Ləmazati-xulvi və Ləmazati-ulviyyə", Əli Əlinin "Töhfətül-mücahidin və Behcətüz-zahidin", Məhəmməd Nəzminin "Hədiyyətül-ixvan", Həsən Krıminin "Məqalate-əliyyeyi-təriqəti-xəlvətiyyeyi-Camaliyyə", Həririzadə Məhəmməd Kəmaləddin əfəndinin "Tibyani-vəsail-il-həqaiq fi bəyani-səlasil-it təraiq", Sadiq Vicdaninin "Tomari-turuki-Əliyyə", Hüseyin Vəssafın "Səfineyi-övliyayi-əbrar şərhi-əsmar", Bursalı Məhəmməd Tahir əfəndinin "Osmanlı müəllifləri", Bağdadlı İsmayıl paşanın "Hədiyyətül-arifin" əsərləri tədqiqatçılar üçün ilkin mənbə rolunu oynamaqdadır. Daha sonrakı dövrlərdə də Türkiyəli tədqiqatçıların yaradıcılığında bu mövzuya rast gəlinir. Görkəmli tədqiqatçılardan Məhəmməd Əli Ayninin "Təsəvvüf tarixi", Xocazadə Əhməd Hilminin "Seyid Yəhya və Ziyarəti-övliya", Rəhmi Sərinin "İslam təsəvvüfündə xəlvətilik və xəlvətilər" əsərləri Xəlvətiyyə təriqətinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb etməkdədir. İstanbul Universitetinin kitabxanasında saxlanılan və Xəlvətiyyə təriqəti ilə əlaqədar olan əsərlər, o cümlədən Seyid Yəhya Bakuvi tərəfindən yazılmış kitabların üzə çıxarılmasında türkiyəli tədqiqatçı Əhəd Ataş böyük rol oynamışdır. Fuad Körpülü, Əbdülbaqi Gölpınarlı və Təhsin Yazıçı

kimi məşhur türk alimləri də Xəlvətiyyə təriqəti ilə bağlı qiymətli araşdırmaların müəllifləridirlər.

Son illər ərzində Azərbaycan Respublikasında dini-mənəvi dəyərlərə diqqətin artması, bu sahədə təbliğatın aparılmasına dövlət qayğısının göstərilməsi Şirvanda yaranmış və bütün dünyaya yayılmış bu təriqətin daha da dərindən araşdırılmasına və dünyada tanıtdırılmasına zəmin yaratmışdır. Yalnız bir faktı qeyd etmək kifayətdir ki, Heydər Əliyev Fonduun Prezidenti, Respublikanın birinci xanımı və birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səyləri nəticəsində UNESCO 2013-cü ili Seyid Yəhya Bakuvi ili elan etdi. Bu isə təkcə bu böyük şəxsiyyətin deyil, ümumilikdə Xəlvətiyyənin dünya miqyasında araşdırılması prosesinə yeni ruh verdi.

Qərb ölkələrində də Xəlvətiyyə təriqətinin araşdırılmasına maraq böyükdür. Müxtəlif dövrlərdə təriqətlə bağlı araşdırmalar aparılmışdır. Qeyd etmək lazımdır ki, ABŞ, Böyük Britaniya, Fransa kimi qabaqcıl dövlətlərin şərqşünasları tərəfindən aparılmış tədqiqatlar Xəlvətiyyə təriqətinin, əsasən də təriqətin şeyxi Seyid Yəhya Bakuvinin yaradıcılığının araşdırılması, müasir dövrdə Şimali Afrika ölkələrində bu təriqətin yayılması və səciyyələndiyi xüsusiyyətləri əhatə edir. Belə alimlərə misal olaraq Nathalie Cleyer, Zaim Xenchelaooui, Pierre-Jean Luisard, Paul Balanfat, Jean-Jaques Thibon, Denis Gril, Thierry Zarcone, Rachid Ben Rochd, Princesse Rabiyatou Njoyya, Sari Ali Hikmet, Rachida Chih, Marchi Alessandra, Bogdana Todorova, Ouiza Galleze, Nelly Amri, Elyor Karimov [153; 156a; 165; 170; 171; 172; 173; 174; 175; 178; 179; 180; 181; 182; 183; 184; 185; 186; 187; 189; 190; 196; 198; 199; 201; 202; 203, 231] və s. qeyd etmək olar.

**Tədqiqatın obyektini** Xəlvətiyyə təriqətinin ideya mənbələri, Azərbaycan sufizm məktəbi daxilində inkişafı, eləcə də müasir dövrdə Şimali Afrika ölkələrində bu təriqətin inkişaf istiqamətləri təşkil edir.

**Tədqiqatın predmeti** İslam mədəniyyətində Sufizm fenomeninin araşdırılması, eləcə də Xəlvətiyyə təriqətinin meydana çıxması, həmin dövrdə

mövcud olan ictimai-siyasi və mədəni şəraitdən ibarətdir. Eləcə də, sufizmdə xəlvət anlayışının öyrənilməsinə də xüsusi yer ayrılmışdır. Mühüm məsələlərdən biri də Seyid Yəhya Bakuvinin islam mədəniyyətində, xüsusilə Xəlvətiyyə sistemində oynadığı mühüm rolun, təriqətininkişafına verdiyi töhfələrin araşdırılmasıdır. Xəlvətiyyə təriqətinin tarixi və fəlsəfi inkişafı, təriqətin müxtəlif qolları, xüsusilə də Məğribdə mövcud olan (Şimali Afrika ölkələrindəki) qolları tədqiq edilmişdir. Bununla yanaşı, təriqətin müasir inkişaf meylləri kontekstində müasir dini-fəlsəfi fikirlərin ümumiyyətlə sufizmə, xüsusən də Xəlvətiyyə təriqətinə təsiri və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirməsi öyrənilmişdir.

**Tədqiqatın məqsədi.**İlk növbədə Xəlvətiyyə təriqətinin ideya mənbələrinə,islam mədəniyyəti sistemində daşıdığı rola nəzərsalmaq lazımdır. Tədqiqatın əsas məqsədi müasir dövrdə Şimali Afrika ölkələrində populyar olmasını nəzərə alaraq, vaxtilə Şirvan ərazisində formalaşmış bu dini-fəlsəfi düşüncə sisteminin dünya miqyasında tanınmasını şərtləndirən amilləri öyrənmək, eləcə də müasir dövrün şərtləri nəticəsində baş verən dəyişikliklərə nəzər salmaqdır. Həmçinin hal-hazırda islam düşüncə sistemində baş verən dəyişikliklər, bu dəyişikliklərin sufilərin mistik düşüncə tərzinə təsirləri tədqiqatın əsas istiqamətləri sırasındadır. Bu məqsədlə aşağıdakı məsələlərin araşdırılması dissertasiya işində vəzifə olaraq qarşıya qoyulmuşdur:

-İslam mədəniyyəti sistemində sufizm anlayışına, islam təsəvvüfünə ümumi və qısa şəkildə nəzər salınması;

-Xəlvətiyyə təriqətinin meydana çıxdığı dövrün ictimai-siyasi mühiti, dini dünyagörüşə təsir edən amillərin araşdırılması və bu amillərin Xəlvətiyyə təriqətinin yaranması baxımından daşıdığı əhəmiyyətin təhlil edilməsi;

-İslam və sufi düşüncəsində xəlvət anlayışının izah edilməsi, onun daşıdığı anlamının və tarixi-mədəni köklərinin araşdırılması;

-Xəlvətiyyə təriqətinin meydana gəlməsi, təriqət daxilində mövcud olan silsilənin, ümumiyyətlə, Xəlvətiyyə təriqətinin sufi dünyagörüşündə tutduğu yerin və dini-fəlsəfi təlim olaraq əhəmiyyətinin tədqiq edilməsi;

- Təriqətin formalaşmasında və inkişafında həlledici amil olaraq Seyid Yəhya Şirvani (Bakuvinin) fəaliyyəti, onun həyat və yaradıcılığının gələcək dövrlərdə və təriqətin yayılmasında qoyduğu izlərin təhlil edilməsi;

-Xəlvətiyyə təriqətinin daha geniş yayılmış qollarının araşdırılması, Əhmədiyyə, Cəmaliyyə, Rövşəniyyə və Şəmsiyyə qolları barədə məlumat verilməsi, onların ümumi və fərqli xüsusiyyətlərinin aydınlaşdırılması;

-Xəlvətiyyə təriqətinin Məğrib (Şimali Afrika ölkələri) təsəvvüf tarixində oynadığı rola nəzər salınması, bu ölkələrin ictimai-siyasi, mədəni və dini həyatında Xəlvətiyyənin təsirinin üzə çıxarılması;

-Xəlvətiyyənin Məğrib ölkələrində əsas qolları sayılan Ticaniyyə və Rəhmaniyyə barədə tədqiqatın aparılması;

-Müasir dövrdə baş verən qlobal dəyişikliklər kontestində Xəlvətiyyənin inkişafını səciyyələndirən amillərə nəzər yetirərək, dini, fəlsəfi və əxlaqi dünyagörüşün modern tendensiyalarla qarşılaşmasının bu təlimlərə göstərdiyi mənfi və müsbət təsirlərinin aşkar edilməsi;

- Hazırki dövrün dini-fəlsəfi fikirlərinin Xəlvətiyyənin mistik düşüncə sistemi üzərində qoyduğu təsirlərin tədqiq edilməsi.

**Tədqiqatın nəzəri-metodoloji əsasları**. İslam mədəniyyəti sistemində sufizmin oynadığı rol baxımından Xəlvətiyyənin tarixi ideya mənbələri, eyni zamanda Məğrib ölkələrinin həyatında kəsb etdiyi əhəmiyyət mühüm tədqiqat obyektidir. Araşdırma zamanı ilk olaraq təriqətin ideya mənbələrinə və islami dünyagörüşündə oynadığı rolun elmi şərhlərinin verilməsinə, həmçinin Azərbaycanın Xəlvətiyyənin yaranmasında oynadığı aparıcı rola diqqət yetirilmişdir.

Xəlvətiyyənin islam mədəniyyəti tarixində və Məğrib ölkələrinin həyatında oynadığı rolla əlaqədar elmi tədqiqatların geniş spektri və problemlərin tədqiqində elmi abstraksiya, məntiqi və tarixi əlaqə kimi metodlardan istifadə etməklə faktlar toplanaraq ümumiləşdirilmiş, onlar arasında mövcud olan qanunauyğun və təsadüfi əlaqələr müəyyən edilmiş, xarakterik olan əlaqələr təhlil və tənqid edilərək elmi mülahizə və nəticələrə gəlinmişdir.

**Elmi yenilik.** Dissertasiya işinin elmi yeniliyi hər şeydən əvvəl, problemin qoyuluşu ilə müəyyən olunur. Tədqiqat işində Xəlvətiyyə təriqətinin islam mədəniyyət sistemində və sufi düşüncəsində tutduğu yer, Xəlvətiyyə təriqətinin yaranması və islam coğrafiyasında yayılması, təriqətin qurucusu Seyid Yəhya Bakuvinin fəaliyyəti, dünyanın müxtəlif regionlarında təriqətin yayılmış əsas qolları, Məğrib ölkələrinin siyasi,ictimai və mədəni həyatında adıçəkilən təriqətin oynadığı rol, müasir dövrdə Xəlvətiyyə təriqətinə təsir edən amillər sistemli yanaşma tətbiq edilməklə kompleks şəkildə tədqiq edilmiş və aşağıdakı müddəalarda öz əksini tapmışdır:

-İslam sufizminin inkişafında Xəlvətiyyə təriqətinin yaranmasının oynadığı mütərəqqi rol;

-Xəlvətiyyə təriqətinin şeyxi Seyid Yəhya Bakuvinin islam mədəniyyətinə verdiyi töhfə;

-Məğrib ölkələrinin ictimai-siyasi və mədəni həyatını formalaşdıran aparıcı amillərdən biri olaraq, Xəlvətiyyə təriqətinin əhəmiyyəti;

-Müasir dövrün şərtləri baxımından Xəlvətiyyənin düşüncə sisteminə təsir edən amillərinin təsnif ediməsi.

**Tədqiqatın elmi-nəzəri və təcrübi əhəmiyyəti**. Aparılan tədqiqatın əsasnəticəsi,elmi-nəzəri və təcrübi əhəmiyyəti onun aşağıda göstərilən sahələrdə istifadə edilə bilməsi imkanlarından irəli gəlir:

-Problemə dair gələcək tədqiqat işlərinin aparılması;

- Xəlvətiyyə, Seyid Yəhya Bakuvi və Xəlvətiyyənin Məğrib ölkələrinin ictimai, siyasi, mədəni həyatında oynadığı rolla əlaqədər elmi-praktik seminar, konfrans, simpoziumların keçirilməsi, dəsrlik və dərs vəsaitlərinin yazılması;

-KİV-də təşkil edilən müzakirələr, məqalələrin və sənədli filmlərin hazırlanması; (UNESCO-nun 2013-cü ili Azərbaycanın dahi şəxsiyyəti Seyid Yəhya Bakuvi ili elan etməsilə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə çəkilmiş "Xəlvətdə qalmış müdrik" sənədli film Türkiyənin Safranbolu şəhərindəkeçirilən XVI Beynəlxalq "Qızıl zəfəran" festivalında"Türk dünyası bələdiyyələr birliyi özəl mükafatı"na layiq görülmüşdür).

-Azərbaycanın mədəni-mənəvi irsinin təbliğ edilməsi və dünyada tanıdılması.

**İnformasiya mənbəyi.** müxtəlif elmi-tədqiqat institutlarının və qurumların dövrü nəşrləri, yerli və əcnəbi tədqiqatçıların kitabları, Xəlvətiyyə təriqətinin qurucularının əsərlərindən ibarətdir. Dissertasiya işində həmçinin internet resurslarda göstərilən mənbələrdən istifadə edilmişdir.

**Tədqiqatın aprobasiyası tətbiqi.** Dissertasiya işinin strukturu və həcmi tədqiqatın məqsəd və vəzifələrinə uyğundur.Tədqiqat işi giriş, yarımbaşlıqlara bölünmüş 4 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Girişdə problemin tədqiq edilməsinin əsas istiqamətləri göstərilir və tədqiq ediləcək məsələlər müəyyən edilir.

Dissertasiya işinin birinci fəslində islam mədəniyyəti sistemində sufizm və Xəlvətiyyənin rolu araşdırılmışdır.

İkinci fəsildə Xəlvətiyyə təriqətinin yaranması və inkişafı, Seyid Yəhya Bakuvinin təriqətin inkişafında rolu, təriqətin aparıcı qolları tədqiq edilmişdir.

Üçüncü fəsildə Xəlvətiyyə təriqətinin Məğrib ölkələrinin həyatında oynadığı rol, eləcə də təriqətin bu regionda geniş yayılmış qolları ilə bağlı tədqiqat aparılmışdır.

Dördüncü fəsildə müasir dini-fəlsəfi fikirlərin sufizmə və Xəlvətiyyəyə olan təsirləri öyrənilmişdir. İşin sonunda isə məntiqi yekun olaraq nəticə və ədəbiyyat siyahısı verilmişdir.

**Dissertasiyanın ümumi həcmi –** 200139 işarə boşluqlarsız, 229353 işarə boşluqlarla, Giriş – 35725 (40358), I Fəsil - 40985 (47129), II Fəsil – 60502 (69333), III Fəsil – 41898 (48137), IV Fəsil – 25099 (28693), Nəticə - 10747 (12276).

# FƏSİL I
# SUFİZM TARİXİNDƏ XƏLVƏTİ ANLAYIŞI

## 1.1. Sufizmin İslam mənəvi mədəniyyət tarixində yeri və rolu

Bəşəriyyətin mədəni və mənəvi irsinin zənginləşməsində islam mədəniyyətinin oynadığı rol danılmazdır. Xüsusilə İslam İntibahı dövründən etibarən dünyaya yayılmış bu mədəniyyət özünün rəngarəngliyi, müxtəlif elmi, mədəni, fəlsəfi, mənəvi cərəyanları ilə bir çox yeni inkişaf istiqamətlərinin əsasını qoymuşdur. Bu baxımdan bu gün də alimlərin diqqətini cəlb edən, xüsusilə Avropa ölkələrində diqqətlə öyrənilən sufizm böyük əhəmiyyətə malikdir.

İslam mədəniyyətində sufizm bəzən təsəvvüf də adlanır ki, bu da ərəb dilində eyni kökdən alınmış sözlərin olması ilə izah edilir. Qeyd etmək lazımdır ki, sufilik, təsəvvüf sözlərinin mənası və kökü barədə müxtəlif fikirlər söylənilməkdədir. Bəzi əcnəbi tədqiqatçılar qeyd edirlər ki, təsəvvüf termini "daxil olmaq" mənasında istifadə edilir. Beləliklə, Rene Genonun fikrincə təsəvvüf "inisiasiya", "daxil olma" kimi tərcümə edilir. O "əl-haqiqa", yəni həyat "daxili həqiqət" mənasını verir və "əş-şariə"nın ("böyük yolun") dərinliklərini başa düşməyə imkan verir. Sufilər

qardaşlıqlarda birləşirdilər. On iki və on üçüncü əsrləri sufilik üçün strukturlaşmaya keçid və daha formal təşkilatlanma dövrü hesab etmək olar.[192, 18]

Bu zaman nəzərə almaq lazımdır ki, ərəb dilində yol və yaxud da istiqamət mənasını verən "təriqət" termini həqiqətə gedən yolda istifadə vasitəsi olmaqdan başqa bir şey deyildir, məqsədinə doğru gedən sufinin vasitəsidir.

Qeyd edildiyi kimi, sufi və təsəvvüf kəlməsinin hansı kökdən yaranması ilə əlaqədar olaraq tədqiqatçılar müxtəlif mülahizələr irəli sürüblər.Təsəvvüf kəlməsinin saflıq, duruluq, aydınlıq mənasını verən "savf" [74] kökündən, "bəni-suffə" qəbiləsindən, Peyğəmbərin (s) yaxınlığında həyat sürən "suffə" əshabından, səhra bitkisi olan "sufanə"dən və yun anlamına gələn ərəb dilində "suf" kökündən, eləcə də yunan dilində hikmət mənasını verən "sophia" sözündən yaranmasını iddia edən müxtəlif fikirlər mövcuddur. [221, 50-51] Məsələyə yanaşmada avropalı müəlliflərlə müsəlmanlar, həmçinin sufilərin özlərinin fikirləri arasında ziddiyyətlərin olması da diqqəti cəlb edən məqamlardan hesab edilir. [216, 88]

Sufilərin və müsəlman müəlliflərinin əksəriyyətinin fikirlərinə görə, təsəvvüfün qaynağı kimi Quran-Kərim və Məhəmməd peyğəmbərdən (s) nəql olunan hədislərhesab olunur.Sufizmin bilavasitə islamla bağlı olması, islami dəyər və əqidə əsasları üzərində inkişaf etməsi inkar edilməsi mümkün olmayan həqiqətdir. Lakin buna baxmayaraq, təsəvvüfün yalnız bir formada mövcud olduğunu da demək mümkün deyildir. Quran və şəriətə tamamilə bağlı şəkildə özünü göstərən sufi təriqətləri olduğu kimi, şəriət hüdudlarını aşan və bəzi islami prinsiplərlə ziddiyyət təşkil edən əsaslara dayanan batini-ifratçı sufi anlayışlarına da İslam dünyasında çox rast gəlinir. Sufizmin və ümumilikdə islam mədəniyyətinin inkişafı kontekstindən məsələyə yanaşarkən, bu təriqətlərin bir çoxunda başqa din və fəlsəfi cərəyanların təsirinin müşahidə olunmasını tədqiqatçılar qanunauyğunluq olaraq qəbul edirlər. Lakin sırf dini prinsiplər baxımından bu təriqətlər müsəlmanlar tərəfindən yaxşı qarşılanmır.

Sufizmin tarixi inkişafına qısa nəzər salaraq, onun hansı mərhələlərdən keçdiyini qısa şəkildə aşağıdakı qaydada göstərmək mümkündür. Təsəvvüf tarixinin mərhələləri 3 əsas dövrə ayrılaraq zöhd, təsəvvüf və təriqətlər periodları olaraq müəyyən edilmişdir.

Bir çox tədqiqatçıların fikrincə, zöhd dövrü İslamın ilk yarandığı dövrlərə aid edilir. Məhəmməd peyğəmbərdən (s) sonrakı zamanda müsəlman fəthlərinin geniş əraziləri əhatə etməsi, müharibələrdə əldə edilən qənimətlərin müsəlmanların maddi yaşayışını və rifahını yaxşılaşdırması, bunun nəticəsində insanlar arasında dünya sevgisinin artması kimi amillər sufiliyin müstəqil bir şəkildə meydana çıxmasına gətirmişdir. Bu dövrün xarakterik xüsusiyyətlərindən biri də insanlar arasında müəyyən fikir ayrılıqlarının meydana çıxması ilə bəzi müsəlmanların mal-mülk və zənginliyə meyl etmələri, bəzilərinin isə öz inandıqları təmiz əqidəni eynilə davam etdirərək islam dininin əsasları xaricinə çıxmadan Peyğəmbərin (s) yolu ilə getməyə üstünlük verməléri idi. Nəzərə almaq lazımdır ki, Peyğəmbərin(s) dövründə mistik həyat məhz onun yaşadığı kimi ömür sürməkdən ibarət olub hər hansı digər formada özünü göstərmirdi. Təsəvvüf kəlməsi bu dövrdə termin kimi istifadə edilmirdi, çünki bu dövrdə İslam cəmiyyəti həyatın hər bir sahəsində Peyğəmbərin (s) davranışlarını və sözlərini əsas götürməyə üstünlük verirdi. [113, 497]

Təsəvvüf tarixinin başlanğıc mərhələsi olaraq bu dövrün həyat tərzi insanlardan kənarda yaşamaq, nəfsi istəkləri nəzərə almamaq və onlarla mübarizə aparmaq, səbir, təvəkkül kimi tipik xüsusiyyətlərin özündə əxz etməsi ilə diqqəti cəlb edir. Zahidlər dövrünün sonu VIII əsrin ortalarına qədər davam edir. Bu dövrdən sonra baş verən siyasi və sosial dəyişikliklər islamın daha geniş ərazilərə yayılması, digər xalqlar və mədəniyyətlərlə qarşılıqlı təsirdə olması dövrünün başlanğıcı olur. Bundan sonrakı dövrü təsəvvüf dövrü adlandıran tədqiqatçılar bütün bu amilləri nəzərə almışlar.

Təsəvvüf müstəqil bir fəlsəfi təlim olaraq ilk dəfə Bəsrədə meydana gəlməyə başlamışdır. Tarixi mənbələrdə qeyd edildiyinə görə, ilk sufi adını alan şəxs Əbu

Haşim əs-Sufi hesab edilir. İlk təkyə kimi Suriyanın Rəml şəhərində yerləşən Əbu Haşim təkyəsini göstərmək olar. Əbu Haşim ilə başlayan təsəvvüf dalğası qısa müddət ərzində bir çox müsəlman ölkələrinə yayılmağa müvəffəq olmuşdur. [108]

Təsəvvüfün yayılması təbii olaraq onun daha da inkişaf etməsinə gətirib çıxarmalı idi. Artıq IX əsrdən başlayaraq təsəvvüfün sistemləşmə mərhələsinə daxil olduğunu göstərə bilərik. Bu tipli sistemləşmə yuxarıda qeyd etdiyimiz zöhd dövrünə nisbətən bir çox fərqli xüsusiyyətləri də meydana gətirdi. Bir tərəfdən təsəvvüfün bir sıra prinsip, qayda və metodları müəyyən edildi, digər tərəfdən isə sufi düşüncəsinin məkan olaraq özü üçün seçdiyi yerlər – təkyələr yaradılmağa başladı. Məlum olduğu kimi, IX-X əsrlər bir çox böyük sufilərin yaşadığı zaman olmuşdur, həmçinin məhz bu dövr ərzində təsəvvüflə əlaqədar bir sıra əsərlər yazılmış və beləliklə də sufiliyin prinsipial əsasları müəyyənləşdirilmişdir.

Təsəvvüfün dini-əxlaqi mahiyyətinə gəlincə qeyd etməliyik ki, islam dinindəki mənəvi həyat və əxlaqi dəyərlər bilavasitə təsəvvüf anlayışı ilə bağlıdır. Bu fəlsəfi – dini təlim mənəvi xüsusiyyətlərin kamilləşməsini nəzərdə tutaraq, insanın öz nəfsi ilə mübarizə apararaq onu islah və tərbiyə etməsi, öz varlığından və dünyadan vaz keçərək Allaha qovuşması üzərində qurulmuşdur. Müəyyən sufi təlimlərdə obrazlı şəkildə qeyd edildiyi kimi, təsəvvüf sülhsüz, daimi bir müharibə, insanın öz nəfsinə qul olmaması, şeytana təslim olmamaq, nəfsin istəklərini tərk edərək Haqqın istəklərinin ardınca getmək, zahirdən üz çevirərək batinə yönəlmək, əziyyətləri gizli saxlamaq, alicənablıq, zəriflik və təmizlik kimi göstərilir.

Sufizmin bu qədər cəlbedici olmasının əsas səbəblərindən biri də, özündə ilahi sirr və elmlərin gizləndiyini bildirən mistik düşüncədir. Gizlilik mənasını ehtiva edən latın mənşəli bu kəlmə tədricən fəlsəfi və dini mahiyyət almışdır. Müəyyən mənada gizlilik əsasında formalaşan mistisizmdə, maddiliyə qarşı qoyulan mənəvi, ruhani (zöhd) və seyri-süluk kimi təcrübi hallardan istifadə edilir. Əslində bir çox dini və

fəlsəfi təlimlərdə mistik xüsusiyyətlərin olduğu qədim dövrlərdən bəri məlum olan həqiqətdir.

Qeyd etmək lazımdır ki, sufilər günahın bütün təzahür formaları ilə mübarizə aparırdılar. Onların mübarizəsi çox vaxt inananların, o cümlədən savadlı şəxslərin mənəviyyatını sarsıtmağa təhdid edənlərə qarşı çevrilirdi.

İslamın ilk illərində Məhəmmədin (s) yoldaşı Əbu Zarr bu dünyada güc sahiblərini ittiham edirdi ki, elə buna görə də o,dövrünün yüksək mənsəb sahibləri tərəfindən həbs edilmişdi. [160, 133]

Sufilik özlüyündə islam şəriətini, islam qanunlarını və həqiqəti bir araya gətirir. Sufilər hesab edirlər ki, rituallar səmimi qəlblə yerinə yetirilmədikdə, onlar faydasız hesab olunur. Bəziləri hesab edir ki, sufilər əslində gizlədilmiş elmin (ilməl-batin) mövcudluğunu və bu dünyanın maddiyyatına bağlanmamağı, eləcə də günahla daxili mübarizəni təbliğ edir. İlməl-batin prinsipi ürəyin “heç nə Allahı xatırlatmır” mənalandırılan şeirin ürəkdən qəbul olunması kimi ilə müqayisə oluna bilər. Sufilikdə ən ali varlıq Allahdır, Ona da yalnız sevərək yaxınlaşmaq olar.

Belə ki, mistik təcrübənin və mistik düşüncənin islam, xristian və iudaizm dünyası, yunan düşüncəsi, brahmanizm, buddizm kimi dinlərdə fərqli formalarının olduğu bildirilir. Lakin nəzərə almaq lazımdır ki, təsəvvüf heç də sırf mistisizm kimi qəbul edilə bilməz. Təsəvvüf və qeyri-islami mistisizm arasındakı fərqləri qısa şəkildə aşağıdakı qaydada izah etməək mümkündür: “Qeyri-islami mistisizm metodsuzluq və passivlik kimi xüsusiyyətlərlə səciyyələnir. Məsələn, bu təlimlərdə şeyxə bağlanma kimi bir hal nəzərdə tutulmur. Təsəvvüfdə mühüm əhəmiyyət kəsb edən silsilə burada yoxdur, çünki şeyx olmadığı üçün mürşidlər silsiləsi kimi bir ənənənin olması da təbii olaraq mümkün deyildir. Müəyyən zamanlarda edilən vird və zikrlər də mövcud deyildir, ona görə də insanlar öz bacarıqlarına görə mistisizmdə müəyyən bir yer tuturlar. Qeyri-islami mistisizmi fərqləndirən daha bir xüsusiyyət ondan ibarətdir ki,

burada hər hansı bir ierarxiya mövcud deyildir və son hədəf olaraq çatılacaq nöqtə də elmül-yəqin nöqtəsi hesab edilir.[52]

İslami təsəvvüfdə isə digər dinlərin mistizmindən fərqli olaraq, metod böyük əhəmiyyət kəsb edir, aktivlik son dərəcə vacibdir. Seyri-süluk deyilən və hər bir sufinin keçməsi zəruri hesab edilən ruhani yol mürşidin nəzarətində başlayıb bu qaydada da davam etməlidir. Bu baxımdan, şeyx (yəni mürşid) mərkəzləşdirilmiş bir struktur olduğuna görə, bu strukturda silsilənin də mövcud olması zəruridir. Şeyxin elan etdiyi bir sıra əsaslar üzrə icra edilməsi vacib olan ayinlər, zikrlər, rituallar mövcuddur, insanlar şeyxə bağlı olaraq, mistik həyata daxil olur, qeyd edilən zikr və riyazət kimi metodlardan istifadə edərək müəyyən məqamları keçə bilirlər. Təsəvvüfdə hər kəsin yerinin məlum olduğu, ierarxik və piramidanı xatırladan bir struktur mövcuddur. Əgər digər təlimlərdə mistisizmin zirvəsi elməl-yəqin sayılırsa, sufilərin çata biləcəkləri ən son nöqtə həqqəl-yəqin hesab edilir. [60]

Təsəvvüf sözünün ilk dəfə istifadə edilməsini öz dövrünün məşhur sufisi Məruf Kərxinin adı ilə bağlayırlar. Həmçinin təsəvvüf düşüncəsinə mərifət anlayışını gətirmiş şəxs olaraq Zünnun Misri, təsəvvüfi halları araşdıran və aşkarlayan ilk insan olaraq Səri əs-Sakati qeyd edilməkdədir. Zöhd və təsəvvüfə yeni meyarlar və anlayışların daxil edilməsi Bəyazid Bistaminin adı ilə bağlıdır. [134]

Türk tədqiqatçısı Mehmet Rıhtım yazır ki, ilk təriqətlərin meydana çıxdığı XII əsrə qədər olan dövrdəki təsəvvüfü fərqləndirən xüsusiyyətlər, onun praktikaya əsaslanması, nəzəriyyələrə az yer verilməsi, sadə, eyni zamanda dərin və mənalı mənəvi həyat tərzi olması kimi göstərilə bilər. [21] Təsəvvüfün ilkin dövrünə aid şəxsiyyətlər olan Bəyazid Bistami, Cüneyd Bağdadi kimi sufilər tərəfindən irəli sürülən anlayışlar daha sonralar İmam Qəzali tərəfindən mükəmməl bir sistemə salınmışdır. Qəzalidən sonrakı dövrün yetirməsi olan və təsəvvüfü fəlsəfə ilə vəhdət halına gətirərək fəlsəfi təsəvvüfü yaradan İbn Ərəbi də təsəvvüf tarixində mühüm şəxslərdən hesab edilir. Dünya fəlsəfi irsində dərin təsir qoymuş vəhdəti-vücud

nəzəriyyəsi məhz İbn Ərəbi tərəfindən yaradılmışdır. İbn Ərəbi hesab edirdi ki, Allahın tanınması üçün ağıl və fəlsəfə kifayət edə bilməz, Allahı tam şəkildə tanımaq üçün zəruri ünsür eşqdir. Təsadüfi deyildir ki, İbn Ərəbinin vəhdəti-vücud nəzəriyyəsi, böyük bir təsəvvüf ənənəsinin təməl daşına çevrilmişdir. [219]

Təsəvvüf sisteminin inkişafında üçüncü mərhələ, XII əsrin II yarısından sonra başlamışdır. Bu dövr elmdə həm də təriqətlər dövrü kimi tanınır. Belə ki, təsəvvüfün qayda və metodlarında özünəməxsus yeni fərqliliklər yaradan bəzi görkəmli sufilər artıq öz adları ilə tanınan təriqətlər yaratdılar. Təsəvvüfün bundan sonrakı inkişafı birmənalı olaraq təriqətlərlə bağlı olmuşdur. Hazırkı dövrə qədər də təriqətlər öz varlıqlarını qoruyub saxlayırlar. İslam mədəniyyəti sistemində daha böyük təsirə malik olan sufi təriqətləri olaraq aşağıdakıları sadalaya bilərik:Qadiriyyə, Yəsəviyyə, Rifaiyyə, Kübraviyyə, Sührəverdiyyə, Şaziliyyə, Bektaşiyyə, Mövləviyyə, Nəqşibəndiyyə, Hürufiyyə, Səfəviyyə, Xəlvətiyyə.

Sufiliyin ideoloji əsasları və daşıdığı müəyyən adət-ənənələrə gəlincə, bu baxımdan ənənəvi islam düşüncəsi ilə sufilik arasında üst-üstə düşən və fərqliliyə səbəb olan xüsusiyyətlərin olmasını göstərə bilərik. Bu baxımdan qısa şəkildə sufiliyin ideoloji əsaslarına, yəni əqidə əsaslarına nəzər salmaq yerinə düşər.

Sufiliyin əsas prinsiplərindən ilkin olaraq tövhid və yaxud vəhdəti-vücud göstərilə bilər. Sufi düşüncəsinə görə, ənənəvi islamdakı təkallahlılıq vəhdəti-vücud olaraq göstərilir, yəni varlıq yeganə bir həqiqətdən ibarət hesab edilir. Bu baxımdan varlıq çoxluğu əks etdirən zahirdən və vahid batindən ibarətdir. Digər bir prinsip olaraq eşq götürülməkdədir. Allaha olan eşq Uca Yaradana yaxınlaşmağın başlıca yolu sayılır. Allaha və Onun adının daşıyıcısı olan hər bir varlığa yönəlmiş eşq hər an özünü büruzə verməlidir. Başqa bir prinsip olaraq fənanı göstərmək olar. Sufi düşüncəsində hesab edilir ki, insan Allaha qovuşmaq üçün Allahın vücudunda yoxa çıxmalı, yəni fani olmalıdır. Beləliklə, insan bütün pis cəhətlərdən arınaraq, ilahi xüsusiyyətləri özündə toplamalı və yalnız Allahın əmrinə tabe olmalıdır. Digər

prinsiplərdən vilayəti - Allahın eşqində fani olmuş rəhbərə tabeçiliyi, təriqət və şəriəti göstərmək mümkündür.

Qarşıya qoyulmuş məqsədə nail olmaq, mənəvi cəhətdən təmizlənmək və Allahın vücudunda fani olmaq üçün sufilər müəyyən qaydalara əməl edir, müxtəlif anlayışlardan istifadə edirlər. Bu qaydalar və anlayışların ən vaciblərini aşağıdakılar kimi müəyyən etmək olar:

Riyazət - sufilərin nəfslərini tərbiyə etmək üsuludur. İnsanın öz nəfsi ilə mübarizə aparması kimi tərif edilən riyazət nəfsə qalib gəlmək üçün vacib şərt hesab edilir. Riyazət zamanı nəfsin bütün istəklərinə qarşı çıxılır, dünyəvi ləzzətlərdən uzaq qaçmağa çalışılır. Təsadüfi deyil ki, sufilər ailə qurmur, hətta ailə ilə bağlı olan bütün ünsürlərdən uzaq dururlar.

Xanəgah - sufilər üçün məkan rolunu oynayır. Təsəvvüfdə əsas yer tutan bütün ayin və rituallar xanəgahlarda həyata keçirilir. İslam mədəniyyəti daxilində xanəgahlar xüsusi mədəni abidələrə çevrilmiş, bu tip məkanlara hörmətlə yanaşılmış, belə yerlərə daxil olmaq üçün müəyyən qaydalar işlənib-hazırlanmışdır.

Xirqə - sufilərin geyindikləri özünəməxsus geyim. Xirqənin iki əsas növü ayırd edilmişdir ki, onlar müəyyən rituallar və hallarla bağlı olaraq geyinilir: ibadət məqsədi ilə geyinilən ibadət xirqəsi və mürşid tərəfindən müridə verilmiş təbərrük xirqəsi.

Mürşid, pir və ya şeyx - sufilərin çata bildiyi ən yüksək dərəcədir. Allaha doğru istiqamət götürmüş kəslərə bütün mərhələlərdə düzgün yol göstərən şəxslər bu ali dərəcəyə yüksəlmiş olurlar. Mürid öz mürşidinə qeyd-şərtsiz tabe olur və onun iradəsindən kənar heç bir hərəkətə yol vermir.

Səma - sufilərin təklikdə və ya cəm halında musiqi alətlərində ifa etmələrinə və oxumalarına deyilir. Təsəvvüfdə məşhur olan vəcd halları belə məclislərdə əldə edilir. Bu sadalananlardan başqa təsəvvüfün digər çoxlu sayda adətləri, qayda və qanunları, yanaşmaları da mövcuddur.

İslam alimləri tez-tez insan ağlının məhdud olduğunu dilə gətirirlər. Onlar iddia edirlər ki, ərəbcə *əql* termini etimoloji baxımdan əlaqə, yol mənasını bildirir. XVI əsrdə bir suriyalı alim fransız dilinə tərcümə edilə bilməyən bir söz oyunu qurmuşdu. O deyirdi ki, müsəlman hüquqşünaslar (fəqihlər) öz ağıllarının əsiridirlər. Sufi təliminə görə ağlı heç bir halda kənara qoymaq olmaz, lakin Ali Varlıqla müqayisədə onun yeri nisbidir. İlahi birlik dərkedilməzdir. Onun qavranılması reallıqdan kənardır. İlk vaxtlarda Bağdad məktəbinin müəllimlərindən biri deyirdi ki, "müdriklər kordur...".

Təsəvvüfün məqsədi qəlbi təmizləmək yolu ilə imanı və davranışı ali dərəcəyə çatdırmaq və bu yolla da ilahi səmimiliyə (ixlasa) çatmaqdır. İnsan ixlas yolu ilə "bilir" və "görür". Sufilərin dini mərasimlərinin başında zikr gəlir. Zikr Allahın adını ardıcıl şəkildə, ritmlə tərkrar etməkdir. Onların fikrincə,o ruhu təmizləyən əməl kimi xarakterizə olunur.

Digər bir ritual isə dini xarakterli şeirlərin, peyğəmbərə (s) mədhiyyələrin oxunmasıdır. Qurani-Kərimin Kəhf surəsinin 28-ci ayəsində buyurulur: "Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru). Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan (yoxsul möminlərdən) çevirmə. Qəlbini Bizi (Quranı) xatırlamaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və (hər) işində ifrata varan bir kimsəyə itaət etmə!" [13]

Sufilər hesab edirlər ki, onların yolu islamın 4 hüquq məktəbi tərəfindən tanınır, bu məktəblərin 4 böyük banisi də sözün həqiqi mənasında sufidir, yəni əhli-sünnə tərəfindən müqəddəs və müsəlman imanının ifadəçiləri kimi qəbul edilirlər. İbn Xaldun və Qəzali yazırlar ki, "İmam Şafii sufi şeyxi Şeyban əl-Rainin qarşısında Quran məktəbinə gələn uşaq kimi oturur, bu və ya digər işi necə görmək barədə ondan məsləhət alırdı". [74]

Sufilikdə ali varlıq Allahdır və Ona qovuşulur – yəni Allaha sevgi yolu ilə Onun rizası əldə edilir. Bunun da ilk mərhələsi gündəlik davranışdan, yəni 5 hissdən

uzaqlaşaraq ruhun sərxoşluğu vəziyyətinə gəlməkdir. Bu hal bəzən ekstaz vəziyyətinə gətirib çıxarır. Sufilər “*əl-fəna”* deyilən bir haldan, yəni insanın öz eqosuna qalib gəlməsindən söhbət açırlar. Birinci mərhələ başa çatdıqdan sonra sufi bir an əvvəl imtina etdiyi xarici aləmə qayıdır. Sufi leksikasında bu mərhələ müxtəlif terminlərlə ifadə olunur: *əl bəqa, səhv, rucu* və s. Bu təsvir sırf sxematik şəkillidir. Sufilərin kitablarında göstərilir ki, proses xətti olmayıb dövridir, sufi sözlərinin izahı da ezoterik xarakter daşıyır. Sufi mütəfəkkirlər insan ruhunun Allahı dərk edə bilməsi üçün 3 mərhələni ayırd edirlər: ilk növbədə insan öz ehtiraslarına hakim olur. Bu mərhələni bacaran şəxs mürid adlanır. Növbəti mərhələdə insan ruhən özünü təmizləyir və bu mərhələni keçən şəxs saleh adlanır. Sonuncu, üçüncü mərhələdə isə insan ruhən sakitləşir. [68]

Hər bir sufi şeyxi öz tərəfdarlarına əvvəlki müəllimlərin, mütəfəkkirlərin söylədiklərini (həqiqəti) nəql edir. O ilahi təkliyə çatmağın yollarını bilir və islama istinad etdiyi üçün heç kim onun təlimini şübhə altına ala bilməz. Allaha qovuşmaq üçün qardaşlıqlar müxtəlif ayinləri yerinə yetirir. Bura səhər oyanma, oruc tutma, dərviş rəqsləri, zikr, nəfəsin tənzimlənməsi məşqləri daxildir. Qeyd edək ki, bir çox sufilər təqiblərin qurbanı olmuşlar.

Həllac Mənsur 922-ci ildə Bağdadda uzun məhkəmə prosesindən sonra əzabla öldürüldü. Lui Masinyon bu hadisəni özünün məşhur “əl-Həllacın ehtirası” adlı kitabında təsvir etmişdir. İbn Teymiyyə və İbn Qayyim (15-ci əsr) sufilərin dinin bəzi qaydalarındankənara çıxmalarını tənqid edir, bununla belə əl-Cüneydin timsalında bəzi sufilərin davranışının əsl islama uyğun olduğunu qeyd edirdilər. Bir çox mənbədə hər iki alimin sufi şeyxi Əbdülqadir əl-Cilani ilə əlaqədə olduğu xatırlanır. Rasionalist və islahatçı olan Məhəmməd Abduh və Məhəmməd Rəşid Rida isə əksinə, sufiliyə qarşı çıxır, bu təlimi müsəlman cəmiyyətindəki deqradasiyanın başlıca səbəbi kimi görürdülər. Onlar hesab edirdilər ki, sufizm ətaləti və fatalizmi təşviq edir.

İslam mədəniyyətinin formalaşmasına böyük töhfələr vermiş sufizm, təkcə islam mistisizmi olaraq qəbul edilə bilməz. Sufi təriqətlərinin yaranmasından etibarən bu nəhəng elm və irfan məktəbləri bəzi hallarda həm də siyasi, hərbi, təşkilati institutlar şəklini almış, öz dövrünün ictimai-siyasi vəziyyətinin müəyyənləşdirilməsində mühüm rol oynamışlar. Sufizm nəinki İslam, ümumiyyətlə, dünya tarixinin inkişafı baxımından böyük əhəmiyyət kəsb edərək, öz-özlüyündə əzəmətli bir mənəvi məktəbə və düşüncə sisteminə çevrilmişdir.

### 1.2. Xəlvətiliyin meydana çıxması. Dövrün ictimai - siyasi mənzərəsinə qısa baxış.

Sirr və səssiz zikri əsas kimi qəbul edən xəlvətilik Əmir Teymur dövrünün güclü siyasi təsirlərini əks etdirən ictimai ab-havanın formalaşdırdığı dövrün onlarla sufi cərəyanlarından sadəcə biridir. Elm aləmində Əmir Teymurun səbəb olduğu hadisələr ümumi şəkildə mənfi mənada izah edilir. Amma nəzərə almaq lazımdır ki, Əmir Teymur monqol ulus sisteminin tənəzzülü sonrasında ortaya çıxıb, dağılan bir siyasi ənənənin geridə buraxdığı böyük sosial-iqtisadi süqutun və Çingizxan yasaqlarına əsaslanan ictimai, hərbi və siyasi rejimin sürətlə islamlaşdığı və prosesin tam olaraq tamamlanmadığı dövrün nümayəndəsi idi. Teymurun uzun hərbi səfərləri, izləri XIX əsrə qədər davam edən "Teymur renessansı" adlandırılan memarlıq və mədəniyyətin yaranmasına da səbəb olmuşdur. Bu memarlıq və ədəbiyyat anlayışının ən mükəmməl şəkildə davamçıları da məhz Səfəvilər idi. [105]

Ömər əl-Xəlvəti və Seyyid Yəhya əl-Bakuvi dövrü siyasi mənada Cəlayirlər, Teymurilər və Qaraqoyunlular dövrünü əhatə edir. Təqribən Elxanilər dövlətinin süqutu (1359/60) və Ağqoyunluların Təbrizi ələ keçirdiyi tarixə (1467/8) qədər 100-110 illik dövrü əhatə edən bu dövr siyasi hadisələrin zənginliyi qədər mədəni-sosial hadisələrin müxtəlifliyi ilə də diqqət mərkəzindədir. Cəlayirlər dövlətinin tənəzzülü dövründə meydana gələn Teymur istilası, Əmir Teymurun vəfatından (1405) sonra

dəyişən siyasi şərtlər bölgənin ictimai, sosial və mədəni həyatında böyük dəyişikliklər yaratmamışdı. Ticarət canlılığını qoruyurdu. Hətta Əmir Teymur və Mirzə Şahrux (1408-1447) dövrlərində ticarət imkanları artırılmış, hər iki hökmdar ticarətin və tacirlərin qorunması üçün böyük siyasi çaba sərf etmişdilər. Nizaməddin Şaminin yazdıqlarına görə, Əmir Teymurun zamanında ticarətə verilən əhəmiyyət o dərəcədə böyük idi ki, "qadınlar və uşaqlar belə ticarətlə məşğul olur, heç kim onlara toxunmağa cəsarət edə bilməzdi". [50, 307]

Elxanilərin son dövründə, xüsusən də Əbu Səidin öldürülməsindən sonra (1335) Böyük İpək Yolu üzərində ticarət münasibətləri tamamilə iflas etmiş, Elxani-Cağatay, Elxani-Qızıl Orda və Elxani-Məmlüklü müharibələri Yaxın Şərqdən Çinə və Hindistana qədər uzanan ticarət yollarının fəlaiyyətini dayandırmışdı. Əmir Teymur dövründə bərpa edilən İpək Yolu ticarəti Mirzə Şahrux, Qaraqoyunlu Cahanşah dövründə ticari canlılığını qorudu.Əbdürrəzzaq Səmərqəndinin yazdığına görə, tacirlər Çindən aldıqları qumaşları Azərbaycan, Anadolu və Misir, oradan da aldıqları malları Çinə aparırdılar. [69, 831] Bu uzun ticarət xətti Qahirə, Şam, Konya, Bursa, Ərzurum, Ərzincan, Naxçıvan, Xoy, Təbriz, Sultaniyyə, Qəzvin, Nişabur, Herat, Qəndahar, Buxara, Səmərqənd, Tirmiz, Qarşı, Qaşqar, Pekin kimi şəhərləri bir-birinə bağlayırdı. Bu isə öz növbəsində şəhərlər arasında ticarətlə birlikdə həmçinin sosial münasibətlərin varlığına də təsir edirdi. Azərbaycanda istehsal olunan simli qumaşlar, yun və yun məmulları, qurudulmuş meyvələr Xorasan, Orta Asiya, Hindistan və Çinə aparılarkən, Orta Asiyada istehsal olunan nişadır, yeşim daşı, at, dəvə Çin və Xorasana, Çindən gətirilən keyfiyyətli ipək qumaşları isə Azərbaycan, hətta Ruma qədər daşınırdı. [64, 113-119]

İpək Yolu ticarət xəttində çoxlu sayda tacir fəaliyyət göstərirdi. Hətta müxtəlif məmləkətlərdə yaşayan tacirlər arasında ortaqlıqlar və şirkətlər qurulmuşdu. Misal üçün Azərbaycanlı Ubeydullah Əhrar Anadoludan Hacı Əli Rumi ilə ortaq ticarət aparırdılar. [50, 308]

İpək Yolu xətti üzərində yer alan ticarət karvanları dəvə, at və qatırlardan ibarət uzun qatarlara oxşayırdı. Orta böyüklüyündə bir ticarət karvanında min nəfərlik qafilə yer alırdı. Teymurilərdən Fərqanə hakimi Ömər Şeyx Mirzə zamanında (vəfatı 1494) Çindən hərəkət edən 1000 nəfərlik ticarət karvanı dağ yollarında fırtınaya tutulmuş, tacirlərdən ancaq ikisi xilas ola bilmişdi. Xilas olan həmin iki tacirin bələdçiliyi ilə qar altında qalan mallar tapılmış, karvanlara yüklənərək tacirlərin ailələrinə verilmişdir. [137, 6]

Dövlət sadəcə tacirləri və ticarət yollarının asayişini qorumaqla kifayətlənmir, ölkədəki bazarların və bazar münasibətlərinin inkişafında da maraq göstərirdi. Mənbələr Şahrux Mirzənin və Qaraqoyunlu Cahanşahın bazarlara nəzarət etdiklərini qeyd edirlər. Bu tədbirlər sayəsində Təbriz, Sultaniyyə, Səmərqənd, Herat sadəcə siyasi mərkəzlər deyil, ticarət və mədəniyyət mərkəzləri olmuşdu. Bu şəhərlərdə yerli məhsullarla birlikdə idxal edilən mallar da satılır, bir şəhərdə malların cinsinə görə bazarlar fəaliyyət göstərirdi. Təbrizdə Qalayçılar bazarı, Papaqçılar bazarı, Yəhər qayıranlar bazarı, Təbilçilər bazarı, Nalbəndlər bazarı, Dəmirçilər bazarı, Bıçaqçılar bazarı, Ətriyyatçılar bazarı və başqa bazarlar fəaliyyət göstərirdi. [19, 102]

Ticarətin qazanclı və cəzbedici olması kənd təsərrüfatı və sənayedə də təsirini göstərirdi. Texnik bitkilərin əkilməsinə və istehsalına böyük diqqət yetirilirdi. Artıq bu dövrdə pambığın beş fərqli növü əkilirdi. [50, 309]

Böyük şəhərlərdə ticarət ambarları tikilirdi. Həmin ambarlarda il ərzində istifadə edilmək üçün satılacaq qurudulmuş meyvələr saxlanılırdı. İspaniyalı səyyah və elçi Klaviyonun şahidiyinə görə, sadəcə meyvələr deyil, yemiş kimi tərəvəzlər də qurudulub həmin ambarlarda saxlanılırdı. [44, 99-100]

Şəhərlər sanki sənətkarlıq və sənətkarların mərkəzləri idi. Hər məsləkdən və hər sənətdən insanların toplandığı şəhərlərdə bəzən 60-dan çox məsləkdən olan sənətkarların fəaliyyət göstərdiyi dükanlar və məhəllələr yer alırdı. [37, 115]

İspan elçi və səyyahı bu dövrdə Təbrizi belə təsvir edir: “Təbriz doğrudan da varlı və möhtəşəm bir şəhərdir. Şəhərin qapıları meydanlara açılır və meydanların hər biri bir karvan-saray təşkil edir. Karvan-sarayların içində ayrı-ayrı dairələr və mağazalar var. Karvan-saraylardan çıxdıqdan sonra bazara girilir və bu bazarlarda hər cür mal tapmaq mümkündür. İpək, pambıq, yun, krepşin, taftadan geyimlər və parçalar, zərgərlik əşyaları satılır. Ticarət həyatı çox canlıdır. Bazarların bəzi yerlərində qadınlara aid zinət əşyaları və ətirlər satılır. Qadınlar bu yerlərə gələrək alver edirlər”. [106, 88]

Qaraqoyunlular dövründə Osmanlı ilə güclü ticarət münasibətləri mövcud idi. Təbriz ilə Bursa arasında ticarət xəttinin olduğu, Təbrizdə toxunan qumaş və ipəkli toxumaların Bursaya ixrac edildiyi, Təbrizdən Bursaya, buradan da Avropaya ipək aparıldığı məlumdur. Yenə Bursaya gətirilən italyan mallarının Təbrizə gətirildiyi, ümumiyyətlə Azərbaycan ilə Anadolu arasında davamlı ticarət karvanlarının hərəkət etdiyi qeyd edilir. [81, 276]

Bu ticarət yolu üzərində çox sayda karvan-saray yer alırdı. Cahanşah adına Təbrizdə yeni karvan-saraylar da inşa edilmişdi. [9, 110]

Xəlvətiliyin ortaya çıxdığı dövrdə Azərbaycanda ticarətlə yanaşı kənd təsərrüfatının da inkişaf etdiyi aydın olur. Qaraqoyunlulardan Cahanşah dövründə (1435-1468) Azərbaycanda kənd təsərrüfatında istehsal edilən başlıca məhsullar buğda, arpa, pambıq, paxla bitkiləri (lobya, noxud), qarğıdalı, susam, badam və üzüm idi. [24, 33-37] Cahanşah və dövlət işlərində söz sahibi olan onun arvadı Can Bəyim xatun adına Kaşan Meydan məscidi və ya digər adı ilə Mirimad məscidinin qapısına həkk olunmuş kitabədə belə deyilir: “Kaşan beytül-malına daxil olan Kəsi-Şərifə, Müzəffəri, Qazı Nizam və Nəsrabadi-Sərpeştin cinsləri və mal-mülkləri: buğda, arpa, pambıq, paxla, qarğıdalı, susam, noxud, badəm, üzüm, şurup və yaşıl otların Kaşan xalqına bahalı satılsın, satdıqları gün qiymətindən yüksək satılmasın və günün qiymətinə uyğun verilsin. Əldə edilən qazancı beytül-mala versinlər və bu səbəbdən

oranın xalqına əziyyət etməsinlər”.[71, 245] Kitabə Qaraqoyunlular dövründə kəndlilərin haqqının qorunmasını, əldə edilən məhsulun aşağı qiymətdən satın alan tacirlərin, eləcə də qiymət sisteminin pozulmasının qarşısının alınmasını əmr edirdi.

Beytül-mal adına alınan vergilər Qallati-divanda toplanırdı. Cahanşah dövründə dövlətə aid taxıla da *qalati-divani* adı verilirdi. Burada toplanan taxıl hərbi hazırlıqlar zamanı istifadə edilirdi. Qaraqoyunlulardan Pir Budaq ölkənin hər tərəfinə *tavacılar* göndərib əsgər toplanmasını əmr edərkən, qalati-divanidə toplanmış taxılı da orduya paylamışdı. [78, 209]

Cahanşah dövründə Qumda qalati-divaniyə aid taxıl ambarlarının olması, bu dövrdə başlıca kənd təsərrüfatı məhsulunun taxıl (buğda, arpa) olduğunu göstərir. Bu məlumat eyni zamanda kəndlinin əlindəki taxılın başlıca alıcısının dövlət olduğunu deməyə əsas verir.

İnkişaf edən sahələrdən biri də ipəkçilik idi. Şirvan ipəyi Şam, Kufə və Bursa bazarlarına satılırdı. İpək emalı qədər ipək qumaşların toxuculuğu da mühüm əhəmiyyət kəsb edirdi. Şirvanda və dəniz yolu ilə Çağatay ölkəsindən gətirilən ipəklər Bakı dənizi – Əzzi – Əstarabad yolu ilə Yəzdə aparılır və burada Şərqin ən məşhur qumaşı olan *yəzdilər* toxunurdu. *Yəzdi qumaşlar* Hindistana, Anadoluya, Çağatay və Çin ölkələrinə ixrac edilirdi. [107, 89]

Qaraqoyunlular dövründə torpaqlar *iqta, vəqf, soyurqal, tiyul, miri* və şəxsi mülkiyyət formalarına ayrılırdı. Bunlardan şəxsi mülkiyyətlər *rakabi* və ya *hüquqi* şəxslərin əlində idi. Belə mülkiyyətə sahib kəndlilər torpaqlarını istədikləri kimi istifadə etmək haqqına sahib idi. Mülkü üzərində tam söz sahibi olan hüquqi şəxslərin torpağı əlindən alına bilməz, onlar yalnız öz ərazisini miras olaraq övladlarına bağışlaya bilərdi. Şəxsi torpaq mülkiyyəti sisteminin Səlcuqlilər dövründən etibarən mövcud olduğu və bu sistemin Qaraqoyunlular dövründə də davam etdiyi aydın olur. [125, 356-358]

Türk sosial sisteminin bir parçası olan Qaraqoyunlularda *ulus* anlayışı güclü olsa da sosial təbəqələr arasında kəskin sosial və siyasi ayrım yox idi. Kasta sisteminin olmadığı bu cəmiyyətlərdə siniflər arasındakı fərq kimliyə deyil, statusa əsaslanırdı. Ordu və dövlət türk tayfalarının nəzarəti altında idi. Amma bu tayfalarda hərbi mükəlləfiyyət sinifi bir imtiyazla deyil, tayfanın ortaq məsləki hesab edilirdi. *Ordu-millət* sistemınə əsaslanan bu anlayış hərbi güc olaraq türk tayfalarının əsgəri gücünə əsaslanırdı. [84, 213-214]

Tayfaların ittifaqından yaranmış Səlcuqlu, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilər kimi türk dövlətləri əsasən dövlət idarəçiliyində və ordu sistemində bağlı olduqları tayfaların insani gücündən istifadə edərkən məmur kadrlarında başqa etnik ünsürlərdən yararlanırdı. Bu cəhətdən dövlətin xanədan və hərbi sistemi türklərdən, divan və məmur aparatı türk olmayan xalqlardan meydana gəlirdi. Bu sistem Sacilərdən, Tulunilərdən, Qəznəvilərdən etibarən İslam coğrafiyasında yararmış bütün türk dövlətlərinin təqib etdikləri dövlət sistemi olmuşdur. Xanədan, onun ətarafında yer alan tayfa bəyləri, ordu başçıları və əsgərdən ibarət olan hərbi-bürokratik sistemin digər tərəfində üləma (dövlət və elm bürokratiyası), aşağı təbəqədə isə xalq yer alırdı. Bu sistem müasir dövrlərə qədər (XIX əsrə qədər) türk dövlətləri tərəfindən davam etdirilmişdir. Bundariyə görə, bu dövlət ənənəsi idi: "Bizim dövlətimizdə qədim və yaxşı bilinən məşhur ənənələr mövcuddur. Buna görə, xələflərə müamilədə babaların haqlarına riayət etmək, ataların məqam və mənsəblərini oğullarına vermək, geniş təvəccüh göstərmək və buna mənəvi qəlblə yanaşmaqdır". [58, 227]

Səlcuqlu, Teymurlu, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və Osmanlı dövlətlərində *xalq* geniş bir məfhum idi. Rəşidəddin Vatvat xalqı üçüncü təbəqə hesab edir və belə yazır: "Üçüncü təbəqəni təşkil edənlər ölkənin avam xalqı (*ammat əl-bilad*), yəni xalq və əhfad adlandırılır. Bu təbəqəyə sənətkarlar (*ərbabi-sana`at*) və kəndlilər (*ərbabi-zira`at*) daxildir. Onlar dövlətə sədaqətin nə olduğunu bilmirlər, ona nifrəti də bilmirlər, nə ixtilaf, nə də razılaşma yolunda əmir tanımırlar. Onların əsas

məqsədi yaşamaq üçün öz keçimlərini saxlamaq, qadın və uşaqlarının ehtiyaclarını qarşılamaqdır. Onlar şər işlərdən sitəm etməkdə azaddır və hər zaman sükunəti istəyirlər. Bu təbəqənin işlərinin səlaməti onların əllərinin zəhmətində və alın tərindədir". [102, 45-46]

Bu maraqlı məlumat, üçüncü təbəqənin dövlət adına mükəlləfiyyət daşımadığını və sərbəst olduğunu göstərir. Belə ki, hərbi səfərlər, müharibələr zamanında xalq tərəfsiz qəbul edilirdi. Məğlubiyyət zamanı şəhər, qəsəbə və kənd xalqı qalib tərəfin əmrlərinə uyğun hərəkət edir, nadir hallarda düşmənə qarşı çıxırdılar. Xalq bu davranışında dövlət qarşısında heç bir məsuliyyət daşımırdı və dövlət də ondan bunu tələb etməzdi.

Rəşidəddin Vatvat sənətkar, tacir və kəndliləri üç təbəqəyə ayırsa da onlar arasında maddi və sosial statuslarına görə kateqoriyalar vardı. Kateqoriyanın başında emalatxanalar (*karxanə*), dükanlar və mülkədarlar (*dexqan*) gəlirdi. Emalatxanalar sənətkar ocaqları (dəmirçilər, misgərlər və s.), dərzixanalar, qumaş emal edən müəssisələrdən ibarət idi. [49, 233]

Xalq təbəqəsinin ikinci başında torpaq sahibləri (*mülkədar*), torpaq sahibkarları (*dexqan*), dövlət və dövlət dairələri üçün çalışan sənətkarlar (*usta*) yer alırdı. Dövlətlə çalışmaq ustalar üçün daimi iş imkanları saxlasa da, ağır iş sistemi ustaların çoxunun dövlət xidmətindən qaçmasına səbəb olurdu. "Qabusnamə"də sənətkarlar arasında işlədilən bir zərb-məsələ diqqət çəkilir: "Bir dəfədə on qazanmaqdansa, alıcını qiymətlə qorxutmadan iki səfərdə beş qazanmaq daha yaxşıdır". [83, 193]

Xalq təbəqəsinə doğramaçılar, muzdlu işçilər, inşaatçılar, sərraflar da daxil idilər. Bunlar *suxra* (qarşılanmayan işlər), *icbar* (təhaüttlər), *fil* (məcburi işlər) kimi *haşərə* adlandırılan müxtəlif sosial xidmətləri icra etmək məcburiyyətində idilər.[33, 21]

Bəzi çalışmalarda qeyd edildiyi kimi, orta əsrlərdə qadınlar ictimai fəaliyyətlərin kənarında deyildilər. Qadın iqtisadi həyatda olduqca aktiv idi. Jack

Goody, orta əsrlər Şərq cəmiyyətində qadınların ev iqtisadiyyatında və manufakturalar şəklində fəaliyyət göstərən emalatxanalarda əsas işçi gücü olduqlarını qeyd edir. Müəllif bunları "bərabər hüquqlu kollektivçilər" adlandırır. [75, 118] Qadınlar arasında əsnaf loncaları, təhsil təşkilatları, hətta hərbi birlikdə də fəaliyyət göstərənlər var idi.

Bacıyani-Rum, yəni Anadolu bacıları adlanan əxiliyinin qadın qolu kimi fəaliyyət göstərən bu təşkilatlar Xorasan, Azərbaycan, Anadoluda böyük bir qadın kütləsini öz səflərində birləşdirmişdi. Bu təşkilatın Xoylu alim Əxi Evrənin arvadı Fatma Bacı tərəfindən yaradılması təşkilatın Azərbaycan qadınları arasında ciddi gücə sahib olduğunu göstərir. [56, 365-379]

### 1.3. Sufi xəlvətilərin əsas ideya mənbələri.

Xəlvət termini və təsəvvüfi mahiyyəti.Lüğəti mənada "yalnız qalmaq" mənasına gələn *xəlvət* sözü, geniş mənada "tənha yerdə təkbaşına qalmaq", "tamamilə tək qalmaq", "tənha yer", "tənhada qalmaq", "xəlvətə girərək ibadət, zikr və riyazət ilə vaxt keçirmək üçün tənha bir hücrəyə girmək, hamamın xüsusi bölməsi" deməkdir. [114]

Ərəbcədə "yalnız qalıb, tənha bir yerə çəkilmək" mənasına gələn xəlvət, təsəvvüfdə "zehini konsantrasiya etmək və bəzi xüsusi zikrlərlə riyazət gerçəkləşdirmək üçün şeyxin müridini qaranlıq və xarici aləmdən tamamilə uzaqlaşdıraraq bir yerdə müəyyən bir müddət üçün bağlı saxlaması"nı ifadə edir. Bu mərhələdə təsəvvüf əhli "Allah ilə gizlicə danışmaq, qəlbi mənfi hisslərdən və şər duyğulardan təmizləmək və xilas etmək üçün xəlvətə çəkilir". Kaşaniyə görə, bu mərhələdə "qul özünü bütün hissləri ilə Allaha verir, Ondan qeyri hər şeydən uzaqlaşır". [60]

Təsəvvüf ədəbiyyatında ilk xəlvətə çəkilmiş şəxs Adəm Peyğəmbər (ə) hesab edilir. Annemari Şimmel bu halı belə şərh edir: "Mütəsəvviflər, təsəvvüfüvə ideal

sufinin xüsusiyyətlərini təhlil edərkən *safa* (saflıq) sözü üzərində kəlmə oyununu aparmaqdan xoşlanıblar. *Sevgi ilə saf hala gələn sufi olur, sevgilinin saf hala gətirdiyi insan sufidir*, yəni tamamilə İlahi Məşuqda yox olmuş və Ondan başqasını fikirləşməyən insan həqiqi sufi mərhələsinə çatmışdır. Sufilərin Adəmi (ə) ilk sufi olaraq tərif etmələrinə təəccüb etməmək lazımdır. Çünki Allah, Adəmin (ə) bədəninə can vermədən əvvəl o (mənəvi yolda yeriməyə başlayan salik kimi) 40 gün xəlvətə çəkilmişdi (ərbain çıxartmışdı). Allah ağıl işığını qəlbinə, hikmət nurunu da dilinə vermiş və Onun əli ilə yoğurulan Adəm (ə) xəlvətdən aydınlığa sufi kimi çıxmışdır".[108, 35]

Tunis tətqiqatçısı, professor Nelli Amriyə görəD'une pratique surérogatoire de purification de l'âme charnelle, de renoncement à tout ce qui n'est pas Dieu et d'extinction totale dans Son *dhikr* (remémoration), concomitante à l'apparition des premières vocations mystiques en Orient comme en Occident musulman et attestée en Ifrîqiya dès le III^e^/IX^e^ siècle, la *khalwa* (comme nom verbal) en viendra à incarner une méthode de réalisation spirituelle inscrite désormais dans le processus initiatique, sous l'autorité et la direction d'un cheikh dont elle marque également l'affiliation à sa *tarîqa* (voie spirituelle). Cette évolution, stimulée par l'apparition des voies, ainsi que par l'influence de l'Orient, et attestée par certains cas bien documentés, n'est pas, toutefois, générale. Les usages attachés à la pièce désignée comme *bayt al-khalwa* qui, dans un *ribât* ou une *zâwiya*, est assignée à la pratique de la *khalwa*, témoignent de ces infléchissements ; la *khalwa* dans certaines *tarîqa*-s (comme la 'Arûsiyya-Salâmiyya) garde sa première signification, celle d'être un lieu rattaché à l'usage personnel du cheikh et de ses prières surérogatoires. [174]

Tədqiqatçı E.Həsənovaya görə bu cərəyan bu və ya digər dərəcədə müxtəlif dinlərin-iudaizmin, xristianlığın, buddizmin, zərdüştiliyin, qədim Yunan fəlsəfi təlimlərinin, əsasən də ilahinin emanasiyasının, panteizmin, neoplatonizmin, Plotinin, Hindistanın, Ərəb Şərqinin və İran fəlsəfəsinin təsirinə məruz qalmışdır. Tədricən o

müsəlmanların ideoloji və ideya-siyasi həyatında mühüm rol oynayan nəzəriyyə və praktikaya çevrilmişdir. Bununla belə, xarici təsirlərə baxmayaraq, Quranın ayə və surələrinə əsaslanan təsəvvüf islam dini bazasında inkişaf etmişdir.[36, 163]

Quşeyriyə görə, xəlvət safvət əhlinin sifəti, üzlət vüslət əhlinin əmarəsidir. Təsəvvüfdə başlanğıc mərhələsində olan müridin həmcinsindən ayrı (uzlət halında) yaşaması, nəhayət halında, üns mərtəbəsini gerçəkləşdirdiyi üçün xəlvətdə olması şərtdir. Uzləti tərcih edən biri üçün haqq olan şey xalqdan ayrı yaşamaqda məqsədin insanların şərindən sələmətdə olmaq deyil, insanların öz şərindən sələmətdə olmalarına inanmasıdır.

Bu iki yoldan ikincisinin özünü xor və həqir görmənin, birincisi isə xalqda olmayan bir məziyyətə sahib olmağa inanmasının nəticəsidir. Nəfsini xor və həqir görən mütəvazi olur, özünü başqalarından üstün tutan isə təkəbbürlü olur.[70, 66]Təsəvvüfi termin olaraq *xəlvət* günahdan çəkinmək və daha yaxşı ibadət etmək üçün tənha yerlərdə yaşamağı, insanlardan uzaq olmağı şərt sayır. Xəlvətilikdə buna əsas kimi Məhəmməd Peyğəmbərin (s) vəhy almadan əvvəl vaxtının çoxunu Məkkə yaxınlığındakı Hira mağarasında keçirməsi göstərilir. Sorbonna Universitetinin Milli Elmi Araşdırmalar Mərkəzinin direktoru professor Tyerri Zarkon özünün "Xəlvətiyyə sufi ordenində təkliyə çəkilmə (xəlvət) təlimi: antropoloji yanaşma" məqaləsində, Xəlvətiyyə Sufi ordenində, insanın öz nəfsindən arınması üçün təkliyə və xəlvətə çəkilmə kimi, bu ordenə məxsus müxtəlif yolları və üsulları araşdırmağa çalışmışdır. Araşdırma ələlxüsus Osmanlı imperiyası zamanında (Kastamonuda Şabani məqamı, İstanbulda Sünbül Sinan və Mərkəz Əfəndi məqamları, Orta Şərqdə, (məsələn Aleppoda Hilaliyyə, Qahirədə Dəmirdaşiyyə və İbrahim Gülşəni məqamları) mövcud olan qollara həsr olunmuşdur.

Bu təriqətdə ağac oyuqlarında, mağaralarda və ya hücrələrdə icra olunan çilələr arasında olan fərqlər, zamanla meşə və ya dağlarda icra olunan müstəqil təkliyin, sufi

təkyələrində və zaviyələrində istiqamətli və əsaslanmış xəlvətə dəyişmə kimi hərtərəfli tədqiq olunmalıdır.

Xəlvət çətin, məşəqqətli və çiləli ibadət həyatıdır. Xəlvətə girən mürid şeyxinin nəzarətində qaranlıq bir otağa daxil olur və sistemli bir zikr və ibadət mərhələsi keçir. Xəlvətə girilən otaqlara *xəlvətxanə* adı verilir.[117, 388-393]

Belə otaqlar kiçik, dar, əsasən bir və iki nəfərin qalacağı şəkildə olur. Xəlvətxanədə çilə keçirən müridin zəruri ehtiyaclarını qarşılayacaq əşyalardan başqa heç nə olmaz. Xəlvətxanənin ortasında qoyun dərisi (*post*) yer alır və *xəlvətnişinin* (xəlvətə girənin) qidasını mürid yoldaşları gətirir. Xəlvətdə qaldığı müddət ərzində mürid mümkün olduqca az yatır və uzun zikrlər çəkir. Gündəlik yatmaq saatı 2-4 saat arasında dəyişir. Çilə sırasında meydana gələn halsızlıq və yorğunluq zamanı yatmamaq üçün müridlər bir qayışı boğazlarına, digər ucunu isə ayaqlarına bağlayırlar.Yatmaq istədiklərində *müttəka* adı verilən tuncdan hazırlanmış bir əşyanın üzərinə başlarını qoyurlar. Xəlvət 40 gün davam etdiyi üçün buna *çilə* adı verilir. *Çilə* farsca "qırx" deməkdir.[94, 316-317] Bu termin "əhli-tariqin (təriqət əhlinin) 40 günlük riyazətini" ifadə edir. Özü də sufi məşrəbli şair olan və "Şeyx" adı ilə çağrılan Nizami Gəncəvi 40 dəfə 10 günlük çiləyə girdiyini qeyd edir.[113, 386-387]

Xəlvəti şeyxi olan Ömər əl-Fuadi isə xəlvəti tam bir gizlilik halı olaraq şərh edir. Ona görə, "heç bir insan, hətta mələk olmadığı yerdə ruhun gizlicə Allahla danışması" xəlvətdir.[96]

İlk dövr təsəvvüf mənbələrində xəlvətin uzlətin bir parçası olduğu qeyd edilir. Quşeyrinin risaləsində də xəlvət bu mənada qeyd edilib. Daha sonra xəlvəti təsəvvüfi həyatın riyazət şəkli qəbul edən sufilər bu metodu insanın hissi və nəfsi davranışlardan uzaqlaşıb, qəlb gözünün açılmasında bir istiqamət olaraq seçdilər. Xəlvəti tam bir təsəvvüf metodu halına gətirən Seyyid Yəhya olmuşdur ki, o, xəlvətin 24 qaydasını göstərmişdir.[55, 57-58]

Cifr elmində *xəlvətiyyə* adının xüsusi bir mənası və məramı olduğu iddia edilir. Buna görə, başdakı “*Xi* səsi – masiva fikrindən qəlbi boşaltmaq mənasına gələn *xuluvv*-a işarədir. “*Lam* hərfi zikrin ləzzətinə, *vav* - *vikayə*, yəni qorunmağa, *te* – təmkinə, *ya* – çətinlik (*usr*), *he* –*müşahidəyə* dəlalət edir”. Amma bunun hürufilik təsiri ilə yaranmış bir açıqlama olduğu aydın görünür. [131, 20]

Musa Peyğəmbərin Turi-Sinada Allahla əhdləşmək üçün keçirdiyi 40 günlük oruc və ibadət həyatı da xəlvətə işarə olaraq göstərilir. Bu məlumatın Sührəverdinin “Əvarif əl-məarif” əsərində qeyd edilməsi, xəlvətin güclü dəlilləri arasında zikr edilməsinə səbəb olmuşdur. [115, 263-264]

Təsəvvüfi cərəyanların təsiri ilə çox yayılan xəlvət anlayışı dini mühitdə bir çox mübahisələrə də səbəb olmuşdu. Bu mübahisələrin qaynağında “xəlvətin sünnət olub-olmadığı” fikri yatırdı. Sufi və sufi yönümlü alimlər Məhəmməd Peyğəmbərin (s) xəlvətə çəkilməsini sünnət qəbul edib, müsəlmanlar tərəfindən icrasında heç bir maneə qəbul etmirdilər. Amma şəriət alimləri buna etiraz edirdilər. Bu mübahisələrin sonunda alimlər *itikaf* adı verilən hadisəni sünnət qəbul ediblər. Buna görə də, itikaf “məscid hökmündə xüsusi bir yerdə ibadət məqsədi ilə müəyyən bir müddət qalmaq” deməkdir. Bu fikri qəbul edənlər, Məhəmməd Peyğəmbərin (s) Mədinədəki həyatını davamlı itikafda keçirdiyini və bunun da “sünnəti-müəkkədə” olduğunu dilə gətiriblər. [72, 136-137]

Xəlvətilik təriqət şəklini aldıqdan sonra xəlvət təriqətin məcburi halı olaraq mənimsənmişdir. Xəlvəti şeyxi Ömər əl-Fuadi (vəfatı 1636), xəlvəti bütün peyğəmbərlərin icra etdikləri bir hal olduğunu vurğulayaraq, bütün peyğəmbərlər tərəfindən icra edilən davranışın məcburiyyət olduğunu qeyd etmişdir. [95]

Xəlvətin mənşəyi haqqında fərqli fikirlər səsləndirən tədqiqatçılar da olub. Bunlardan B.C.Martin, xəlvət anlayışının xristianlıqda mövcud olduğunu və İslam təsəvvüf anlayışına buradan keçdiyini qeyd edir. Ona görə, ilk dövr xristianlarının xalqdan uzaq məkanlarda monastırlar qurub yaşaması xristian çilə, yəni xəlvət

anlayışına işarə idi. Amma bu iddia təsəvvüf araşdırmacıları tərəfindən tənqid edilmişdir. [215, 275]

Xəlvət haqqında ilk müstəqil əsər (*risalə*) İbn Ərəbi (vəfatı 1263) tərəfindən yazılıb. İlk dəfə O, xəlvəti xalqdan uzaqlaşmaq və Allahla yaxınlaşmağın bir metodu olaraq şərh edib.İbn Ərəbinin xəlvət haqqında yazdığı əsərlər bunlardır "əl-Ənvar fima yemnahu sahib əl-xəlvət əl-mütləqa" və "əl-Xəlvət əl-Mütləqa".Bu iki risalə Qahirədə nəşr edilib.

Təsəvvüf mühitində bəzi cərəyanlar arasında xəlvət məsələsi ciddi tənqid edilib. Misal üçün Şəms Təbrizinin də içində yer aldığı, daha sonra Mövlana Cəlaləddin Rumi tərəfindən qəbul edilən qələndəri fikirlərə görə, sufinin yolu xəlvətdən deyil *cəlvətdən* keçirdi. Xəlvətdəki xalqdan uzaqlaşmaq və tənhalaşmaq yerinə, xəlvətdə xalqa qarışmaq və insanlarla iç-içə olmaq fikri əsas alınmışdır. [82, 151]

Tənha hücrədə (zaviyə) və ya yabanı təbiətdə xəlvətə çəkilmə təliminin mahiyyəti araşdırılır. Bu ordenin təlimatında mistik metodun mühüm tərəfi, guşənişinlik ortamlarının (beyt əl-xəlvət) həmçinin bu yetişmə (kamilləşmə) ortamları ilə əlaqəli praktikaların spektrinin müxtəlifliyi hesab olunur. Təsəvvüfi məqsədlər üçün (periodik) məkan izolyasiyası və ya dünyadan təcrid olma üsulları, bir növ mənəvi qida alma, həmçinin "böyük müqəddəs cihad" kimi görünür. Xəlvət təliminin böyük cihad kimi qəbul olunmasına oruc və nəfsi öldürməyin digər yolları, yuxusuzluq, əsasən zikr (ədəb. "özünü xatırladan") vasitəsi ilə beynin konsentrasiyası kimi asketik nizamlar daxildir. Müsəlman mistisizmində inzivaya çəkilmə İslamın mənşəyinə qayıdan mənəvi təlimdir, hansının ki, ilk örnəyi Məhəmməd peyğəmbərin (s) peyğəmbərliyə hazırlaşdığı və ilk Quran vəhyi aldığı Hira dağındakı mağarada təkliyə çəkilməsidir. Müsəlman rəvayətlərinə görə, İncil peyğəmbərləri Zəkəriyyə və Yeşaya da ağacın gövdəsindəki oyuğasığınıb dualar edərmişlər.

Xəlvət məkanı gün işığının daxil olmadığı qaranlıq yer olmalıdır. Xəlvətə çəkilmənin məqsədi “xarici hisslərin bağlanması” və “daxili hisslərin açılmasıdır”. İntellektual və mənəvi motiv, qapalı bir məkan içindəki xəlvətin əsasən vücudun müvəqqəti qəbirdə olması və bətnin genişlənməsi ilə müqayisəsidir. Yeraltı məkan və ya hücrədə meditasiya etmə və təkliyə çəkilmə kimi tərki-dünya həyat tərzi zamanı mürid bu psixoloji durumu nəticəsində dünyəvi bağları unudaraq – mal-mülk, onu real həyata bağlayan arzular və şəhvani həvəslərinin istəklərindən qurtulur.

Görkəmli təsəvvüf şeyxi Əl-Dardiri Əl-Qəzaliyə istinad edərək bildirir ki, Allahın bizə qadağan etdiyi daxili əməllər bunlardır:

- təkəbbür və riyakarlıq;
- tərif və şöhrətə məhəbbət;
- hakim mövqe tutmaq istəyi;
- özünü məşhur etmək üçün mənsəbpərəstlik;
- nifrət, paxıllıq;
- inciklik, xəsislik və xeyirli işlərəqarşı çıxan hər bir şey.

Xəlvətiyyənin diktə etdiyi, sonradan artıq Əl-Qəzali tərəfindən işləyib hazırlanan sosial normalar bunlardır:

- qarşılıqlı məhəbbət;
- Ruh birliyi;
- Altruizm;
- mərhəmət ruhu;
- zərif iltifat;
- özünə hörmət;
- özünüithaf;
- qəlb nəcibliyi[74, 369-383]

Qəzalinin də təbirincə, Xəlvətiyyə təlimi qəlbin Yaradana ehtiraslı çağırışını, İslamın ehkamlarını və bu dünyanın qanunlarını uzlaşdıraraq İslamın yayılmasında

əhəmiyyətli rol oynayıb. XIV əsrdə meydana gəlmiş, XVI əsrdə təkamül etmiş, XVIII əsrdə isə intibahını yaşamış Xəlvətiyyə "ruhun Allahla birbaşa əlaqəyə girməsi məqsədilə Peyğəmbərə (s) bənzəmə cəhdlərini" əsasən "minimistik mistika"ya yaxınlaşdırmışdır. Ruhun Allahla birbaşa əlaqəyə girməsi vüsal adlanır, bu isə artıq ruhun Allaha bənzəməsi olmayıb yalnız ittifaq (ittisal) imkanı deməkdir.

## FƏSİL II

## XƏLVƏTİYYƏ TƏRİQƏTİNİN YARANMASI VƏ İNKİŞAFI

## 2.1. Xəlvətiyyə təriqətinin ortaya çıxması və təriqət silsiləsi

Şeyx İbrahim Zahid Gilaninin xəlifələrindən Əxi Məhəmməd Xəlvətinin (vəfatı 780/1378-79) qardaşı oğlu və müridi Ömər əl-Xəlvəti (vəfatı 800/1397-98) tərəfindən təməlləri atılan xəlvətilik XV əsrdə ictimai-siyasi və mədəni həyat tərzinin məhsuldur. Süleyman Uludağ, banisinin Ömər əl-Xəlvəti olmasına baxmayaraq təriqətin həqiqi qurucusunun Seyyid Yəhya əl-Şirvani və ya Bakuvi olduğunu vurğulayaraq, bu təsəvvüfi dini-fikri cərəyanın Azərbaycanda ortaya çıxdığını, sürətlə Anadoluya, Anadoludan Balkanlara, Suriya, Misir, Şimali Afrika, Sudan, Həbəşistan, Cənubi Asiya, hətta Əndəlüsə (İspaniya) yayıldığını qeyd edir.[126, 394]

Xəlvətilik Anadoluya Ömər əl-Xəlvətinin xəlifəsi Sədrəddin Hiyavinin müridi Amasiyalı Pir İlyas tərəfindən gətirilmişdir. Seyyid Yəhya Şirvaninin ən tanınmış xəlifələri isə Dədə Ömər Rövşəni, onun böyük qardaşı Əlaəddin Əli, Pir Şükrullah Ənsari, Həbib Qaramani, Məhəmməd Bəhaəddin Ərzincani və Ziyaəddin Yusif Şirvani olublar. Həbib Qaramani xəlvətiyyə içində yeni bir qol meydana gətirmiş və onun müridlərindən Camal Xəlifə adı ilə tanınan Cəmaləddin İshaq Qaramani (vəfatı 933/1527) tərəfindən xəlvətiyyə İstanbulda yayılmışdır. Seyyid Yəhyadan sonra xəlvətilik Rövşəniyyə (Dədə Ömər Rövşəni, vəfatı 892/1487), Cəmaliyyə (Cəmali Xəlivəti, vəfatı 899/1494), Əhmədiyyə (İgidbaşı Əhməd Şəmsəddin, vəfatı 910/1504) və Şəmsiyyə (Şəmsəddin Sivasi, vəfatı 1006/1597) şəklində dörd böyük qola ayrılmışdır. Bu qollar da şöbələrə ayrılmış və digər təsəvvüfi cərəyan və fikirlərdən təsirlənmişdir. Əhmədiyyə qolunun Misir şöbəsini təşkil edən Misriyyənin banisi Niyazi Misri güclü şəkildə İbni Ərəbinin *vəhdəti-vücud* anlayışının təsiri altında qalmışdır.

Mənəvi cəhətdən ruhi bir disiplin sistemi olaraq xəlvətiliyin *sührəverdilikdən* ilham aldığı iddia edilir. Böyük sufi Əbu Həfs Şihabəddin Ömər əs-Sührəverdiyə (vəfatı 1234) nisbət edilən sührəverdiyyə təriqəti Anadoludan Hindistana qədər geniş

bir coğrafiyaya yayılmış, özündən sonrakı sufi çevrələrə güclü təsir göstərmişdi. Təriqətin bəzi qolları Benqala qədər yayılmış, hətta sührəverdiliyin Benqaldakı qolunu Cəlaləddin ət-Təbrizi yaratmışdı.[97, 42-45]

Bütün təsəvvüf camaatları kimi xəlvətilik də təriqət halını aldığı tarixə qədər mərhələli bir inkişaf dövrü keçmişdir. Tədqiqatçılar bu mərhələni dörd dövrə ayırırlar:

1. Əbdülqahir Sührəverdidən Şeyx İbrahim Zahid Gilaniyə qədər olan dövr (X-XIII əsrlər). Bu dövr xəlvəti mənbələrində *xəlvətiliyin üsul dövrü* adlanır.

2. Şeyx İbrahim Zahid Gilanidən Pir Ömərə qədər olan dövr (XIII-XIV əsrlər). Bu dövrə *təriqətləşmə* dövrü adı verilir.

3. Pir Ömərdən təriqətin fikri və təriqəti əsaslarını formalaşdıran Seyyid Yəhya Bakuviyyə qədər olan dövr (XIV-XV əsrlər). Bu dövr *təkamül* dövrü adlanırdı.

4. Seyyid Yəhya ilə başlayıb inkişaf edən və yayılan dövr (XV əsrdən sonra). Bu dövrə *təqiətləşmə və şöbələnmə* dövrü adı verilir.[88, 6]

Əbu Abdullah Siracəddin Ömər ibn Əkməléddin Lahici Xəlvəti tərəfindən təməlləri atılan və Seyyid Yəhya Şirvani-Bakuvi tərəfindən təriqətin əsasları formalaşdırılan xəlvətilik təsəvvüf tarixində fikir olaraq qədim olsa da təriqətləşmə mərhələsinə XIV əsrdən etibarən keçmişdir.

Xəlvətiliyin fikri və təriqət əsasları cəhətdən iki böyük sufi banisinin olduğunu iddia edə bilərik. Bunlardan ilkinin banisi Pir Ömər adı ilə tanınan Əbu Abdullah Siracəddin Ömər ibn Əkməléddin əl-Gilani əl-Lahici əl-Xəlvəti, ikincisinin banisi isə Seyyid Yəhya Bakuvidir.

Azərbaycanın Şirvan bölgəsinin əsilzadə ailəsindən olan Pir Ömər Şamaxı şəhərinin Avaxıl kəndində anadan olmuşdur. Atası Şeyx Əkməléddin sadəcə Lahıcın deyil, Şirvanın ən nüfuzlu şəxsiyyətlərindən idi. Atasının da sufi olduğu şeyx adını daşımasından aydın olur.[79, 345] İlk təhsilini anadan olduğu kənddə atasından alan Pir Ömər əsgər olmaq həvəsində idi. Həddi-buluğa çatdıqdan sonra Elxanlı ordusunda yer almış, ancaq bir döyüşdə əsir düşmüşdür. Başqa bir iddiaya görə, başında yer

aldığı hərbi dəstə məğlub olunca qaçır və qaçdığı zaman keçirdiyi hisslər onun təsəvvüfə meyl etməsinə səbəb olmuşdur.[57,55]

Xarəzmə gedən Pir Ömər burada əmisi “Əxi Məhəmməd” adı ilə tanınan Məhəmməd Xarəzminin söhbətlərinə qulaq asmış və təsəvvüfdə ona intisab etmişdir. Şeyx Əbül-Füyuzat Kərimədin Məhəmməd əl-Xarəzmi adı ilə tanınan bu şəxs əxi olub, tez-tez xəlvətə çəkilməsi ilə məşhur idi. Mənbələr onun xəlvəti çox sevən dərviş olduğunu yazırlar. Pir Ömərdəki xəlvət hissini oyadan da onun bu çiləli həyat tərzi olmuşdur. Daha sonra əmisi ilə birlikdə Lahıca gələn Pir Ömər Xirə qəsəbəsinə yerləşmişdir. Əmisinin vəfatından sonra onun məqamına oturan Pir Ömər irşad fəaliyyətlərinə başlamışdır. Daha sonra Təbrizə, buradan da Xoya gedən Pir Ömər Misirə bir səyahət təşkil etmişdi. Sonralar, on altıncı əsrdə, Misirdə, Xəlvətiyyə şeyxlərindən Əl Bəkri(h.1100-1152) tərəfindən əhəmiyyətli dərəcədə yenilənənə qədər dirçəldilmişdir. Lakin onlardan ən vacibi təriqətin Əl-Əzhar Universitetinin şeyxi, məşhur əl-Dardiri (XVIII) (malikilər ayinindən olan əşəri) tərəfindən dirçəldilməsidir.

Bu ardıcıl dirçəlişlər yalnız qardaşlığın primitiv rekonstruksiyası idi və yalnız bir neçə praktik detal tədricən dəyişdirilmişdi. Neofitlər (yeni cəlb olunmuşlar) “əhd əl-yəd” və ya “əlqoydu” andı içir, virdlərə və ya aşağıdakı surələrdən götürülmüş ibadət duaları üzrə meditasiya edirdilər. Meditasiyanın bu təlimatlarına zikrlər, Allahın “gözəl adları” əlavə olunur.

Əl-İxlas, Əl-Fələq, Əl-Nas çox gözəl və parlaq ritmli, sehirli qüvvəyə malik çağırış dualarıdır. Əl-Nas surəsini qoruyucu dua adlandırırlar. Əl-İxlas surəsini bəzən Əl-Tövhid və ya “Allahın Təkliyi” duası da adlandırırlar. Əl-İxlas adı xüsusən doğrudan da tam Vəhdətə can atan sonrakı mistiklər üçün islamın başlıca və mütləq ehkamı olan tövhidlə səciyyələnən “saf və səmimi kultun tanınması aksiyası” mənasını verir.

Əl-Dardirinin tövsiyə etdiyi kimi möminin Allaha məhəbbəti öz şeyxinə olan məhəbbətindən daha yuxarıdır, zira şeyxə məhəbbət yalnız vasitədir, halbuki Allaha və ya onun həvarisinə məhəbbət bir özməqsəddir ki, bu da hətta tənha mistik zahid üçün belə qeyri-dünya həyatının məqsədi ola bilər. Şagirdlər ancaq Allah haqqında düşünməli, Onun əmrlərinə riayət etməlidirlər. Onlar mümkün qədər tez-tez özünütəhlil də etməlidirlər. Xəlvətiyyənin tövsiyə elədiyi zöhd bu dünyadan saf və sadə uzaqlaşmağı nəzərdə tutur. Bu elə bir fəal zöhddür ki, o xəlvəti müsəlman mistiklərinə xeyirli işlər görmək, başqalarını Allaha yönəltmək üçün başqaları ilə qarışmaq haqqı verir və hətta onları buna məcbur edir.[149, 20] Buna görədir ki, yolun qaydalarında ehtiva olunan Tuhfatul-İxvana möminə hiss etməli olduğu Allah qorxusu daxildir, Allah qarşısında mömininin hiss etməli olduğu qorxunu müəyyən edir. O fikir və əməllərə aiddir.[242]

Ardıcıllar kütləsi üçün Xəlvətiyyə doktrinası hesablaşmaq, bağışlamaq və mərhəmətdən ibarətdir. Bunda yoxsullar qardaşlığı olan Qadiriyyənin mirası hiss olunur. Məlumdur ki, Əl-Hac Ömər gecə ibadətlərini könüllü olaraq oruc tutaraq və oyaq qalaraq, meditasiyalarla tamamlayıb yerinə yetirirdi ki, bununla da o Xəlvətiyyə yoluna praktik əməl edirdi. Bütün mötədil müsəlman qardaşlıqlarının son hədəfi bir tərəfdən Allah həvarisinin yolunu "Məhəmmədin qaydaları" – "əl-adab əl muhammadiyyə"dən istifadə edərək təqlid etmək, digər tərəfdən isə islam sahəsini qorumaq və genişləndirməkdir. Əl-Hac Ömərdə ordenin digər xarakteristikalarına da rast gəlmək olar. Onların içərisində elələri var ki, qardaşlıq onlardan imtina etmişdir. Bu Peyğəmbəri (s) və ya hətta Allahı birbaşa görməyə (muşahada üzrə) nail olmaq və bununla da Allahla birləşmək ("stupor" (tahayyur) kimi özünüməhvə qədər vüsal) mərhələsini keçmək üçün ambisiyalardır. Bu yuxu və yaxud oyaq qalarkən Peyğəmbərin (s), Ticaniyyə banisi Şeyxin görülməsini Əl-Hac Ömər öz üzərində təcrübədən keçirir və başqalarına da icazə verirdi.

Misirdə qaldığı illərdə yeddi dəfə həccə gedən Pir Ömər Hicazda elm təhsil almışdır. Azərbaycanda hökm sürən Cəlayirlər dövlətinin hökmdarı Sultan Üveys[57] tərəfindən yaxşı tanındığı qeyd edilən Pir Ömərin onun dəvəti ilə Misirdən Təbrizə gəldiyi, buradan da Xirəyə gəlib dərvişlik fəaliyyətlərinə başladığı barədə məlumat verilir. Hicri 800-cü (1296/97) ildə Təbrizdə vəfat etdiyini nəzərə alsaq onun Misirdən qayıtdıqdan sonra qalan həyatını burada keçirdiyini qeyd edə bilərik. Bəzi tədqiqatçılar Sultan Üvesyi Gilah hakimi olaraq tanıdıblar ki, bu səhvdir. Buna əsas olaraq qəbrinin Təbrizdəki Mir Əli məqbərəsində olduğu iddia edilir. Amma aparılan son araşdırmalar bu iddianın əsassız olduğunu, böyük ehtimalla Azərbaycana qarşı başlayan Əmir Teymurun hərbi səfərləri zamanı Təbrizi tərk edib Şamaxıya gəldiyi və anadan olduğu Avaxıl kəndində vəfat etdiyini deməyə əsas verir.

Fransız tədqiqatçısı Natali Kleyerin fikrincə də şeyxin dəfn olunduğu yer Lahıc və Şamaxı arasındakı Avahıl kəndidir ki, onun da mədrəsəsində ixtiyarın çoxsaylı ardıcılları var idi. Onlardan biri də Seyid Yəhya Bakuvi idi.Natali Kleyer bir neçə il İstanbul kitabxanalarında keçirmişdir. Alimin tədqiqatlarının nəticəsində Xəlvətiyyə ordeninə həsr olunmuş monoqrafiya meydana çıxmışdır. Onun və eləcə də digər tanınmış tədqiqatçının[172, 47] qənaətinə görə biz ehtimal edə bilərik ki, Ömər əl-Xəlvəti Lahıca gənc yaşlarında İrandan köçüb gəlmiş və Lahıcda məskunlaşmışdır.

Belə ki, Avahil kəndində onun adına Pir Ömər Sultan ziyarətgahının olması və Yusif Müskürünün silsilənaməsində müridlərinin və davamçılarının çoxunun burdan çıxdığının qeyd edilməsi də bu fikri gücləndirir. [120, 65]

Son dərəcə maraqlı, ətrafındakı insanlarda təəccüb hissləri yaradan dərvişlik həyatı yaşayan Pir Ömərin xəlvəti təriqətində yeri və rolu böyükdür. Son vaxtlarda tapılan Harirzadənin "*Kənzül-feyz*" adlı əsərinə görə, xəlvətiliyin prinsiplərindən olan və Seyyid Yəhyaya aid olduğu iddia edilən "*əsmayi-səba*"nın Pir Ömər tərəfindən formalaşdırıldığı Şeyx Zahid Gilani tərəfindən icra edildiyi aydınlaşmışdır. Harirzadə Mehmed Kəmaləddin Əfəndinin əsəri "Kənzül-feyz" adlı əsərinin əlyazması türkçə

olub, İstanbul Süleymaniyyə Kitabxanasının Hacı Mahmud Əfəndi bölməsində 2631 nömrəli şifrə ilə saxlanılır.Bu əlyazma 101 vərəq olub, xəlvətilik təriqətinin təsəvvüfi təhsil anlayışına həsr olunub. Harirzadə bu barədə belə yazır: "Bəziləri əsmayi-səba edən Seyyid Yəhya quddisə sirruh deyiblər. Lakin doğru olan İbrahim Zahid quddisə sirruh həzrətləridir". [124, 75]

Pir Ömərin "Xəlvəti" ləqəbi almasına səbəb üzlətə çəkilib vaxtının çoxunu ibadət və zikrlə keçirməsi və bu həyatı sevməsi idi. Haqqındakı rəvayətlərdə onun bir çinar ağacının qoyuğuna girib xəlvətə çəkilməsi səbəbi ilə Xəlvəti olaraq çağırıldığı qeyd edilir. [96] Xəlvət halında Allahın yeddi adını zikr etdiyi üçün ondan sonra *Əsmayi-Səba* zikri təriqətlərdə geniş yayılmışdır. Əsmayi-Səba zikri Allahın "La ilahə illallah, Allah, Hu, Haqq, Həyy, Qəyyum, Qəhhar" sifətlərinin sistemli zikr edilməsindən ibarətdir. Arxa-arxaya 40 dəfə ərbəinə girən Pir Ömərin axırıncı ərbəini bitirdikdən sonra Məhəmməd Peyğəmbər (s) tərəfindən üstündə 40 budağı olan tac hədiyyə etdiyi və bu səbəbdən də sufilər arasında bənövşəyi rəngdə çuxa və üstündə dörd budağı olan tac geyən ilk dərviş olduğu iddia edilir. Müridlərinə üzlət, xəlvət və sükunəti tövsiyə edən Pir Ömər təriqətinin əsasını Xətim əl-Əsamın "dörd ölüm" anlayışı ilə açıqlamışdır. "Dörd təməl" (*çahar dəstur)* adlandırılan bu anlayışa görə,

- Salik davamlı nəfsinə müxalifət etməli, onunla mübarizə aparmalıdır. Buna *qızıl ölüm* (*mövti-ahmər*) deyilirdi;
- Salik hər cür bəlaya dözməlidir. Buna *qaraölüm* (*mövti-əsvad*) deyilirdi;
- Salik var olanla yetinməli, şikayətdən qaçmalıdır. Buna *yaşıl ölüm* (*mövti-əhdar*) deyilirdi;
- Salik az yeməli və davamlı rəyazətdə (razılıq içində) olmalıdır. Buna da *ağ ölüm* (*mövti-əbyaz*) adı verilirdi. [120, 65]

Xəlvətiliyin əsas banisi olan Seyyid Yəhya Şirvani Pir Ömərin təsəvvüf anlayışını daha da təkmilləşdirmiş və geniş coğrafiyaya yayılmasına səbəb olmuşdur. Seyyid Yəhya haqqında sonrakı fəsildə ətraflı məlumat verəcəyimizdən, burada

xəlvətiliyi dar çərçivəsindən çıxardıb, Xorasandan Misir və Balkanlara qədər yayılmasına səbəb olan şeyxin Seyyid Yəhya olduğunu qeyd etməliyik. *Piri-Sani* (ikinci pir) ləqəbi ilə tanınan Seyyid Yəhya xəlvətiliyə gətirdiyi səkkiz yeniliklə təriqətin təsəvvüfi əsaslarını yaratmışdır. [172]

Mənbələr Seyyid Yəhyanın iyirmi mindən çox müridinin olduğu və hələ sağlığında müridlərini müxtəlif ölkələrə göndərdiyini qeyd edirlər. Təriqətin qollara ayrılması da onun vəfatından sonra başlamış, xüsusilə Osmanlı ölkəsində xəlvətiliyin yayılmasında Seyyid Yəhyanın dörd xəlifəsinin Pir Məhəmməd Ərzincaninin (vəfatı 1474), Dədə Ömər Rövşəninin (vəfatı 1487), Molla Əli Xəlvətinin və Həbib Qaramaninin (vəfatı 1497) təsiri olmuşdur. Onlardan Pir Məhəmməd Ərzincani Ərzincanda gördüyü bir yuxu üzərinə vətənini tərk edib Bakıya gəlmiş və Seyyid Yəhya ilə görüşüb ona intisab etmişdi. Daha sonra Ərzincana qayıdıb ölənə qədər xəlvətiliyi təbliğ etmişdir. [59, 174]

Dədə Ömər Rövşəni isə Anadolunun Aydın vilayətindən olub, Bursada şəriət elmləri oxuyarkən əvvəlcə Qaramana, buradan da Bakıya gəlmişdir. Seyyid Yəhyanın ən yaxın müridlərindən olub, şeyxi tərəfindən xəlvətiliyi yayması üçün Təbriz, Gəncə və Qarabağa göndərilmişdir. [59, 69]

Haqqında daha az məlumat olan Molla Əli, xəlvəti şeyxi tərəfindən Bursaya göndərilmiş, Fateh Sultan Mehmedin 1453-cü ildə İstanbulu fəthindən sonra bu şəhərə gəlmişdir. Amma İstanbulda ətrafında böyük bir kütlənin toplanması üzərinə İstanbulu tərk etməsi istənilmiş, o da Qaramana getmişdir. Seyyid Yəhyanın digər müridi Həbib Qaramani isə Anadolunun Niğdə vilayətinin Ortaköy kəndində anadan olmuşdur. Bakıya gəlib Seyyid Yəhyanın yanında 12 il xidmət etmişdir. Şeyxi tərəfindən Anadoluya xəlifə olaraq göndərilən Qaramani bir müddət Ankarada bektaşilərin şeyxi Hacı Bayram Vəlinin ziyarətgahının olduğu yerdə qalmış və moizələri ilə ətrafına çoxlu sayda mürid toplamışdı.[79]

Xəlvətiliyin sürətlə yayılmasının bir səbəbi də Əmir Teymurun yol açdığı sosial və siyasi şərait idi. 1402-ci ildə Ankara müharibəsində Əmir Teymur tərəfindən tutulub, Orta Asiyaya aparılmaq istənən minlərlə əsir Azərbaycanda səfəvi və xəlvəti dərgahlarının nəzarətinə verilmişdi. Bu əsirlər arasında çox sayda təhsilli və mədrəsədə müəllimlik edən alim də vardı. Pir İlyas Xəlvəti bunlardan sadəcə biri olmuşdur. Əmir Teymur tərəfindən Şirvana sürgün edilən bu alim buradakı mədrəsələrdə dərslər vermiş və xəlvətiliyi qəbul etmişdir. Daha sonra Amasiyaya qayıdan Pir İlyas təriqətin yayılmasında böyük rol oynamışdır.[92, 397] Osmanlı coğrafiyasında xəlvətiliyin ilk təməllərinin də məhz onun tərəfindən atıldığı qeyd edilir.

Əmir Teymurun vəfatından sonra ölkələrinə qayıdan həmin əsirlər öz ölkələrində xəlvətiliyin təbliğatını aparmış və çoxlu sayda yeni müridin Şirvana gəlməsinə səbəb olmuşlar. Misal üçün, Anadoluda xəlvətiliyin ən böyük şeyxi qəbul edilən Şeyx Məhəmməd Cəmaləddin Aksarayı (Çələbi Xəlifə adı ilə tanınırdı) Aksaray, Konya və İstanbul mədrəsələrində yüksək təhsil aldığı halda dövlət və din məmurluğunu buraxıb Şirvana qədər gəlmiş, amma Şirvana çatdığı gündən iki gün əvvəl Seyyid Yəhyanın vəfat etdiyini eşidib ağır kədər yaşamışdır. Bunun üzərinə Ərzincana qayıdan Çələbi Xəlifə burada Seyyid Yəhyanın xəlifəsi Pir Məhəmməd Ərzincaniyə intisab etmişdir. [79, 99]

Digər sufi təriqətləri kimi, xəlvətilikdə də təriqət silsilələri mühüm əhəmiyyət kəsb edir. Silsilələr təsəvvüf ədəbiyyatının bir hissəsi olmaqla yanaşı, təriqətin bir növ ədəbi şəkildə təsvir edilmiş tarixçəsi kimi də qəbul edilə bilər. Xəlvətilik təriqəti ümumilikdə qırxdan artıq qola bölündüyü üçün, hər bir qolun da öz silsiləsi mövcud olmuşdur. Bu silsilələrə misal olaraq, hazırda mövcud olan aşağıdakı əsərləri göstərə bilərik:

1. D.Ömər Rövşəni. Silsilənamə (nəzm). AMEAEE, B-3972/23506.
2. Yusif Müsküri. Silsilətül-uyun. AMEAEE, B-5447/7072.

3. Sünbül Sinan. Kitabi-təriqətnameyi-Sünbül əfəndi. IÜK, 2956/2.
4. Yusif Sinanəddin. Təzkireyi-xəlvətiyyə. SK, Əsəd əf. 1372.
5.Nəzmi. Hədiqətül-ixvan. SK, Rəşid əf. 945.
6. Yəməni Həsən Nəcməddin. Silsilənameyi-təriqi-xəlvətiyyə və sünbüliyyə. IBK, OEY 116.
7. Ömər Fuadi. Mənqəbənameyi-Şaban Vəli. SK, Hacı Mahmud, 4614.
8. Əhməd Şəmsəddin Mərmərəvi. Silsileyi-əhli-təriqət. SK, H.Mahmud, 2745.
9. Sadiq Vicdani. Tomari-turuqi-Əliyyeyi-Xəlvətiyyə. Istanbul, 1995.
10. Müniri Belqradi. Silsilətül-Müqarrəbin və Mənqəbəyi-Müttəqin. SK, H.Mahmud, 4614.
11. Bandırmalızadə Əhməd Münib. Miratü ət-turuq. SK, H.Mahmud, 2712.
12. Əbdüləhəd Nuri. Silsilənamə. SK, Çələbi Abdullah, 172.
13. Müstəqimzadə Süleyman Sadəddin. Məşayıxnameyi-islam. SK, Əsəd əf. 1716/1.
14. Abdulla bəy məcmuəsi. Silsilənamə. ÜHSAK, Hüdayi,1098.
15. Hüseyn Vəssaf. Səfineyi-övliyayi-əbrar fi şərhi əsmari-əsrar. SK, Yazma Bağışlar, 2308-2309.
16. Həririzadə M. Kəmaləddin. Tibyanül-vəsaili-həqayiq fi bəyani səlasilit-təraiq. SK, İbrahim əf. 430-432.
17. Hüseyn Ayvansarayi. Tərcümətül-məşayix. SK, Əsəd əf. 1375.
18. Əhməd Suzi. Silsiləyi-piran li məşayixi-xəlvətiyyə(nəzm). SK, Öztürklər 63.
19. Məhəmməd əl-Mimsar. Mənqəbətül-əqtab. AEAEE, B-5447.

Təriqət silsilələri təsəvvüf təriqətinin tarixi şəcərəsi hesab edilə bilər. Hər dəfə təkyədə yeni şeyx fəaliyyətə başladıqda onun adı bu şəcərəyə daxil edilir, beləliklə tarixi xronologiya əsasında təriqətin dayandığı ilkin mənbədən müasir dövrə qədərki zamanda mövcud olan bütün şeyxlər bu silsilədə öz yerini tutur.

Qeyd etmək lazımdır ki, bir çox hallarda xəlvətiyyə təriqətinin qollarına aid edilən silsilələr əhli-beyt imamlarına gedib çıxır, xüsusilə Əli ibn Əbu Taliblə (ə)

bağlanır. Lakin Peyğəmbərin (s) digər sahabələrinin, xüsusilə Əbu Bəkrin (r.a.) də adı ilə bağlanan silsilənamələrə rast gəlinir ki, bütün bunlar da hər hansı təriqət qolunun tarixi şəcərəsi ilə əlaqələndirilir.

Xəlvətiyyə təriqətinin əsas olaraq qəbul etdiyi Həzrət Məhəmməd peyğəmbərdən (s) Seyid Yəhya Şirvaniyə qədər mövcud olan təriqət silsiləsi aşağıdakı qaydada göstərilir:

Həzrət Məhəmməd (s)

↓

Həzrət Əli (ə)

↓

Həsən əl-Bəsri (v. 110/728)

↓

Həbib əl-Əcəmi (v.130/747-48[?])

↓

Davud ət-Tai (v. 165/782)

↓

Məruf əl-Kərxi (v. 200/815)

↓

Səriy əs-Səqəti (v. 253/867)

↓

Cüneyd əl-Bağdadi (v. 297/910)

↓

Mimşad Dinəvəri (v. 299/912)

↓

Məhəmməd Dinəvəri (v. 340/951)

↓

Məhəmməd əl-Bəkri (v. 380/990)

↓

Qazi Ömər Vəcihəddin (v. 442/1050)

↓

Ömər əl-Bəkri (v. 487/1094)

↓

Əbun-Nəcib Sührəvərdi (v. 563/1168)

↓

Qütbəddin Əbhəri (v. 572/1177)

↓

Məhəmməd Sincani (?)

↓

Şəhabəddin Təbrizi (v. 702/1302)

↓

İbrahim Zahid Gilani (v. 705/1305)

↓

Əxi Məhəmməd (v. 780/1378)

↓

Ömər Xəlvəti (v. 800/1397)

↓

Əxi Mirəm (v. 812/1409)

↓

İzzəddin Xəlvəti (v. 828/1424)

↓

Sədrəddin Xiyavi (v. 860/1455) ( 0)

↓

Seyid Yəhya Şirvani (Bakuvi) (v. 868/1463 və ya 870/1466)

Xəlvətiyyə təriqətinin sonradan meydana çıxmış digər qollarının şeyxlərinin silsilələrinin də hamısı bir qayda olaraq Seyid Yəhyaya gəlib çıxır.

## 2.2. Xəlvətiyyə təriqətinin sufi qaynaqları

Məlum olduğu kimi, sufi təriqətlərinin hər biri öz dövrünün ictimai-siyasi mənzərəsinin və dini-fəlsəfi düşüncə tərzinin məhsulu kimi meydana çıxmışdır. Dövrün tələblərini, hakim düşüncə tərzini, siyasi idarəetmə formasını nəzərə almadan, təriqətlərin meydana çıxma səbəblərini tam şəkildə başa düşmək mümkün deyil. Xəlvətiyyə təriqəti də bu baxımdan istisna hesab edilə bilməz. Digər sufi təriqətlərini ortaya çıxaran obyektiv tarixi proses, islam mədəniyyəti daxilində müşahidə edilən meyllər, dini və əxlaqi yönə üstünlük verən mütəfəkkirlərin fəaliyyəti Xəlvətiyyənin yaranmasında da aşkar surətdə özünü göstərməkdədir. [11]

İlk növbədə qeyd etmək lazımdır ki, bütün sufi təriqətlərinə xas olan və özlərini Peyğəmbərə (s) bağlamaq iddiaları Xəlvətilər üçün də xarakterikdir. Xəlvətiyyə təriqətinin müxtəlif qollarına məxsus olan silsilənamələr bunun bariz göstəricisidir. Xəlvətiyyə təriqətinin mənsubları da öz təriqətlərinin bilavasitə Məhəmməd Peyğəmbərə (s) bağlandığını bildirirlər. Hədislərin birində bildirilir ki, Xəlvətiyyə təsisçisi tərəfindən istifadə edilən (kəlmeyi şəhadət nəzərə alınmadan) zikrin ilk banisi məhz Məhəmməd peyğəmbər (s) olmuşdur. O, kürəkəni Əli(ə) kimsəsiz yerlərdə, gözlərini bağlayaraq, Allahın adını təkrar etməyi tövsiyə etmişdi.

Maraqlıdır ki, oxşar fikrə Mişel Malerbdə də rast gəlinir. O, özünün “Dünya dinləri” kitabında xüsusilə qeyd edir ki, “Məhəmməd peyğəmbərə (s) Quran surələrindən əlavə, sonradan bəzi ənsarlarına bildirdiyi ezoterik vəhylər də endirilmişdi”. Bu səbəbdən sufi alimlər öz təlimlərini sələflərinin sicilləmə və səhih təlimləri ilə əlaqələndirirlər.[168, 665]

Daha sonrakı dövrlərdə sufizmin islam coğrafiyasında geniş yayılması ilətəriqətlərin sürətlə meydana çıxması prosesi başladı. Bu baxımdan Xəlvətiyyədə

islam təsəvvüfünün bir parçası olaraq ənənəvi sufi düşüncəsinin məhsulu idi və müəyyən qədər fərqli xüsusiyyətlərə malik olmasına, digər təriqətlərdən seçilməsinə baxmayaraq son nəticədə, məhz bu düşüncə tərzinin əsasında meydana çıxmış və inkişaf etmişdi.

Xəlvətiyyə təriqətinin sufi qaynaqlarından söhbət açan zaman, təriqətin qurucusu Ömər Xəlvətinin simasında bu qaynaqların təriqətin mənəvi və dini dayaqlarının necə formalaşdırdığını aydın surətdə müşahidə etmək mümkündür. Ömər Xəlvəti yuxarıda da qeyd olunduğu kimi, xəlvəti çox sevmiş və buna görə də onun qurduğu təriqətin adına bu ad verilmişdir. O, xəlvətə çəkildiyi müddət ərzində Allahın yeddi adı ilə (La ilahə illallah, Allah, Hu, Haqq, Həyy, Qəyyum, Qəhhar) zikr edərdi. Bu zikr ənənəsi ondan sonra bəzi digər təriqətlər tərəfindən də mənimsənilmişdir. O, öz müridlərinə, xəlvət, üzlət və sükutu tövsiyə etmiş, təriqətin əsasını məşhur sufi Hatim əl-Əsammın bəhs etdiyi dörd ölüm növündən çıxış edərək izah etmişdir. Ona görə seyri-süluk yoluna girən şəxs həmişə öz nəfsi ilə mübarizə aparmalıdır. O, bunu “mövti-əhmər (qızıl ölüm)” termini ilə ifadə etmişdir. İkincisi, salik hər növ bəlalara səbr etməlidir. Bu da “mövti-əsvəd (qara ölüm)” termini ilə izah olunmuşdur. Üçüncüsü, əlində olanla kifayətlənməli, heç bir halda şikayət etməməlidir. Bu prinsip “mövti-əxzərdir (yaşıl ölüm)”. Axırıncı prinsip isə salikin az yeməsi və mütəmadi olaraq riyazatla məşğul olmasıdır. Ömər Xəlvəti bunu “mövti-əbyəz (ağ ölüm)” termini ilə ifadə etmişdir. [120, 65]

Əl-Hac Ömər xarakteri haqqında söhbətlərdə onun tez-tez istənilən bir qərarı qəbul edənədək özünü təcrid etmək vərdişindən və onun qərar qəbul edəndən sonra təklikdə qalmaq meylindən danışılır. Əslində bu bir asketizm cizgisi, böyük bir iradə tələb edən uzun-uzadı düşüncələrin nəticəsi idi. Əl-Hac Ömər bu özünə nəzarəti Xəlvətiyyə adlı mistik yol təlimini təcrübə və tətbiq edərək kəsb etmişdi.

Xəlvətiyyə təriqəti özünün struktur quruluşu, qaydaları, mürşid və müridlər arasındakı münasibətlər və digər aspektlərdən də öz dövrünün təsəvvüf

mədəniyyətinin bariz nümunəsi sayıla bilər. Məsələn, təriqətin qaydaları, müridlərin mənəvi kamilliyindən asılı olaraq, özündə yeddi mərhələni ehtiva edirdi. [155, 247] Əxiliyın zikrləri aşağıdakı özünəməxsusluğu ilə fərqlənirdi:

- sadəcə mistikaya meylli can üçün: "Allahdan başqa məbud yoxdur" (islam dininin ilk şəhadət kəlməsi).
- imanlının saflaşmağa hazır olan canı üçün: "Allah".
- artıq maariflənmiş can üçün: "O" (hüva, yəni Allah).
- aram tapmış can üçün: "O haqdır" (əl-həqq, yəni Allah).
- qəni canlar üçün: "Allahu Rəhman "hamıya rəhmli olan" (əl-Həyy, yəni Allah).
- aşıb-daşan və qəni canlar üçün: "Allahu Rəhim", "rəhmli": (əl-Qəyyum), yəni Allah).
- nəhayət, kamil can ücün: "fəth edən" (əl-Qahir, yəni bir daha Allah).[155, 247]

Yuxarıda qeyd edilən bu qaydalara bu və ya digər formada başqa sufi təriqətlərində də rast gəlmək mümkündür.

Eyni fikirləri Xəlvətiyyə təriqətinin müxtəlif qollarında rast gəlinən meditasiya və rituallar barədə də söyləyə bilərik. Bu meditasiyalar sufi mühitinin daxilində işlənib-hazırlanmış müxtəlif təlimatları özündə ehtiva edirdi. Meditasiyanın bu təlimatlarına zikrlər, Allahın "gözəl adları" əlavə olunur. İxlas, Fələq, Nas Qurani-Kərimin surələri olmaqla yanaşı, eyni zamanda çox gözəl və parlaq ritmli, sehirli qüvvəyə malik çağırış dualarıdır. [109] Nas surəsinihəmçinin qoruyucu dualar adlandırırlar. İxlas surəsini bəzən Tövhid və ya "Allahın Təkliyi" duası adlandırırlar. İxlas adı xüsusən doğrudan da tam Vəhdətə can atan sonrakı mistiklər üçün islamın başlıca və mütləq ehkamı olan tövhidlə səciyyələnən "saf və səmimi kultun tanınması aksiyası" mənasını verir. Bütün bu dualar və surələr Xəlvəti zikrlərinin əsasını təşkil edirdi. [108]

Xəlvətiyyə təriqətinin kökündə dayanan təsəvvüf prinsiplərindən biri olan xəlvət, başqa təriqətlərdə də bu və ya digər şəkildə özünü göstərdiyi üçün onu yalnız adıçəkilən təriqətə aid etmək düzgün olmazdı. Əksinə, xəlvət anlayışının digər təriqətlərdə daha əvvəlki dövrlərdə də geniş istifadə edilməsi, onun sufizmin təməl prinsiplərindən biri olduğunu göstərir. Ona görə də xəlvət anlayışını Xəlvətiyyənin başlıca sufi qaynağı olaraq görmək mümkündür. Məşhur təsəvvüf alimi Əl-Qəzzali xəlvət barədə qeyd edirdi ki, insanlardan uzaqlaşaraq tənha bir məkana çəkilməyin faydaları insanın daha ixlaslı və daha çox ibadət etməsi, riya, qeybət, yalan kimi günahlardan özünü qoruması, fitnə və fəsaddan uzaq qalması, insanların əzablarından sığortalanması, həmçinin xalqdan istəklərinin olmaması kimi amillərdədir. [74] Sufizmdə xəlvətə çəkilməyin faydaları barədə danışarkən, digər təriqətlərin də istifadə etdikləri müxtəlif ibadət, ritual və ayinlərdə bu prinsipin mühüm əhəmiyyət daşıdığı görünür. Xəlvət insanın öz nəfsinə hakim olması, həmçinin elmi-lədün deyilən gizli elm qapılarının üzünə açılması üçün ən qiymətli üsullardan sayılır. Təsəvvüf aləmində qarşıya qoyulmuş məqsədə çatmağın nə qədər vacib olduğunu nəzərə aldıqda, xəlvətin sufizmin əksər təriqət və qollarında özünü büruzə verməsi heç də təəccüblü deyildir. Görkəmli Azərbaycan filosofu və sufisi Sührəverdi bununla əlaqədar olaraq yazır: "İnsan özünü Allaha ibadətə verərək hər bir cəhətiylə ona yönəldikdə, gündəlik məişət çərçivəsindən çıxdıqda, içərisində olduğu zindandan xilas olur. Bu pərdələr aradan qalxır, bütün elmlərin qaynağı sayılan, mərkəz hesab edilən İlahi-hüzura yaxınlaşır. Ərbəin müddəti tamamlandıqdan sonra bütün pərdələr aradan qalxır, elm və mərifət insana tərəf axmağa başlayır". [115] Bu mərhələdən sonra sufi hətta insanların arasında yaşasa belə, artıq heç bir şey onu Allahdan ayırmaq iqtidarında olmur. Nəqşibəndiliyin əsas prinsiplərindən biri olan "xəlvət dər əncümən", yəni insanlar arasında xəlvətdə olmaq da bu mənada işlənmişdir.

Təsəvvüfdə xəlvətin sufini günahlardan, stress və qayğılardan xilas edən xüsusi bir vasitə hesab edilməsi, bu anlayışı islam coğrafiyasındakı fəlsəfi-dini təlimlərin

başlıca sütunlarından birinə çevirmişdir. Sufinin təhsil və təlim prosesi, özünü yetişdirmə vasitəsi olması etibarilə xəlvət təsəvvüf tarixinin ilk günlərindən etibarən geniş miqyasda istifadə edilməsi ilə diqqəti cəlb edir. Xəlvətiyyə təriqətinin sufi qaynaqlarından danışdıqda, ilk növbədə bütün təsəvvüf dünyasının təməl prinsiplərindən olan xəlvətin qeyd edilməsi zəruridir.

### 2.3. Seyid Yəhya Şirvaninin (Bakuvi) xəlvətilik içindəki rolu və təsirləri

Məlum olduğu kimi, Xəlvətiyyə təriqətinin yaradıcısı böyük sufi şeyxi Siracəddin Ömər əl-Xəlvəti olmuşdur. Lakin təriqətin dünya miqyasında məşhurluq qazanması, islam coğrafiyasının aparıcı dini-fəlsəfi cərəyanlarından birinə çevrilməsi Seyid Yəhya Şirvaninin (Bakuvinin) adı ilə bağlıdır. Bu böyük şəxsiyyətin həyatı barədə məlumat verən mənbələr göstərir ki, o Şamaxının Avahil kəndində anadan olmuşdur. Nəsil şəcərəsi etibarilə də, onun dini dünyagörüşün daşıyıcısı olduğu faktını qeyd etmək yerinə düşərdi. Belə ki, onun atası şiələrin yeddinci imamı Museyi-Kazımın (ə) nəslindən idi. [21]

Tam şəkildə adı əs-Seyyid Cəmaləddin Yəhya ibn əs-Seyyid Bəhaəddin əş-Şirvani əş-Şamaxi əl-Bakuvi olan görkəmli alim və filosofun Xəlvətiyyə təriqətinin inkişafında oynadığı rol misilsizdir. Heç də təsadüfi deyildir ki, 1463/64 ildə vəfat etmiş şeyxin mavzoleyi Bakıdakı "Şirvanşahlar Sarayında" yerləşir. Bu fakt böyük mütəfəkkirin həmin dövrün təkcə elmi və dini həyatında deyil, eləcə də siyasi və ictimai həyatında kifayət qədər çəkisinin olmasının göstəricisi hesab edilə bilər.

Şamaxıda doğulan Seyid Yəhyanın həyatının əsas hissəsi Bakı ilə bağlı olmuş, elə buna görə də özünə Bakuvi adını götürmüşdür. Böyük mütəfəkkir Şamaxıdan buraya 20 yaşında, Xəlvəti ordeninə hamilik edən, Əbdürrəhman Caminin bildirdiyinə görə hətta Seyyid Yəhya Bakuvinin müridi olmuş Şirvanşah Xəlilullahın (1417-1465) hakimiyyəti dövründə köçmüşdür. [101]

XV əsrin ilk rübünə qədər bu təriqət Şirvanda fəaliyyət göstərən məhəlli bir təriqət hesab edilirdi. Ona görə də Xəlvətiyyənin dünya şöhrəti qazanmasında Seyid Yəhyanın müstəsna rola malik olması danılmaz faktdır. Atasının Şirvanşahlar sarayında yüksək mənsəb tutaraq, Nəqibul-əşraf vəzifəsində çalışmasına baxmayaraq, o atasının var-dövlətindən üz çevirərək, sufizm yolunu seçmişdi. Yüksək səviyyədə təhsil almış Seyid Yəhya xəlvətilərin mürşidi olan Şeyx Sədrəddinin təkkəsinə gələrək, burada mənəvi elmləri də əldə etməyə çalışırdı. Şeyx Sədrəddin vəfat edərkən onu öz yerinə sufilərin mürşidi təyin etdiyi zaman Seyid Yəhya hələ 30 yaşına çatmamışdı. Yaşlı müridlərin onun gəncliyini əldə rəhbər tutaraq, mürşid olmasına etirazları səbəbindən, o Şamaxını tərk edərək Bakıya yollandı. Yuxarıda da qeyd edildiyi kimi, Şirvanşah Xəlilullahın onun müridi olması faktını təsdiq edən dəlillərdən biri, Şirvanşahın ona böyük ehtiramla yanaşması və kömək etməsidir. Bu qarşılıqlı hörmət və ehtiramın nəticəsində böyük mütəfəkkir özünün "Kəşfül-Qulub" adlı əsərini Şirvanşah Xəlilullaha ithaf etmişdir.

Seyid Yəhyanın İslam mədəniyyətində tutduğu yerdən danışan zaman nəzərə almaq lazımdır ki, o yalnız Xəlvətiyyə təriqətinin yaradıcısı və rəhbəri olmaqla qalmamış, daha çox özünün dərin fəlsəfi məzmunlu əsərləri ilə tanınmışdır. Sufi ədəbiyyatının inkişafında və onun zənginləşməsində Seyid Yəhyanın yeri bənzərsizdir. Xüsusilə də ondan sonrakı dövrdə gələn müridlərinin öz ustadları saydıqları Seyid Yəhya tərəfindən qələmə alınmış əsərlərə yazdıqları nəzirələr və şərhlər də sufi ədəbiyyatının daha da zənginləşməsinə gətirib çıxarmışdır. Xəlvətilikdə belə çoxlu sayda və rəngarəng növlərdə əsərlər yazmaq baxımından yalnız Şihabəddin Sührəverdini Seyid Yəhya Bakuvi ilə müqayisə etmək mümkündür. Bakuvinin yazdığı əsərlərin özündə daşıdığı daha bir xüsusiyyət, Xəlvətiyyənin pinsip və fəlsəfəsini əks etdirməsi, beləliklə də bu təriqətin fikir sisteminin qaydalarının və rituallarının müasir dövrə qədər təhrif olunmadan gəlib çıxmasını təmin etməsidir. [52]

Seyid Yəhyanın dünyagörüşü və baxışlarından danışarkən belə bir məqamı da qeyd etmək zəruridir ki, o öz zəmanəsinin reallıqlarından uzaqlaşan, cəhalətə qərq olmuş, işsiz, dilənçiliklə məşğul olan, batini inanclarla ağıl və məntiq sədlərini aşan, elmdən və ağıl prinsiplərindən uzaq düşmüş mistikanı heç bir vəchlə qəbul etmirdi. [54] İslamın tövhid anlayışına əməl edir, Allahdan başqa bütün varlıqları həqiqəti olmayan kölgələr hesab edir, lakin eyni zamanda insanı Allahlaşdırmaq kimi batil düşüncələrdən də uzaq dururdu. O, öz əsərlərində müridlərini belə hallardan çəkindirir, elmi əsasları saxlayır, qəlbindəki sevgi hissi ilə yanaşı islam şəriətinə görə yaşamağı, ibadət etməyi, intellektual sufizmi ön plana çıxarırdı. Eyni zamanda son dərəcə vacib bir məqam, Şirvanşahla yaxın münasibətlərinə əsaslanaraq ona bir hökmdar olaraq, ədalətli rəhbərlik etmək yolunu göstərirdi.

Digər sufizm mənsublarından fərqli olaraq, Seyid Yəhya Bakuvinin xanəgahı yalnız çilə çıxarmaq, müəyyən ritualları icra etmək məkanı olmamışdır. O, dərin intellektual araşdırmalara üstünlük vermiş, böyük zəka və təfəkkür sahibi olmuş, elmi analizlərlə fəlsəfi düşüncənin üzvi vəhdətini yaratmışdır. Buna görə də Yusif Muskuri, Ömər Rövşani, H. Karamani, B.Ərzincani kimi böyük şəxsiyyətlər, elm və ədəbiyyat mənsubları onun Bakıdakı elmi məclislərində iştirak edərək yetişmişlər.

Digər diqqətçəkən məqam, Seyid Yəhyanın yanında yetişmiş sufi mürşidlərin təkcə Şirvan daxilində deyil, eləcə də Osmanlı, Ağqoyunlu, Məmlük hakimləri tərəfindən də böyük ehtiramla qəbul olunmalarıdır. Artıq XVI əsrdən sonra Seyid Yəhyanın yaratdığı məktəbin elmi və ədəbi-fəlsəfi təsirləri islam coğrafiyasına yayılmış, onun təriqətinin yeni-yeni qolları intişar tapmışdır. [52]

Onun həyatının sufi tərəfi də müasirləri tərəfindən heyranlıqla müşahidə edilmişdir. İsti aylarda qidasız və susuz şəkildə səhralarda qalır, orada günlərlə yaşayır və ibadət edirdi. Tənha yerlərdə qalaraq ibadət etmək onun üçün zəruri hallardan biri olmuşdur. Hətta müridlərinin rəvayətlərinə görə, ömrünün sonuna yaxın 15 gündə bir dəfə iftar edirdi. Həmçinin vəfatından əvvəlki 6 ay ərzində heç bir şey

yemədiyi də rəvayətlərdə öz əksini tapmışdır. Onun vəfatı hicri tarixlə 869-cu, miladi tarixlə isə 1466-cı ilə təsadüf etmiş və Bakı şəhərində dünyasını dəyişmişdir. [40, 114]

Sufizmdə qəlb, daxili incə orqanların təsnifatında başlıca rol oynayır. Bu orqanlar insanda bir daxili coğrafiya yaradıb, təriqət dərvişlərinin mücadiləsində nəfsinin "gəzişəcəyi" yolu göstərir. Bu mücadilədə Qəlb yolun, daha doğrusu "bu səyahətin" dönüş nöqtəsi kimi görünür. Bakuvi özünün "Şəfa əl-Əsrar" kitabında bu təsəvvürün çox maraqlı və spesifik açılışını təklif edir. Baxmayaraq ki, sufizmin böyük mütəfəkkirləri çoxdur, sufizmdə qəlb anlayışının əhəmiyyətinin təməlini o qoymuşdur. Şeyxə görə qəlb özlüyündə şəkil əxz edir, elə ona görə də nümayiş oluna bilər, halbuki sufi mütəfəkkirlərin əksəriyyəti qəlbi, özlərini bəyan edən şeyləri göstərən boş bir gəmi hesab edirdilər. Ancaq Bakuvi qəlbi öz konturları olan və təriqətdə gedilən yolun tam prosesini anlamağa izn verən dəyərli "rəsm" hesab edir. Şeyxə görə qəlb bütöv bir mənəvi səyahətə məna verir və odur ki, bu prosesdə ifadə oluna bilən yeganə diqqət çəkən orqandır. O, insanı mənəvi realizəyə aparan yolları müəyyənləşdirməyə rəhbərlik edib sufi yolunun tam prosesini anlamağa imkan verir.

Xəlvətiyyə ordeni tarixində başlıca fiqur olaraq, bu təriqətin gələcək inkişaf istiqamətlərini də o müəyyən etmişdir. Ümumiyyətlə, təriqətin yaranması, formalaşması və dünyaya yayılmasını xronoloji qaydada təhlil etdikdə, Xəlvətiyyənin yaranması və inkişafını dörd əsas mərhələyə bölmək mümkündür:

1. Üsul mərhələsi. Bu mərhələ Əbun-Nəcib Sührəverdidən İbrahim Zahid Gilaniyə qədər olan dövrü (X-XIII əsrlər) əhatə edir.

2. Təriqətləşmə mərhələsi. Bu mərhələ İbrahim Zahid Gilanidən təriqətin qurucusu Ömər Xəlvətiyə qədərki dövrü (XIII-XIV əsrlər) əhatə edir.

3. Təkamül mərhələsi. Bu mərhələ Ömər Xəlvətidən Seyid Yəhya Şirvaniyə qədərki dövrü (XIII-XIV əsrlər) əhatə edir.

4. Yayılma və qruplaşma mərhələsi. Xəlvətiliyin inkişaf seyrindəki sonuncu mərhələ olan bu dövr Seyid Yəhya Şirvanidən sonrakı dövrü əhatə edir.[133, 240]Həqiqətən də Yəhya Şirvaniyə qədər xəlvətiyyə təriqəti yayılma imkanı tapmamışdı. İlk dəfə müxtəlif bölgələrə təriqəti yayan xəlifələr məhz Seyid Yəhya tərəfindən göndərilmişdir. [133, 240]

Seyid Yəhya Bakuvi Xəlvətiyyə təriqətində Piri-Sani, yəni ikinci şeyx olaraq tanınsa da, bir çoxları tərəfindən təriqətin formalaşmasında həqiqi təsisçi hesab edilir. Təsadüfi deyildir ki, elmi ədəbiyyatda o, ordenin əsl təsisçisi və onun xəlvət (hücrəyə çəkilmə) praktikasına əsaslanan mistik doktrinasının əsas nəzəriyyəçisi kimi verilmişdir.

Mütəfəkkir öz müridlərinin dini biliklərlə yanaşı elmi-dünyəvi bilikləri də əxz etməsi və nəticədə kamilləşdirilməsi niyyəti ilə öz xanəgahını dini və dünyəvi elmlərin öyrənildiyi mədrəsəyə çevirmişdi. Bu münasibətlə “Ramuzul işarat” əsərində Bakuvi yazır:

*Elmdir ən möhtəşəm tac, elm ilə ol aşina*
*Elm tacı bir ləyaqət, layiq ol qoy başına*
*Zərrəcə elmin olarsa, sanki dünyan var sənin*
*Cahil olsan yoxdur faydan qövmünə-qardaşına. (tərcümə Əminə Əliyevanındir)*

Seyid Yəhya Bakuvi özündən sonra zəngin irs qoyub getmiş, çoxlu sayda əsərlər yaratmışdır. Bu əsərlər həm nəzmlə, həm də nəsrlə qələmə alınmışdır. Təsəvvüf fikirlərini ehtiva edən bu əsərlərin geniş siyahısı bir çox mənbələrdə öz əksini tapmaqdadır. Uşaq və gənclik yaşlarında son dərəcə yaxşı təhsil alması səbəbindən, Seyid Yəhya Bakuvi nəsr əsərlərini ərəb, fars və türk dillərində yaratmış, nəzmlə yazdığı əsərlərini isə fars dilində qələmə almışdır. Maraqlıdır ki, farsca yazdığı əsərlərdə “Seyyid” təxəllüsündən istifadə etmişdir. [54]

Hazırda dünyanın müxtəlif ölkələrinin kitabxanalarında Seyid Yəhya Bakuvinin əsərləri qorunub saxlanılır. Azərbaycanda onun yalnız bir əlyazmasının

mövcud olmasına baxmayaraq, Türkiyə kitabxanalarında görkəmli mütəfəkkirin çoxlu sayda əsərləri vardır. Bu da təsadüfi deyildir, çünki onun əsərləri müridləri vasitəsilə Xəlvətiyyənin geniş yayıldığı Anadoluya aparılmış, burada həmin əsərlərin nüsxələri artırılmışdır. Türkiyədə mövcud olan əsərlərin bəziləri məcmuə şəklində, digərləri isə kitab formasında saxlanılır. Tədqiqatçılar Türkiyədə mövcud olan əsərlərin sayının 19 olduğunu qeyd edirlər. Seyid Yəhya Bakuvinin əsərləri aşağıdakılardan ibarətdir:

1. Əcaibul-qulub (*Qəlbin qəribəlikləri*)
2. Ətvarul -qəlb (*Qəlbin növrləri*)
3. Bəyanu'l-ilim (*Qəlbin bəyanı*)
4. Əsrarul-vudu vəs-salat (risale ma la budd batiniyye)
5. Qəzəliyyat
6. Kəşful-qulub (*Qəlblərin kəşfi*)
7. Kissa-i mənsur
8. Məkarim-i əxlaq
9. Mənaqibi Əmirəl-Muminin Əli Kərrəməllahu vachəhu
10. Mənazilü'l-aşiqin
11. Məqamat
12. Ramuzu'l-işarat
13. Salavatu'n-Nəbi
14. Şərhu məratibi-əsrarul-qulub
15. Şərhu sualatı-gülşəni-əsrar
16. Şərhu əsmai-səmaniyyə
17. Şifau'l-əsrar
18. Təsərrufat ü mukaşəfat
19. Virdü səttar[40, 387-413]

Professor Möhsün Nağısoylu geyd edirki,Seyid Yəhya Bakuvinin "Şərhi-sualati-Gülşəni-əsrar" əsəri 550 beytə yaxın ruh, nəfs, ürək, sirr, qəlb, bəxt, vaxt və s. kimi suallara nəzmlə verilən cavablardan ibarətdir. [17]

Xəlvətiyyə təriqətinin özünəməxsus qayda-qanunları, Haqqa doğru getdikləri yol tarixi zaman içərisində formalaşmışdı. Seyid Yəhya Bakuvinin iştirakı ilə bu qaydalar dəqiq şəkil aldı. Təriqətin qaydaları, müridlərin mənəvi kamilliyindən asılı olaraq, özündə yeddi mərhələni ehtiva edirdi.

Seyid Yəhya Şirvani Bakuvinin elmi və fəlsəfi şəxsiyyəti ilə yanaşı, onun bu sufi ordeninin dünya miqyasında yayılmasında göstərdiyi xidmətlər də tədqiqatçıların diqqətini cəlb etməkdədir. Şirvandan başlayaraq Anadoluya yayılan bu cərəyan çox keçmədən bütün İslam dünyasında aparıcı mövqeləri ələ keçirmişdir. Osmanlı İmperiyası, İran, Azərbaycan, Yaxın Şərqlə bərabər, qısa müddət ərzində Afrika ölkələrinə, hətta Afrikanın dərinliklərinə qədər gedib çıxmışdır.[101] Belə bir faktı qeyd etmək kifayətdir ki, Əhmədiyyə və Şaziliyyə təriqətləri ilə yanaşı, Xəlvətiyyə ən geniş yayılmış sufi təriqəti olaraq, Nil vadisində şaxələnmiş, buradan Sudana, Efiopiyaya, Abisiniyaya, Keniyanın qərb əyalətlərinə, hətta Mombasa kimi sahil boyu liman şəhərlərinə də gedib çıxmışdır. Uzaq Azərbaycanda, Şirvanda lokal təriqət olan Xəlvətiyyənin belə geniş üfüqlər fəth etməsi, ilk növbədə Seyid Yəhyanın elmi və fəlsəfi şəxsiyyəti, əsərləri, həmçinin onun təşkilatçılıq bacarığı və şəxsi xüsusiyyətləri sayəsində mümkün olmuşdur. Xəlvətiyyə təriqəti Seyid Yəhyanın müridləri vasitəsi ilə Azərbaycan, Anadolu, İran, Yaxın Şərq,Şimali Afrika və Balkanyarımadasında yayılmağa başlamışdır. Təsadüfi deyildir ki, Xəlvətiyyə təriqətinin tarixində ən çoxlu sayda xəlifə yetişdirən və onları digər ərazilərə göndərən şeyx olaraq Seyid Yəhya hesab edilir. Onun yetişdirdiyi xəlifələrin əksər hissəsi Osmanlı və Anadoludan gələn sufilərdir. [54] Onların bir çoxu təhsillərini tamamladıqdan sonra Seyid Yəhyanın icazəsi ilə yenidən Anadoluya qayıtmış və həmin ərazilərdə Xəlvətilik təriqətini insanlar arasında yaymağa başlamışlar. Xəlvətiyyə, Seyid Yəhyanın vəfatından

təxminən bir əsr keçdikdən sonra, qırxdan çox şöbə və qola sahib olmuş, beləliklə də ən çox davamçısı və təkkəsi olan təsəvvüf ordeni olmaq etibarilə islam dünyasının ən böyük təriqətinə çevrilmişdir. Bu vəziyyət daha sonrakı əsrlər boyunca da eyni tempdə davam etmiş, təriqət yeni-yeni bölgələrə yayılmışdır. Sadə riyazi hesablamalar göstərir ki, müridlərin və davamçıların sayının yüz minlərə çatdığı təxmin edilə bilər. Təkcə bu fakt xəlvətiyyənin necə böyük bir təsir gücünə, əhatə dairəsinə və yayılma qüdrətinə malik olduğunu əyani şəkildə göstərir. [51]

Xəlvətiyyə ordeninin yayılmasında Seyid Yəhyanın təşkilatçılıq xidmətlərini aşağıdakı qaydada təsnif edə bilərik:

1. O, müxtəlif ölkələrə çoxsaylı müridlərini (xəlifələrini) göndərirdi.
2. Xəlvətilər Virdi-Səttar adlı ayin (zikr) kitabını qoruyub saxlamışlar. Bu günə qədər istifadə edilən həmin kitab təriqətin qayda-qanunlarını özündə ehtiva edərək, bu qaydaların təhrif edilmədən bir çox məkanlara çatdırılmasını təmin etmişdir. Burada iki məqama toxunmaq yerinə düşərdi.

a)Bu kitab 3 hissədən ibarətdir. Birinci hissədə Allahın təkliyi, ikincisində Peyğəmbər, üçüncüsündə isə onun sələflərivə s. edilmişdir.

b)Məşhur türk səyyahı Övliya Çələbinin yazdığına görə, kitabda qeyd edilən zikrlər arasındakı uca səsli zikrlər Həzrət Əlidən (ə), asta səsli zikrlər isə Əbu-Bəkrdən (r.a.) nəql edilmişdir.

3.Xəlvəti şeyxlərinin hamısının silsiləsi Seyid Yəhya Bakuvidən gəlir. Bu silsilə Məhəmməd Peyğəmbərə (s) gedib çıxır, ondan sonra isə Cüneyd Bağdadi, Həsən Bəsri, Qütbəddin Əbhari, İbrahim Gilani, Ömər əl-Xəlvəti kimi 25 övliya olmuş, onların sonuncusunu isə Seyid Yəhya Bakuvi özü təşkil etmişdir. [131]

Odur ki, Övliya Çələbinin təsviri ilə Xəlvətiyyənin Osmanlı imperiyasındakı fəaliyyətləri haqqında yaxşı təsəvvürlər əldə etmək mümkündür. Bu etibarlı mənbəyə istinadən biz Xəlvətiyyənin Osmanlı imperiyasında necə yayıldığını əminliklə öyrənə bilərik. Seyid Yəhya Bakuvi 40 ildən artıq müddət ərzində təsəvvüf irşadı ilə məşğul

olduğu üçün iyirmi minə yaxın mürid yetişdirmişdir. Onlardan 360 nəfərinə təriqət xəlifəliyi də vermişdir. Onun yetişdirdiyi məşhur sufilər arasında Əlaəddin Rumi, Məhəmməd Bahaəddin Ərzincani, Dədə Ömər Rövşəni, Həbib Qaramani, Şeyx Şükrullah, Yusif Ziyaəddin Müsküri, Seyid Əhməd Sünnəti və Çankırılı Şeyx Hamza kimi böyük şəxsiyyətlərin adlarını çəkmək olar. Övliya Çələbi həmçinin kitabında Osmanlı İmperiyasının bir çox sufi orderlərini də təsvir etmişdir. Bu sırada o, mühüm sufi hərəkatı, Xəlvətiyyəni də qeyd edir. O, səyahətlər zamanı ziyarət etdiyi zaviyələri təsvir edir, nəinki görüşdüyü şəxsiyyətlər (Xəlvəti dərvişlər və şeyxlər), həm də tikililər (təkyə və zaviyələr) və Xəlvətiyyənin tarixi haqqında yazır. O, ordenin 24 görkəmli şəxsiyyətlərini və Osmanlı İmperiyasında yerləşən 43 Xəlvətiyyə təkyələrini təsvir edir. [100]

Təsəvvüf tarixində Seyid Yəhyanı digər sufi şeyxlərindən fərqləndirən xüsusiyyətlərin olduğu göz qabağındadır. Bu xarakterik xüsusiyyətlərdən biri bütün xəlvətiyyə təriqətinə mənsub şöbələrin başında onun adının gəlməsidir. Bu baxımdan digər sufi təriqətlərində belə güclü təsirə malik şeyxin olmadığını əminliklə söyləmək mümkündür. Tarixi inkişaf boyunca hər şöbədən yeni qollar yaranmış, lakin bütün bu qollar da Seyid Yəhya Şirvani ardıcılları olaraq təriqəti yaymağa davam etmişlər. [131]

Bütün bu amillər Seyid Yəhya Bakuvini təkcə sufizmdə deyil, ümumiyyətlə, islam mədəniyyətində böyük yer tutan şəxsiyyətlərdən birinə çevirmişdir. Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra milli-mənəvi dəyərlərə qayıdış prosesi sürətlənmiş, bu prosesin tərkib hissəsi olaraq vaxtilə Şamaxıda doğulmuş və Bakıda fəaliyyət göstərmiş, dünya miqyaslı şəxsiyyətin həyat və yaradıcılığı yenidən tədqiqatçılar tərəfindən öyrənilməyə başlamışdır. Heydər Əliyev Fondunun prezidenti, birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2013-cü ilin UNESCO tərəfindən Seyid Yəhya Bakuvi ili elan edilməsi, müasir dövrdə də görkəmli mütəfəkkiin irsinə olan marağın yaşamasının əyani göstəricisidir. [232]

## 2.4. Xəlvətiyyə təriqətinin başlıca qolları

Seyid Yəhya Şirvanidən sonra Xəlvətiyyə təriqəti müxtəlif qollara ayrılmağa başlamışdır. Bu qollar arasında 4 qol daha geniş yayılmış, islam dünyasının dini-fəlsəfi düşüncəsinin təşəkkül tapmasında və inkişafında böyük əhəmiyyətə səbəb olmuşdur. Bu əsas qollar aşağıdakılardan ibarətdir:

1.Rövşəniyyə qolu. Bu qolun yaradıcısı Seyid Yəhyanın baş xəlifəsi və davamçısı olan Dədə Ömər Rövşəni olmuşdur.

2.Cəmaliyyə qolu. Bu qolu Çələbi Xəlifə adı ilə məşhur olan Şeyx Mehmed Çələbi Cəmalə yaratmışır.

3.Şəmsiyyə qolu. Xəlvətiyyə təriqətinin ana qollarından hesab edilən Şəmsiyyənin qurucusu Şeyx Şəmsəddin Əhməd Sivasidir.

4.Əhmədiyyə qolu. Bu qolun yaradıcısı Əhməd Şəmsəddin Mərmərəvi olmuşdur. [134]

Xəlvətiyyə təriqətinin daşıdığı missiya daxilində xüsusi rola malik olan bu əsas qollara nəzər salaraq, həmin kontekstdə Xəlvətiyyənin Yaxın Şərqdə və Anadoluda ictimai-siyasi və dini-mənəvi həyata təsir imkanlarını görmək mümkündür. Lakin təriqətə aid edilən qollar bunlarla məhdudlaşmırdı. Orta Əsrlərdə təkcə Osmanlı İmperiyasının paytaxtı İstanbulda Xəlvətiyyə təriqətinin 11 qolu fəaliyyət göstərirdi. Bu qollar aşağıdakılardan ibarət idi:

1.Ramazaniyyə

2.Buhurüyyə

3.Sivasiyyə

4.Cahangiriyyə

5.Karabaşiyyə

6.Hasuliyyə

7.Cərrahiyyə

8.Camaliyyə

9.Rufiyyə

10.Səlahiyyə

11.İbrahimiyyə [57]

Xəlvətiyyə şəbəkəsinin genişliyi barədə təsəvvür yaratmaq üçün, təkcə İstanbulda mövcud olan təkkələrin sayına nəzər salmaq kifayətdir. 1834-cü ildə paytaxtdakı qolların hər birinin 2-dən 16-yadək, 1889-cu ildə isə artıq 3-dən 25-dək təkkələri vardı. Maraqlıdır ki, 1884-cü ildə İstanbulun dərviş müəssisələrinin 36%-i Xəlvətiyyə ordeninə məxsus idi. Fəqət 1889/90-cı illərdə bu göstərici 25%-ə enmiş, Türk Cümhuriyyətinin yaranmasının ilk illərinə qədər dəyişmədən, sabit qalmışdır.[88]

Bununla belə, Türkiyə ərazisinə 1887-ci ildə gətirilmiş Ticcaniyyə ordeni 40-cı illərə qədər Ankara regionunda fəaliyyətini davam etdirmişdir. [173, 505]

Eyni zamanda XX əsrin birinci yarısında İstanbul və Anadoluda Cərrahiyyə, Əhmədiyyə, Uşşakiyyə və Şabaniyyə təriqətləri öz gizli fəaliyyətlərini davam etdirmişlər ki, bu da sonradan sufi ənənələrinin qorunub saxlanılmasına zəmin olmuşdur. Bütün bu qollar Xəlvətiyyə təriqətinin aparıcı cərəyanları olaraq fəaliyyət göstərmişlər.

### 2.4.1. Rövşəniyyə

Xəlvətiyyə təriqətinin ilk böyük qolunu Rövşəniyyə təşkil etməkdədir. Bu qolun yaradıcısı olaraq Dədə Ömər Rövşəni göstərilir. Dədə Ömər Rövşəni türk mənşəli sufi şair kimi də məşhurdur, eyni zamanda Anadoluda Xəlvətiyyənin yayılmasında böyük xidmətlər göstərmişdir. XV əsr xəlvəti şeyxi və Seyid Yəhya Bakuvinin öndə gələn xəlifələrindən biri olaraq sufi ədəbiyyatının və Xəlvətiyyə təriqətinin əsas adlarından hesab edilir.

Dədə Ömər Rövşəninin fikirləri onun “Ləmazat” adlı əsərində öz əksini tapmışdır. “Nur əhlinin seçkini”, “aləm və adəmin işığı”, “can və tən əhlinin eşq

sirlərinin rəhbəri", "aləm imamlarının qütbü", "sirlər aləminin eşq və sevgi nuru", "yetişdirici qütblərin məna iqliminə gedən aydınlıq yolu" deyə o, öz dünyagörüşünü, dini, əxlaqi və mənəvi istiqamətlərini müəyyən etmişdir. [84]

Orta Əsrlər təsəvvüf düşüncəsinin aparıcı simalarından biri olan Dədə Ömər daha çox şeirlərində istifadə etdiyi Rövşəni təxəllüsü ilə məşhur olmuşdur. Əsl adı Ömər, ləqəbi Dədə, künyəsi Əli ibnu binti Umur bəy olmuşdur. Atası haqqında tədqiqatçıların əlində məlumat yoxdur, lakin ana babası "Töhfətül-mücahid" əsərində qeyd edildiyinə görə, İldırım Bəyazidin əmirlərindən olan Qara Timurtaş Paşanın oğlu Qazi Umur bəy olduğugüman edilir. Bu baxımdan o, özü də "Ləmazat"da ana babasının Aydın oğlu Umur bəy olduğunu göstərmişdir. Şairin babasının bu ərazilərdə Osmanlılardan əvvəl hökmdarlıq edən Aydınoğulları sülaləsindən əlli il ara fasilə ilə bəylik edən iki Umur bəydən biri, böyük ehtimalla birincisi olduğu güman edilir. Çünki Dədə Ömər Rövşəni Aydın bölgəsinin o vaxtkı mərkəzlərindən Gözəlhisara tabe olan Tirədən olduğunu bildirir. Bu baxımdan yazdığı şeirlərdən birində aşağıdakı məzmunda bildirmişdir: "Miskin, həqir Rövşəni əslin sorar isən Aydın ilində, Tirə yanında Gözəlhisar" - bu misralardan onun Gözəlhisarlı olduğu qəbul edilir. Doğulduğu il dəqiq şəkildə məlum olmasa da aparılan araşdırmalar doğum dövrü kimi 1407-1417-ci illər aralığını göstərir. Onun təsəvvüfə və Bakıya gələrək Seyid Yəhya Bakuviyə bağlanmasına böyük qardaşı Əlaəddin Əlinin səbəb olduğu göstərilir. Böyük qardaşı Seyid Yəhyanın öndə gələn xəlifələrindən olmuşdur. Ona görə də, Ömər Rövşəninin elmi və təsəvvüfi baxımdan məşhur olan bir ailə mühiti içində tərbiyə aldığını da demək mümkündür. Mədrəsə təhsilinə Aydında başlasa da, təhsilini Bursada davam etdirmişdir. Ömər Rövşəninin yüksək səviyyəli təhsil gördüyü, dövrün elm və ədəbiyyat mühitindən faydalanaraq hər baxımdan yaxşı yetişdiyi məlumdur. Onun bu zamanlarda yazdığı və yüksək ədəbi göstəriciləri ilə diqqəti cəlb edən şeirlərinin ədəbi mühitdə bəyənildiyi haqda olan məlumatlar hələ o zamanlardan şair olaraq qəbul edildiyi faktının göstəricisi hesab edilə bilər. Dədə

Ömər Rövşəni Bursada olduğu zaman haqqında çıxan dedi-qodulara və gördüyü yuxuya görə ordan uzaqlaşaraq Larəndədə yaşayan böyük qardaşı Əlaəddin Əlinin yanına yollanır. Larəndədə onun da təlqin və təsiri ilə təsəvvüfə yönəlməyə qərar verir. Qardaşının xeyir-duası və tövsiyyəsi ilə Seyid Yəhya Bakuvinin yanına – Bakıya gələrək ona müridlik etməyə başlayır. Qısa vaxtda sülukunu sona çatdıraraq Seyid Yəhyanın xəlifəsi olur və Anadoluda insanları irşad etmək vəzifəsinə təyinat alır. Buna baxmayaraq, mürşidindən uzaq olmamaq üçün onun razılığı ilə Qarabağ, Bərdə, Gəncə və Ərdəbil kimi ətraf bölgələrdə irşad ilə məşğul olub, burada xəlvətilik təriqətini təbliğ etməyə başlayır. Dədə Ömər Rövşəni Seyid Yəhya Bakuvidən aldığı mənəvi tərbiyə və ürfan dərsinə olduqca böyük əhəmiyyət verirdi. Bu münasibətlə, o, bu tərbiyə və ürfanın əhəmiyyətini br beytində bu sözlərlə ifadə etmişdir: "Taciyəm desəm nola hər şeyxi-şuhun, çünki mən Seyyidi-sadat, Seyyidi Yəhya xaki-rahiyəm." [99]

Dədə Ömər Rövşəninin xidmət və fəaliyyəti çoxcəhətli olmuşdur. O, bir tərəfdən Şirvan və Qarabağda təsəvvüfün yayılmasına xidmət etmiş, bir şeyx kimi irşad vəzifəsini üzərinə götürmüş, digər tərəfdən də dini-didaktik məzmunlu şeirlər yazmışdır. Ağqoyunlu sultanı Uzun Həsənin Qaraqoyunluları məğlub edərək Təbrizi paytaxt elan etməsindən sonra İbrahim Gülşənini göndərərək onu öz yanına dəvət etməsi ilə Təbrizə getdi və sultanın xanımı Səlcuq Xatunun onun üçün tikdirdiyi xanəgahda yaşamağa başladı. [27]Bundan sonra Dədə Ömər Rövşəni Uzun Həsənin sarayında fəaliyyət göstərməyə başlamış, hər cümə günü alim və sənətkarlarla edilən toplantılarda və məclislərdə həmişə böyük ehtiramla qarşılanan alimlərdən biri olmuşdur. Uzun Həsənin vəfatından sonra (1487) oğulları Sultan Səlim və xüsusilə də Ağqoyunluların ən böyük hökmdarlarından sayılan, alim və sənətkarların himayəçisi Sultan Yaqub ilə Dədə Ömər Rövşəni arasında həmişə qarşılıqlı məhəbbət və ehtiram müşahidə edilmişdir. Hökmdar ona müxtəlif ehsanlar edərək həmişə Rövşəninin xidmətində olmuş, "Cahanşah xanəgahı"nı onun üçün ayırmışdır. Bu qarşılıqlı

münasibətlər öz əksini Rövşəninin ona ithaf etdiyi xüsusi bir şeirdə tapmışdır. Dədə Ömər Rövşəni Təbrizdə 892/1487-ci ildə vəfat etmiş və təkyəsinin yaxınlığındakı türbədə dəfn edilmişdir. Lakin daha sonrakı dövrlərdə onun türbəsi itmişdir, hətta indi də yeri məlum deyildir.

Rövşəninin həyatında 25 il ərzində yaşadığı Təbriz dövrü, Dədə Ömərin təsəvvüfi şöhrətinin getdikcə artaraq yayılması, təsəvvüfi məsnəvilərini qələmə alması, şair olaraq məşhurlaşması ilə səciyyələnməkdədir. Hətta yazdığı şeirlərin doğma diyarı Ruma və İstanbula qədər çatıb bu şeirlərə nəzirələrin yazıldığı da məlumdur. Onun yetişdirdiyi müridləri Xəlvətiyyənin sonrakı inkişafında böyük xidmətlər göstərmişlər. Bu müridlərin sırasında xəlvətiliyin Rövşənilik qolunu öz adları ilə Qahirədə davam etdirən İbrahim Gülşəni, Şeyx Dəmirdaş, Şahin Xəlvəti, Həsən Bayati Mahmudoğlu kimi böyük şəxsiyyətlərin adlarını çəkmək mümkündür. [60]

Xəlvətiyyə təriqətinin içərisində Dədə Ömər Rövşəni ilk növbədə Rövşəniyyə qolunun yaradıcısı kimi tanınmaqdadır. Rövşəniyyyə qolunun xarakterik xüsusiyyətlərindən danışarkən, qeyd etmək lazımdır ki, Seyid Yəhyanın xəlifələrindən bəzilərinin mərifətullaha, bəzilərinin ilahi cazibəyə, bəzilərinin zöhd və təqvaya üstünlük vermələri ilə yanaşı, Dədə Ömər Rövşəni ilahi eşqə üstünlük vermişdir. Onun bir çox şeirlərində səmimi şəkildə ilahi eşq və Allaha yaxınlıq duyğularını ifadə etdiyi də aydın surətdə görünür. Təsəvvüf dünyagörüşü baxımından Dədə Ömər Rövşəni, Muhyiddin ibn Ərəbinin xəttini davam etdirmişdir. Onun İbn Ərəbinin "Füsusul-Hikəm" əsərindəki bəzi görüşlərinin tənqidinə də cavab verdiyi məlumdur. Lakin Rövşəniyyə qolunun yalnız İbn Ərəbidən təsirləndiyini demək, bu cərəyanın dünyagörüşünü məhdudlaşdırmaq sayıla bilər. Belə ki, Dədə Ömər Rövşəninin dini-fəlsəfi fikirlərində Cəlaləddin Ruminin də böyük təsiri olduğugöz qabağındadır. Məsələn, onun "Neynamə" adlı məsnəvisi Mövlananın Məsnəvisinin ilk 18 beytinin tərcüməsi və qismən şərhindən ibarətdir. "Çobannamə" adlı əsəri isə

Məsnəvidəki "Musa-Çoban" hekayəsinin sərbəst qaydada tərcüməsidir. Dədə Ömərin Mövlananın fikir və görüşlərini mənimsəməsi təsəvvüf tarixinin sonrakı mərəhələsində özünü göstərmişdir. Belə ki, Rövşəniyyədən ayrılan Gülşəniyyə şöbəsi ilə Mövləviyyə təriqəti arasında meydana gələn yaxınlığın əsasını əslində Dədə Ömərin Mövlananın fikirlərinə olan dərin ehtiramı təşkil etmişdir. [113] Professor Azadə Musayeva" Seyid Yəhya Bakuvixəlifəsi Dədə Ömər Rövşəninin əlyazmalarında"Seyid Yəhyaya yazdığı qəsidə öncə mənəvi kamillikdən, paklıqdan, təriqət məsələlərindən, daha sonra Seyid Yəhyanın yüksək insani keyfiyyətlərindən, haqq yoluna gedənlərin "bələdçisi" (yol göstərəni) olduğundan və s. söz açır. [17] Rövşəniyyə təriqətinin yayıldığı ərazilər geniş bir coğrafiyanı əhatə etməkdədir. İlk dövrlərdə bu qol Azərbaycan ərazisində, Təbriz və ona yaxın bölgələrdə yayılmışdır. Sonrakı dövrlərdə Xəlvətiyyə təriqətinin Anadoluda məşhurlaşmasında bu qolun da özünəməxsus rolu olmuş, Şərqi və Cənub-Şərqi Anadoluda, Ərzurum, Diyarbəkir kimi şəhərlərdə Rövşəniyyə sürətlə yayılmışdır. [17]

Xəlvətiyyə təriqətinin bir qolu olmaq etibarı ilə Rövşəniyyə bu təriqətin seyri-süluk qaydalarını mənimsəmişdir. Lakin bəzi məqamlarda müəyyən fərqliliklər də özünü göstərir. Buna misal olaraq, seyri-sülukun həyata keçirilməsi qaydasını göstərmək olar. [124] Xəlvətiyyə təriqətində seyri-süluk yeddi adla (la ilahə illəllah, Allah, hu, haqq, həyy, qayyum, qəhhar) həyata keçirilir. Lakin Rövşəniyyə təriqətinin qurucusu öz fikirləri əsasında bura aşağıdakı adları da əlavə etmişdir: vəhhab, fəttah, vahid, əhəd, səməd. Digər prinsipial məsələlərdə Rövşəniyyə Xəlvətiyyə təriqətinin əsas-qayda qanunları üzərində qurulmuş bir qol olaraq özünü göstərməkdədir.

Rövşəniyyə qolunun əsas şöbələri aşağıdakılardan ibarətdir:

1.Gülşəniyyə. Bu şöbənin qurucusu İbrahim Gülşənidir.

2.Səzaiyyə. Yaradıcısı Həsən Səzai olan Səzaiyyə əsas etibariə Anadolu regionunda yayılmışdır.

3.Halətiyyə. Həsən Haləti Əfəndi tərəfindən yaradılmış bir şöbədir.

4.Dəmirdaşiyyə. Şeyx Abdurrəhman Məhəmməd Dəmirdaş tərəfindən yaradılmışdır.

### 2.4.2. Cəmaliyyə

Xəlvətiyyə təriqətinin Rövşəniyyə qolundan sonra ikinci ana qolu hesab edilən Cəmaliyyənin qurucusu Cəmal Xəlvətidir. Onun adının Məhəmməd olduğu bildirilir. İlk təhsilini doğulduğu Aksarayda almış, sonralar İstanbulun görkəmli alimlərinin tələbəsi olmuşdur. Dünyəvi və dini elmləri öyrəndiyi zaman, onda təsəvvüf elmlərinə qarşı maraq yaranmışdır. Beləliklə, zahiri elmlərdə müəyyənnailiyyətlər əldə etdikdən sonra, mücahədə və riyazətlə məşğul olaraq təsəvvüf elmlərinə dərindən bələd olmağa başlamışdır. Bundan sonra öz dövrünün məşhur sufilərindən olan Tahir Dədənin söhbətlərində iştirak etmiş, lakin Tahir Dədənin vəfatı səbəbindən onunla münasibətləri qısamüddətli olmuşdur. Sonralar o özünə mürşid olaraq Xəlvətiyyə təriqəti şeyxlərindən olan və Tokatda yaşayan Pir Məhəmməd Bahaüddin Ərzincanini götürmüşdür. Onun yanında öz sülukunu tamamlamağa nail olmuş, Ərzincani tərəfindən xilafət aldıqdan sonra Tokata, daha sonra isə Amasyaya getmiş, orada da öz yaratdığı qolu yaymağa başlamışdır.[54]

Cəmal Xəlvəti Osmanlı hökmdarı İkinci Bəyazid ilə hələ Amasya valisi olduğu zaman tanış olmuşdu. Sultan olduqdan sonra Kocamustafa Paşa vasitəsilə Camal Xəlvətini İstanbula dəvətetdi. Təxminən 9 il müddətində İstanbuldakı təkkədə şeyxliklə məşğul oldu. Maraqlı məqamlardan biri də, İkinci Bəyazidin iki dəfə onun evinə qədər gələrək ondan xeyir-dua alması olmuşdur.

Cəmal Xəlvəti, Xəlvətiyyə zikrlərini ilk dəfə İstanbulda həyata keçirən, digər təriqətlərdə olmayan Xəlvətiyyə yeniliklərini göstərməyi bacaran bir şəxs olaraq tanınmışdır. Onun vəfatı Həcc ziyarətinə getdiyi vaxta təsadüfetmişdir. Belə ki, o hicri 899-cu ildə (miladi 1493) Dəməşq yaxınlığında haqq aləminə köçmüşdür. Öz vəsiyyətinə əsasən, hacıların ziyarətə gedib-gəldikləri yolun kənarında dəfn

edilmişdir. Onun vəfat tarixini 1494, 1497 və 1506-cı il kimi göstərən mənbələrə də rast gəlmək mümkündür.

Onun müridləri arasında təsəvvüf tarixində xüsusi çəkiyə malik şəxslərin adlarını çəkmək mümkündür. Onlardan Qasım Əfəndi, Sinan Ərdəbili, Üveys Dədə, Xeyrəddin Tokati, Cəmşah Qaramanini göstərmək olar. [100]

Yazdığı əsərlər baxımından Cəmal Xəlvəti digər sufi şeyxlərindən olduqca məhsuldar olmasıilə fərqlənir. Düzdür, bəzən əsərlərin sayları və adları ilə əlaqədar mübahisələr yaranır, yazmadığı əsərlər də ona aid edilir. Ona görə də müəllifi olduğu əsərlərin sayı ilə bağlı dəqiq rəqəm göstərmək çətindir. Lakin onun qələmindən çıxdıgı əminliklə geyd edilən əsərlər, müxtəlif məcmuələr şəklində Türkiyə Respublikasının kitabxanalarında qorunub saxlanılır. Həmin əsərlərə misal olaraq, aşağıdakıları göstərmək olar: Cəvahirül-Qulub; Çengniimə; Risale-i Təşrfhiyyə; Risale-i Fəxriyyə; Risale-i Sufiyyə; Risale-i Ətvar-ı Səb'a. Bundan başqa, Türkiyə Milli Kitabxanasında onun Sa Kəlime-i Siddiqi-Əkbər və Təfsiru Surəti-Fatihə adlı əsərləri saxlanılır. Onun sufizmin inkişafında müəyyən rol oynamış aşağıdakı əsərlərini göstərmək mümkündür: Divançə, Kitabun-Nuriyyə və Kövkəbüd-Düriyyə, Risalə fi İsmeynil-Azameyn, Hubbullah Rəsii Külli Batileyn, Əsrarul-İlahiyyə, Risaleyi-Nusratiyyə. Bu adıçəkilən əsərlər Cəmaliyyə qolunun nəzəri, dini-fəlsəfi mahiyyətini özündə ehtiva etməsi baxımından, həmin qolun və ümumiyyətlə Xəlvətiyyə təriqətinin araşdırılması baxımından qiymətli mənbə xüsusiyyəti daşıyırlar. [121]

Cəmal Xəlvətinin qələmə aldığı mənzum əsərlər tövhidə dair yüksək səviyyəli qəzəllər olmuşdur, onlardan bəziləri bəstələnərək indiyə qədər müxtəlif zikr məclislərində oxunur.

Lakin Cəmal Xəlvəti böyük türk mütəsəvvif şairi olmaqdan daha çox, Xəlvətiyyə təriqətinin öz dövründəki ən böyük təmsilçilərindən biri kimi tanınmaqdadır. Onun dövrünün Osmanlının yüksəliş mərhələsinə təsadüf etməsi,

eləcə də İkinci Bəyazidlə yaxın münasibətləri təkcə özünün məhsuldar fəaliyyətinə deyil, eləcə də Xəlvətiyyə təriqətinin Anadoluda və İstanbulda daha sürətlə intişar tapmasına, çoxlu sayda müridlər yetişdirməsinə rəvac vermişdir. Özündən sonra böyük mənəvi irs qoyaraq, irfan ocağında yetişdirdiyi ariflərin İstanbul və Anadolunun müxtəlif yerlərində maarifçi və irşad fəaliyyətilə məşğul olmalarını təmin etmişdir. Xəlvətiyyə təriqəti tarixində bu təriqətin İstanbuldakı ən böyük təmsilçisi hesab edilən Cəmal Xəlvətinin çoxşaxəli yaradıcılığı və fəaliyyəti nəticəsində Cəmaliyyə qolu dövrünün aparıcı Xəlvətiyyə qoluna çevrilə bilmişdir. [136]

Cəmaliyyə qolundan Sinaniyyə, Şadaniyyə, Əssaliyyə, Bəxşiyyə şöbələri meydana gəlmiş, həmçinin bu şöbələr özləri də digər kiçik şöbələrə ayrılaraq təsəvvüf dalğasının yayılmasına töhfə vermişlər. Təsadüfi deyildir ki, Cəmaliyyə qolu Rövşəniyyə qolundan sonra təriqətin ikinci ana qolu sayılır. Cəmaliyyənin ədəb və ərkanı, qayda-qanunları, ritual və mərasimləri Xəlvətiyyə təriqətilə eynidir. Bu məzmunda təriqətlə Cəmaliyyə qolu arasında heç bir prinsipial fərqlilik müşahidə edilmir. [87] Müridlərin seyri-sülukları zamanı tətbiq edilən üsullar və zikrlər də eyni hesab edilir. Bu da təsadüfi deyildir, çünki təriqətin qurucusu Cəmal Xəlvəti özünün şeyxi Pir Məhəmməd Bədaüddin Ərzincani vasitəsilə xəlvətilərin ikinci piri Seyid Yəhya Bakuviyə gedib çıxır. Arada cəmi bir mürşidin olması səbəbindən, Seyid Yəhyanın fikirləri demək olar eynilə Cəmal Xəlvətinin düşüncələrində öz əksini tapmışdır. Cəmaliyyə qolundan ayrılan əsas şöbələr aşağıdakılardan ibarətdir:

Sünbüliyyə şöbəsi. Şeyx Zeynüddin Yusif Sünbül Sinan tərəfindən yaradılmışdır.

Şabaniyyə şöbəsi. Bu şöbənin qurucusu kimi 1568-ci ildə Kastamonuda vəfat edən Şeyx Pir Şaban Vəlinin adı çəkilir. [95]

Bəxşiyyə şöbəsi. Bəxşiyyə şöbəsinin yaradıcısı Məhəmməd bin Məhəmməd əl Bəxşidir.

Əssaliyyə şöbəsi. Əssaliyyənin qurucusu olaraq, 1638-ci ildə vəfat etmiş Əhməd bin Əli əs Əssali göstərilir.

Tarixi inkişaf boyunca, Sünbüliyyə, Əssaliyyə, Bəxiyyə eynilə olduğu kimi qalmış, Şabaniyyə isə daha da genişlənərək digər şöbələrə ayrılmışdır. Şabaniyyə qolunun Qarabaşiyyə şöbəsindən yaranan Bəkriyyə təriqəti Şimali Afrika, Suriya və Hicazda da geniş yayılmışdır. Bəkriyyə təriqətindən Kəmaliyyə, Hifniyyə, Ticaniyyə, Səmmaniyyə, Feyziyyə, Dardiriyyə və Saviyyə şöbələri meydana gəlmişdir. Beləliklə, Xəlvətiyyə təriqətinin Yaxın Şərqdə və Şimali Afrikada böyük rəğbət qazanmasında Cəmaliyyə qolunun rolu böyük olmuşdur.

### 2.4.3. Şəmsiyyə

Xəlvətiyyə təriqətinin Anadoluda geniş intişar tapmış daha bir qolu Sivas şəhəri və onun ətraf ərazilərində formalaşmışdır. Şəmsiyyə adı ilə məşhurlaşmış bu qol həm də Sivasiyyə adı ilə təsəvvüf ədəbiyyatında tanınmaqdadır. Bu qolun yaradıcısı Şeyx Əbdüləhhad Nuri Sivasi olmuşdur. Onun tam adı Əbusəna Şəmsül Milləti vəd-Dini Əhməd bin Əbul-Bərəkət Məhəmməd bin Arif bin Həsən əz-Zili əs-Sivasidir. “Qara Şəms” adıyla məşhurlaşan bu şəxsi mənbələr daha çox “Şəmsi Sivasi” adıyla göstərirlər. O, 1519-cu ildə Sivas şəhərində anadan olmuşdur. Zilədə qrammatika və digər elmləri öyrəndikdən sonra Tokata gedərək Mövlana Şəmsəddin Əfəndidən dərs almışdır. Qısa zamanda təhsildə böyük uğurlar qazanaraq İstanbula yollanmış, burada təhsilini daha da təkmilləşdirmişdir.[62]

Həcc ziyarətinə getdikdən sonra, qayıdarkən Zilədə məskunlaşaraq vaizlik və müəllimlik etməyə başlamışdır. Atasının şeyxi Hacı Xızır Amasinin xəlifələrindən olan Müslihiddin Xəlifəni özünəmürşid seçərək onun yanında təsəvvüfdə məşhur olan dördüncü dərəcəyə, yəni nəfsi-mütməinnəyə qədər yüksəlməyə nail olmuşdur.

Bundan sonrakı dövrdə Şeyx Abdulməcid Şirvaninin Tokata gəlməsini eşidib onun yanına yollanmış, onun yanında seyri-sülukunu tamamlamışdır. 11il ərzində ona

xidmət etdikdən sonra xilafət alaraq Ziləyə qayıtmış, burada mürşidlik fəaliyyətinə başlamışdır. Onun 50 il müddətində mürşidlik etməsi məlumdur.

Sivas valisi Həsən Paşanın Sivasda inşa etdirdiyi məscid və xanəgahda şeyxlik etmək üçün ora dəvət aldıqdan sonra Şəmsəddin Sivasi bu şəhərə köçür. 1597-ci ilə qədər burada müəllimlik və insanları irşad etməklə məşğul olmuşdur. Zahiri və batini elmlərdə yüksək mövqedə olmasına görə Sultan Süleyman Qanuni, II Səlim, III Murad, III Mehmet kimi hökmdarların hakimiyyəti dövründə İstanbulda moizələr oxumuş, bu hökmdarların hamısı tərəfindən ehtiramla qarşılanmışdır. O, öz dövründə böyük arif, riyazəti və təqvası ilə məşhur alim kimi şöhrət qazanmışdır. III Mehmetlə birlikdə hərbi yürüşdə iştirak etdikdən sonra 1597-ci ildə Sivasa qayıtmış, burada da vəfat etmişdir.

Şəmsəddin Sivasi öz həyatını insanların xidmətində olmağa sərf edirdi. Öz zamanının əksər hissəsini təkkəsinə qapanıb zikr və təfəkkür etməklə keçirərdi. Mövlanənin Məsnəvi-i Mənəvi adlı əsərini hər Ramazan ayında müridlərinə oxuyub şərh etməyə böyük əhəmiyyət verirdi. Ərəb və fars dillərini son dərəcə yüksək səviyyədə bilən Şəmsəddin Sivasi 30-a yaxın əsər yazmışdır. [59]

Şəmsiyyə təriqəti ilə bağlı zəngin məlumatları ehtiva edən bu əsərlərin heç də hamısı nəşr edilməmişdir. Onlardan bir hissəsi hələ də kitabxanalarda əlyazma şəklində qorunub saxlanmaqdadır. Bu əsərlərin əksər hissəsi təsəvvüf xarakterli olub, onun sufizmlə bağlı fikirlərini ifadə etmək ehtiyacından meydana gəlmişdir. Bu əsərlərdə hər hansı abstrakt yanaşmadan daha çox, sadə insanları düzgün yola yönəltmək, onlara həqiqətləri göstərmək meylləri daha çox üzə çıxır. Anadolunun müxtəlif yerlərinə çoxlu sayda xəlifələr göndərməsi də diqqəti cəlb edən məqamlardan biridir. Onun xəlifələri arasında ən məşhuru Abdulməcid Sivasi olmuşdur. Şəmsiyyə qolunun geniş yayılması və şöbələrə ayrılması da məhz Abdulməcid Sivasinin adı ilə bağlıdır.

Abdulməcid Sivasinin İstanbula köçməsindən sonrakı ilk dövrlərdə, bu qolun İstanbul təmsilçiliyini yerinə yetirirdi. Lakin daha sonralar müstəqil bir şöbə yaratmış, beləliklə həm Şəmsiyyə, həm də Sivasiyyə adlanan qol meydana çıxmışdır.[81] Abdulməcid Sivasi ilə birlikdə Abduləhəd Nuri tərəfindən də İstanbul və ətraf bölgələrdə geniş intişar tapan Şəmsiyyə, sonradan Abduləhəd Nurinin adı ilə bağlanan Sivasiyyə adlı müstəqil şöbəyə çevrilmişdir. Şəmsiyyənin İstanbulda yayılması və orada təşəkkül tapması əsas etibarilə Abduləhəd Nurinin xidmətləri sayəsində mümkün olmuşdur.

Qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar Sivasiyyəni Şəmsiyyə qolunun bir şöbəsi olaraq gördükləri halda, digər tədqiqatçılar isə Şəmsiyyə və Sivasiyyəni eyni qol hesab edirlər. Bu baxımdan Sivasiyyəni Şəmsiyyənin şöbəsi hesab edənlərin fikrincə, bu şöbə Şəmsiyyənin yeganə şöbəsi olaraq fəaliyyət göstərmişdir.

Sivasiyyə şöbəsinin digər davamçıları kimi Məhəmməd Nəzmi, Əbdürrəhman Rafia, Əbdülməcid Əfəndi kimi görkəmli təsəvvüf şeyxlərinin adlarını çəkmək olar. Şəmsiyyə qolu geniş yayıldığı zamanlarda təkcə İstanbulda 40-a qədər zaviyəyə malik olmuşdur.

### 2.4.4. Əhmədiyyə

Əhmədiyyə qolu Əhməd Şəmsəddin Mərmərəvinin adı ilə bağlıdır. Onun 1435-1505-ci illər aralığında yaşadığı güman edilir. II Bəyazid dövründə təriqətlər arasında meydana çıxan müəyyən xoşagəlməz halları aradan qaldırmaq üçün İstanbula dəvət edilmişdir. Əldə etdiyi uğurlar səbəbindən böyük hörmət və ehtirama nail olmuş, Fəta-Fityən—İgidbaşı qələbini qazanmışdır. Xəlvətiyyə təriqətində orta yol hesab edilən Əhmədiyyə təriqətinin qurucusu hesab edilir. [129]

1435-ci ildə Gülmərmərədə anadan olan Əhməd Şəmsəddin, İsa Xəlifə adlı Xəlvəti şeyxinin tələbəsi olmuşdur. Bundan sonra Alaəddin Uşşaqinin yanında tələbəlik etmiş, təhsilini tamamladıqdan sonra Manisaya gedərək burada tələbə yetişdirməklə məşğul olmuşdur. Qazandığı böyük hörmət, zahiri və batini elmlərdəki

yüksək qabiliyyəti sayəsində yuxarıda da göstərildiyi kimi, təriqətlər arasındakı ixtilafları həll etmək məsələsi ona etimad edilmişdi. Müəllimi Alaəddin Üşşaqinin vəfatından sonra onun yerinə keçmişdir. O, 1504-cü ildə vəfat edərkən fəaliyyət göstərdiyi təkkəsinin yanındakı türbədə dəfn edildi.

O, Əhmədiyyə qolunun əsasını qoyması ilə yanaşı, təsəvvüf tarixində məhsuldar müəlliflərdən biri kimi tanınır. Əsərlərində özünün təsəvvüf barədə görüşlərini açıqlamış, Xəlvətiyyə təriqəti və əsasını qoyduğu Əhmədiyyə qolunun incəliklərini qeyd etmişdir. Daha böyük əhəmiyyətkəsb edən əsərləri aşağıdakılardan ibarətdər: Camiul-Əsrar, Risale-i Tövhid, Kəşfül-Əsrar, Risalətül-Hüda, Kənzül-Həqaiq, Hüdrə-i Təriqat, Müqəddimətüs-Sadiqa, Rəvzətül-Vasilin. [59]

Əhmədiyyə təriqəti özü də sonralar bir neçə şöbəyə ayrıldı. Xəlvətiyyə təriqətinin Balkan yarımadasında meydana gəlməsi bilavasitə Əhmədiyyə qolunun şöbələri ilə bağlıdır. Osmanlı İmperiyasının hərbi yürüşləri nəticəsində fəth edilən ərazilərdə yayılan islam-təsəvvüf inancının əsas atributlarından biri kimi çıxış edən Əhmədiyyə qolu, imperiyanın müxtəlif bölgələrinin dini və fəlsəfi düşüncəsində, ictimai-siyasi həyatında əhəmiyyətli rola sahib olmuşdur. Cərrahiyyə, Misriyyə, Ramazaniyyə şöbələri Osmanlı imperiyasının tarixində oynadıqları rola görə tədqiqatçıların diqqət mərkəzində qalmaqda davam edirlər. [81]

Ramazaniyyə şöbəsinin yaradıcısı Şeyx Ramazanəddin Mahfi olmuşdur. 1616-cı ildə vəfat edən Şeyx Ramazanəddin 76 illik həyatının 32ilini şeyxlik etməklə keçirmişdir. Onun "Mahfi" təxəllüsündən də göründüyü kimi, özünün kimliyini gizləyən, Allah dostu olmağa üstünlük verən bir təsəvvüf şeyxi olmuşdur. Çoxlu sayda xəlifəsiolmasına baxmayaraq, insanlardan uzaqlaşmağa üstünlük verdiyi üçün həyatı haqda çox az məlumatlar qeydə alınmışdır.

Nurəddin Cərrahi tərəfindən İstanbulda yaradılmış Cərrahiyyə şöbəsi də Osmanlı imperiyasının paytaxtı və ətraf ərazilərdə şöhrət qazanmışdır. Lakin Əhmədiyyə qolunun ən mühüm şöbəsi, Niyazi-Misri tərəfindən əsası qoyulmuş

Misriyyə hesab edilir. [186, 228] Türk sufi şairi Niyazi 1618-ci ildə Malatyanın Soğanlı kəndində anadan olmuşdur. Onun atası Nəqşibəndilik təriqətinə mənsub Əli adlı şəxs olmuşdur. Lakin Niyazi qardaşı Əhmədlə birlikdə təhsil almağa başladıqda, Xəlvəti şeyxlərindən olan Malatyalı Hüseynə müridlik etmişdir. Misirə getdikdən sonra orada Qadiri təriqətinə daxil olmuş, eyni zamanda Əl-Əzhər Universitetində təhsilini davam etdirmişdir. 1646-cı ildə İstanbula qayıdaraq irşad vəzifəsini həyata keçirməyə başladı. Dövlətə qarşı bəzi çıxışlar etdiyi üçün dəfələrlə sürgün edilmişdir. [54]

Əhmədiyyə qoluna mənsub olan bu şöbələrin hamısının zikrləri, əməl etdikləri qaydaları Xəlvətiyyə təriqətinin əsas qaydalarını eynilə təkrar etməkdədir. Bütün bunlar bir daha göstərir ki, Xəlvətiyyə təriqəti İslam coğrafiyası daxilində nə qədər geniş ərazilərə yayılsa da, təriqətə xas olan əsas atributlar, zikrlər, mərasim və ayinlər eyni olaraq qalmış, təriqət silsilələri qorunub saxlanılmışdır.

# FƏSİL III
# XƏLVƏTİYYƏNİN YARANMASI VƏ İNKİŞAF TARİXİ

## 3.1. Məğrib ölkələrinin ictimai-siyasi və mədəni həyatında xəlvətilik

Xəlvətiyyə təriqətinin İslam coğrafiyasında yayılması nəticəsində qısa müddətdə Şimali Afrika ölkələrində aparıcı süfi təriqətinə çevrildi. Əlbəttə, xəlvətiyyənin belə geniş yayılması, uzaq Azərbaycanda, Şirvanda yaranmış sufi düşüncəsinin Məğrib ölkələrində populyarlıq qazanmasının sosioloji, ideoloji, tarixi səbəbləri mövcuddur. İlk növbədə qeyd edilməlidir ki, Xəlvətiyyə əsas etibarilə Osmanlı imperiyası daxilində, bu imperiyanın fəth etdiyi ərazilərdə yayılır, bir növ Osmanlı hakimiyyətinin ideoloji qanadı funksiyasını yerinə yetirirdi. [101]

Osmanlı imperiyası sufi ideyalarının ərəb dünyasında, Afrikada və Asiyada yayılması mərkəzi olmaqla yanaşı, mədəniyyətlərin dialoquna da təkan verməklə dünyada sülhün qorunmasına xidmət etmişdir. Bu münasibətlə tədqiqatçı Rachida Chih yazır ki, Osmanlı imperiyası tərəfindən Şərqi Avropanın istila olunması nəticəsində ticarət yollarının açılması ilk dəfə olaraq Avropanı bütün dünya ilə birləşdirdi. [189]

Bu istilalar sufilərin həyatına xeyli sayda yeniliklərin daxil olmasına səbəb oldu. İlk növbədə böyük ticarət yollarının təhlükəsizliyi, ələlxüsus da ziyarətgahlara aparan yolların səyahət üçün təhlükəsiz olması mədəniyyətlərin təması üçün geniş üfüqlər açmış oldu. [159, 250]

Məhz bu dövrdə əsasən sufilərdən və üləmadan ibarətolan müqəddəs şəhərlərdə təhsil almaq arzusu ilə yaşayan zəvvarların sayı həddən ziyadə artmışdı. Yalnız 1579-80-ci illərdə Osmanlı dövləti Mədinədə təhsil almaq istəyində olan 8.000 nəfərə maliyyə dəstəyi vermişdi. Onların ailə üzvləri nəzərə alınmadan 40.000 adam bu məqsədlə dövlət vəsaitindən bəhrələnmişdi.Bu görüşlərdən və mədəniyyətlərin

dialoqundan yaranmış təəssüratlar öz əksini səyahətlər haqqındakı müxtəlif hekayələrdə tapmışlar. [228]

Seyid Yəhya Bakuvinin əsasını qoyduğu xəlvətiyyə təriqəti bu gün Misirdə və Əlcəzairdə çox böyük əhəmiyyətə malikdir. Misirdə bu cərəyanın təməli XV əsrin sonlarından etibarən Anadoludan gəlmiş sufilər tərəfindən qoyulub. Cərəyanın yayılmasının I mərhələsi 1517-ci ildə Osmanlı dövlətinin Misiri fəth etməsindən sonra başladı. O zamanlar xəlvətiyyə Qahirənin fars-türk əsilli qruplarına məxsus idi. II mərhələ isə XVIII əsrə təsadüf edir və Suriya ilə əlaqədardır. Bu mərhələ Qahirədəki "əzhari" adlanan qrupun fəaliyyətini əhatə edir və tədricən bütün ölkəyə, xüsusən də Nil vadisinə yayılır. Bu yayılma XIX əsrdə də davam edirdi. Bu dövrdə Balkanlarda və Anadoluda zəifləyən təriqət ərəb dünyasında yenidən vüsət almağa başlayır. Azərbaycanda təşəkkül tapmış xəlvətiyyə cərəyanı, geniş əraziyə malik bir müsəlman imperatorluğu, Osmanlı dövlətinin nəhəng ərazisinə daxil olan Misirdə də böyük bir təriqətə çevrildi.

Məlumdur ki, müqəddəs yerləri ziyarətə gedən müsəlmanlardan ibarət karvanlar əsasən Qahirə və Dəməşqdə toplaşırdılar. Bu səbəbdən də bu şəhərlər yalnız tarixi və mədəni əhəmiyyətə malik olmayıb eyni zamanda sivilizasiyaların, dini inancın forma və yollarının dialoqunu əlaqələndirmək baxımından mühüm əhəmiyyət kəsb edirdilər. Osmanlı imperiyası tərəfindən fəth edildikdən sonra Misir Türkiyədən idxal olunmuş sufi ideyaları ilə nəzərə çarpacaq dərəcədə zənginləşdi. O dövrdə Misirdə yalnız xəlvətiyyənin çoxsaylı qolları mövcud idi. Övliya Çələbinin yazdığına görə bunlar aşağıdakılardan ibarət olmuşlar:

1. Mübahiddiyyə
2. Üveysiyyə
3. Şəmsiyyə
4. Uşakkiyyə
5. Sinaniyyə

6. Hifniyyə
7. Dəmirdaşiyə
8. Gülşəniyyə

İstanbuldan göndərilmiş mühafizəçilər Misirin hakimi Paşanın sarayının həyətində çoxsaylı sufilərlə, təhsil alan tələbələrlə və Qahirədə tədqiqatlarla məşğul olan alimlərlə üzləşmişdilər. Yuxarıda qeyd etdiyimiz kimi, Qahirə Anadoludan və Diyarbəkirdən gəlmiş türk tələbələrin təhsil mərkəzinə çevirilmişdi. [158, 59-60]

Övliyya Çələbi 1611-ci ildə İstanbulda anadan olmuş, Osmanlı imperiyası da daxil olmaqla bəzi qonşu regionlara da səyahət etmiş və 1685-ci ildə Misirdə vəfat etmişdir. O, Osmanlı imperiyasına və qonşu vilayətlərə uzunmüddətli və sanballı səfərlər etmiş və bu səyahətləri haqqında özünün "Səyahətnamə" kitabında ətraflı yazmışdır. Odur ki, "Səyahətnamə" İslam reqionu ədəbiyyatının ən uzun və ən ətraflı səyahət kitabı hesab olunur. Kitab günümüzdə XVII əsrin ortaları Osmanlı dünyasının geniş panoramik təsviri və Osmanlı imperiyasının sosial və mədəni həyatını yenidən qurmaq üçün unikal mənbədir. Övliya Çələbi həmçinin kitabında Osmanlı imperiyasının bir çox sufi ordenlərini də təsvir etmişdir. Bu sırada o, mühüm sufi hərakatı, Xəlvətiyyəni də qeyd edir. O, səyahətlər zamanı ziyarət etdiyi zaviyələri təsvir edir, nəinki görüşdüyü şəxsiyyətlər (Xəlvəti dərvişlər və şeyxlər), həm də tikililər (təkyə və zaviyələr) və Xəlvətiyyənin tarixi haqqında yazır. O, ordenin 24 görkəmli şəxsiyyətlərini və Osmanlı İmperiyasında yerləşən 43 Xəlvətiyyə təkyələrini təsvir edir.O həmçinin Seyid Yəhya Şirvanini hərəkatın banisi kimi qeyd edir.Övliya Çələbi 1685-ci ildə Misirdə vəfat etmişdir.

Taşköprüzadə (1651) yazır ki, XIV əsrdən etibarən məşhur şeyxlərdən dərs almaq üçün çoxsaylı türk tələbələr Qahirəyə gəlirdilər. Nümunə kimi imperiyanın birinci şeyxülislamı Molla Şams əd-Din Məhəmməd Fənarinin (1431), şair Əhmədinin (1413) və həkim Hacı Paşanın (1420) hələ Anadolu islahatlarından əvvəl Qahirəyə gəlmələrini göstərmək olar. [164, 7]

Bunlardan Xəlvətiyyə ardıcılları, zaviyyəsi Qahirənin əl-Abbasiyə məhəlləsində yerləşən şeyx Məhəmməd Temirtaş əl-Məhəmmədini (1524-cü ildə vəfat etmişdir), vəhdətü-vücud və kamil insan (*al-insan al-kamil*) təliminin inkişafında misilsiz rolu olmuş, Gülşəniyyə təriqətinin banisi İbrahim Gülşənini (1534-cü ildə vəfat etmişdir) və Şahin Məhəmməd əl-Xəlvətini (1548-cü ildə vəfat etmişdir) göstərmək mümkündür.

Anadoludan və Balkanlardan gəlmiş sufilər arasında həddən ziyadə böyük nüfuza malik olan Niyazi Misri (1694-cü ildə vəfat etmişdir) və Hacı Baba əl-Misri (1718-cü ildə vəfat etmişdir) Misirə XVII əsrdə gəlmişlər.

Osmanlı imperiyasında əhalinin savad səviyyəsi və bu məsələdə sufiliyin oynadığı rola nəzər salmaq, bu cərəyanın yayılmasına gətirib çıxaran sosial-iqtisadi amilləri daha yaxşı başa düşməyə imkan verir. Bu dövrdə müxtəlif bilik sahələrinin öyrənilməsi mərkəzlərinə çevirilmiş qurani məktəblərin (kutabs) və zaviyyələrin sayı xeyli artmışdı. Misal üçün, Misirdə əhalinin kişi cinsinin 20%-i yazıb-oxumağı bacarırdı. Bu isə sufizmlə məşğul olmaq istəyənlər üçün əlverişli zəmin yaradırdı. [156, 120]

Qurandan başlayaraq çoxsaylı əlyazmaların nəşrinə başlamış Misir bu işdən xeyli mənfəət əldə edə bilmişdi.Qeyd edilməlidir ki, Misirlilər osmanlılardan Quranın Həfs qaydasında oxunmasını əxz etmişdilər. Buna qədər isə məmlüklər dövründəki Misirdə Quranın oxunmasındadigər qaydalardan istifadə olunurdu.

Misirlilər həmçinin xəttatlıq qaydalarında da osmanlı modelindən istifadə edirdilər, çünki xəttatlar əsasən sufi türklərdən ibarət idi.Sufilər ilk növbədə öz təlimlərini yaymaq məqsədilə yazırdılar, Osmanlı imperiyası dövrünün sufiləri ərəb, fars və türk dillərində yazmağa üstünlük verirdilər. [158, 59-60]

Anadolu kitabxanalarında və sufi təkkələrində külli miqdarda irandilli poetik ədəbiyyat olduğu halda Misirdə yalnız az saylı savadlı elita fars dili ilə tanış idi.Misirin ərəb əyalətlərində türk dili geniş yayılmışdı. Mədəni mənada Türkiyəyə

daha yaxın olan Suriyada ərəb dili ilə yanaşı türk dilinin də istifadə edilməsi təhsil görmüş şəxslərə idarəetmə aparatında və osmanlı ordusunda vəzifə tutmaq imkanı verirdi. Beləliklə, sufi təriqətləri, o cümlədən də Xəlvətiyyə Osmanlı İmperiyasının tərkibində olan Misir və Suriya kimi ölkələrdə özünə sosial dayaqlar əldə edə bilirdi. Bütün bu sadalanan faktorlar Misirin Xəlvətiyyə təriqətinin Məğrib ölkələrinə yayılması üçün bir qapı rolunu oynadığını göstərir. Sonrakı dövrlərdə Xəlvətiyyə Misirdən başlayaraq Şimali Afrikaya, eləcə də Afrikanın mərkəzi regionlarına, hətta Kameruna qədər yayıla bilmişdir. [227, 69-72]

Kamerunda XX əsrin əvvəllərində sultan İbrahim Njoyya tərəfindən qəbul edilmiş Ticaniyyə təlimi günümüzdə ən geniş yayılmış və tətbiq olunan təlimdir. Maraqlıdır ki, Kamerunun sufizm vasitəsilə (ticaniyyə vasitəsilə) islamlaşdırılması məhz Bamuna kral sülaləsinin 17-ci nümayəndəsi olan, 1887-1933 illərdə ölkəni idarə etmiş İbrahim Njoyya tərəfindən həyata keçirilmişdir.

Müasir dövrdə də sufi təriqətləri Məğrib ölkələrinin ictimai-siyasi və mədəni həyatında olduqca böyük rola malikdirlər. Bu spesifik rolun səbəblərini başa düşmək heç də çətin deyildir, çünki Şimali Afrika ölkələrinin məişətində, mədəni həyatında, eləcə də ictimai və siyasi həyatının müəyyən aspektlərində Orta əsrlərə məxsus elementlər hələ də müşahidə edilməkdədir. Həmçinin İslam dininin güclü təsiri bu dinin prinsipləri əsasında formalaşmış Xəlvətiyyənin də təsir imkanlarının əvvəlki kimi qalmasını təmin edir. Bu baxımdan cəmiyyətin strukturu, onun inkişaf tempi, təhsil səviyyəsi, həmçinin qədimdən gələn ənənələr və dini inanclaradərin bağlılıq sufi təriqətlərinin hələ də öz təsir gücünü qoruyub saxlamasını təmin edən əsas amillər sırasında göstərilə bilər.

Belə ki, Əlcəzair və Misir kimi ölkələrdə sufi təriqətlərinin ictimai–siyasi həyata təsir imkanlarının böyüklüyü danılmaz faktdır. Lakin digər Afrika ölkələrində də bu təsir özünü göstərməkdədir. [218] Hətta Məğrib ölkələrinə aid edilməyən bir sıra dövlətlərdə də təsəvvüf ideyalarının geniş yayılması diqqəti cəlb edir. 350 milyon

nəfərdən çox tərəfdara malik Ticaniyyə təriqətini bir sıra Afrika ölkələrindəki nüfuzu olduqca böyükdür. Sudan, Tunis, Böyük Səhra, Seneqal, Kamerun kimi ölkələrdə geniş yayılan bu təriqətlər onların siyasi və ictimai həyatını formalaşdıran ən böyük təşkilatlardır. Bu baxımdan Kamerunun Ticaniyyə təriqəti vasitəsilə islamlaşdırılması faktı kifayət qədər maraqlıdır. Müasir dövrdə Kamerun əhalisinin 95 faizinin Ticaniyyə təriqətinə mənsub olması və Ticaniyyənin özünün də Xəlvətiyyənin tərkib hissəsi, əsas qollarından biri olması ilk növbədə azərbaycanlı alim və tədqiqatçılar üçün böyük maraq doğurur. Xəlvətiyyənin geniş yayıldığı Məğrib ölkələrindən olan Əlcəzairdə 300-dən artıq zaviyə mövcuddur. Hazırki dövrdə də Ticaniyyə təriqəti vasitəsilə Afrikanın islamlaşması davam edir və bu son nəticədə Xəlvətiyyə təriqətinin, öz inkişafına davam etməsinin göstəricisi faktı kimi qəbul edilə bilər.

Müasir dövrdə Məğrib ölkələrində sufi təriqətlərinin təşkilatlanması prosesi davam etməkdədir. Sufizmin ən geniş yayıldığı Misir buna bariz nümunədir. Qeyri-rəsmi məlumata görə, bu ölkədə 120 qardaşlıqda toplaşmış sufilərin sayı 6 milyon nəfərdən çoxdur. Başqa sözlə, ölkənin kişi əhalisinin əhəmiyyətli bir hissəsi bu və ya digər şəkildə sufiliklə əlaqədədir. Qadınların isə qardaşlığa daxil olmağına icazə verilmir. Əgər bu şəxslərin öz ailələrinə, iş yerlərinə, orduya təsirini nəzərə alsaq, əminliklə deyə bilərik ki, sufilik Misirdə heç də kiçik qüvvə deyil. [215]

Sufi qardaşlıqlarının cəmiyyətə böyük təsirini hiss etmək üçün paytaxt Qahirədə və əyalətlərdə keçirilən müsəlman bayramlarına, müqəddəslərin anım mərasimlərinə, böyük yığıncaqlara diqqət yetirmək kifayətdir. Müqəddəslərə pərəstiş, böyük övliyaların qəbirlərinin ziyarət edilməsi və mövlud mərasimləri misirlilərin dini inamının ən spesifik əlamətidir. Misirdə hər il baş tutan mövlud mərasimlərinin dəqiq sayı bəlli olmasa da, bu tədbirlərin çox olduğu hamıya məlumdur. Vəqf nazirliyinin məlumatına görə ölkədə hər il müqəddəslərin, peyğəmbər ailəsinin nümayəndələrinin və məşhur sufilərin 40-dan çox mövlud mərasimi keçirilir. Bəzi

mənbələrdə il ərzində 120-dən çox mövlud mərasiminin olduğu göstərilir ki, bu baxımdan hər aya ondan çox mövlud mərasimi düşür.

Məğrib ölkələrində Xəlvətiyyə təriqətinin yayılmasından danışılarkən, Əlcəzairi və bu ölkədə mövcud olan təsəvvüf ənənələrini də qeyd etmək zəruridir.

Əlcəzairdə təsəvvüfün tarixi İslamın yayıldığı ilk dövrlərə gedib çıxır. O zaman peyğəmbərin (s) xələfləri Əməvilərin və Abbasilərin təqiblərindən yaxa qurtarmaq üçün əsasən 680-ci il Kərbəla qətliamından və 762-ci il Fəx dramından sonra Məğribi sığınacaq kimi seçdilər. Bu vaxtdan Əlcəzair "Qəbul torpağı və inam yeri" kimi bir ad qazandı, bu ad müqəddəs Əhli-Beyt ailəsi tərəfindən bu ərazilərə verilmişdi.

Tlemsen şəhərindən bir az aralı Ayn-əl-Hut ərazisində gizlənən Mədinə müqəddəsi İmam Malikə xeyir-dua verən Məhəmməd əl-Nəfs al-Zəkiyyə bin Abd-Allah bin əl-Kamil Tlemsendə mərkəzi Məğribin Aqadirdəki ən qədim məscidinin mənəvi əsaslarnı yaratdı. Burdan o müqəddəs peyğəmbərin səmavi öyüdlərini özünün 795-ci ildəki ölümünə qədər ötürürdü. [202, 4]

Məlumdur ki, Əlcəzair ərazisində Fatimilərin çoxşaxəli qolları inkişaf etmişdir. Bərbərlər "ənsarlar"ın və müqəddəs ailənin, yəni Peyğəmbərin (s) əhli-beytinin tərəfdarları idilər. Malikilərin Əlcəzairdəki rəhbəri Sidi Əli Haxlef X əsrin əvvəllərində deyirdi: "Mən eşitmişdim ki, Allahın elçisi necə deyib: Mənim Mədinədə tərəfdarlarım var və mənim oğlumun da Qərbdə tərəfdarları olacaq. Ey Fatimə, Həsən və Hüseyn öldürüləcəklər və onların xələfləri Məğrib bərbərləri arasında çoxlu tərəfdar tapacaqlar. Vay olsun onları öldürənlərin halına və eşq olsun onları sevəcək olanlara! Ey Fatimə, Allah bərbərlərin ürəyinə mənim övladlarıma qarşı məhəbbət və mərhəmət salmışdır. Bərbər kişiləri arasında elələri tapılacaq ki, onlar Qiyamət gününə qədər tam əminliklə əsl dinə riayət edəcəklər". [202, 6]

Əlcəzair mənəviyyatında dolaşan bu səhnə Xeyirin Şər üzərində elə bir qələbəsinə səsləyir ki, İtirilmiş Cənnət elə burada və bu dəqiqə bərpa oluna bilsin. Fiziki təmizliyin rəmzləri və Peyğəmbərin (s) müqəddəs ailəsinə xas olan mənəvi

keyfiyyətlər elə onun ezoterik sahədə reputasiyası kimi bu böyük şəxsiyyəti sufilərin gözündə təqlid edilməli olan modelə və ilham mənbəyinə çevirdilər. Həmçinin sufi yolunun müəllimləri Fatimə nəslindən olan müqəddəs həvariləri də öz doktrinalarına aid edir və onları müqəddəs yolun təsisçiləri kimi nəzərdən keçirirlər. [202, 8]

Bu mənada öz başlanğıcını baş qütbdən götürən və qanun və şüurun sintezinin həyata keçirildiyi siciliyalı ardıcılların həlledici və gecikmiş mənəvi töhfəsini də qeyd etmək lazımdır: Əbu əl-Həsən Əli ər-Riza ibn Musa əl-Kazim ibn Cafər əs-Sadiq ibn Muhammməd əl-Baqir ibn Əli Zeyn əl-Abidin ibn əl-Huseyn ibn Fatimə- Peyğəmbərin (s) qızının həm Əlcəzairdə və həm də dünyanın başqa hissələrində tanınan digər bütün törəmə xətlərin birləşdiyi qızıl kanal hesab olunan ana xətti üzrə olanlar imam Musa əl-Kazımdən (ə) törəmiş əmisi uşaqlarının müşayiəti ilə Siciliya adasını Normanların fəth etməsi nəticəsində tərk etməyə məcbur olmuşdular.

Onlar əvvəlcə Əndəlusda on birinci əsrin sonlarına qədər gizləndilər, sonra isə mərkəzi Məğribin metropoliyasında məhz nasirilərin şəhəri Becayada yerləşdilər. Bu sufiliyin struktur cəhətdən tamalanması idi. Bu andan etibrən sufilik öz fikri, öz terminologiyası və öz metdologiyası olan müstəqil bir cərəyana çevrilir.

Bu regional təsirlərlə, yəni şərifi məzhəbli köhnə əlcəzair məzhəbləri ilə yanaşı Əlcəzairdə ən çox əziz tutulan əslən Xəzər dənizinin cənubundakı Gilandan olan müqəddəs sidi şərif Əbd əl-Qadir Gilanini (1077-1166) qeyd etmək lazımdır. Bağdaddan öz atasının dərk metodlarını regionda yaymaq üçün gələn oğullarından birinin vaxtında Auresdə Menayya zaviyəsi tikilmişdi. Qadiriyyə Əlcəzairin ən qədim qardaşlıqlarından biri sayılır və özünün təsisçisi Əbd əl-Qadirin adını daşıyır. [243]

Qeyd etmək lazımdır ki, Əlcəzair hakimləri də sufilərə həmişə böyük ehtiram və hörmətlə yanaşmışdılar. Tarixdə sufilərə qarşı özlərinin böyük hörməti və fədakarlığı ilə seçilən çoxsaylı əlcəzairli hökmdarların, şahzadələrin və dövlət başçılarının adlarını çəkmək olar. Bunların içərisində sufiliyə riayət edənlər də olmuşdur. Onlardan bəziləri hətta Məğribdə və Əndəlusda əl-Mohad imperiyasının

təsisçisi, möminlərin əmiri Əbd əl-Mömin bin Əli əl-Nadrumi, Zenet sultanı Yağmurasen bin Ziyan, Hammadi şahzadəsi Əbu Yusif Yaqub əl-Sənhaci və əmir Əbdülqadir kimi müqəddəslik dərəcəsinə çata bilərdilər.

Əsrlər ərzində Əlcəzair sufliyi möhkəmləndi və onun şəbəkəsi Sudanı Aralıq dənizi ilə bağlayan Saharadan Çad gölünə qədər gedən yollarla, Afrikadan keçərək Hindistana qədər, Avropa dənizlərini yarıb keçən nəhəng Əlcəzair donanması vasitəsilə yayılaraq ticarətin inkişafı sayəsində genişləndi. Ərəblərin idarə etdiyi rayonlarda ribat adı ilə tanınan sərhəd postları dini mərkəzlərə çevrildilər, lakin onları fars xanəgahları ilə qarışdırmaq düzgün olmazdı, belə ki, onlarda hələ formalaşmış "müəlim-şagird" anlayışı meydana gəlməmişdi. [81] Lakin sufi təşkilatının ikinci mərhələsində bu xanəgahlar məktəb funksiyasını da yerinə yetirməyə başladılar. Xanəgah termini İranda, Suriyada və Misirdə (lakin Əlcəzairdə deyil) qeyri-ərəb mənşəli siyasi hökmdarlar - Əyyubilərin və Səlcuqilərin[125] və onların məmurları tərəfindən əsası qoyulan və maliyyyələşirilən istənilən sufi icmasının göstərilməsi üçün qəbul olunmuşdu. Hər iki icma tipi sufilərin mənəvi həyatı üçün nəzərdə tutulmuş, məxsusi bu məqsəd üçün düzəldilmişdi, lakin struktur baxımından onlar bir-birindən xeyli dərəcədə fərqlənirdilər. Ribatın başında müəllim dururdu, halbuki xanəgahda müəyyənləşdirici qərar bütün konqreqasiyanın qərarı idi və onun rəsmi rəhbəri mənəvi rəhbərdən daha çox, inzibatçı idi.

Ölkədə baş vermiş bəzi tarixi hadisələr (məsələn, ölkənin fransızlar tərəfindən işğalı) nəticəsində məbədlər (zaviyələr) fatehlərin və onların sisteminin ədalətsizliyinin əleyhinə üsyana qalxdılar. Onların içərisində Maskaradakı Qədiriyyə ordeninin rəhbəri müqəddəs şərif Əbd-əl-Qadir bin sidi Muhyiddin, Qabiliyyədəki Rahmaniyyə ordeninin rəhbəri sidi Muhamməd bin Aissanın qızı müqəddəs bakirə Lalla Fatimə Nsumeri, Sor əl-Ğozlan və Curcura regionunda Rahmani qardaşlarının üsyanında iştirak etmiş Bu Bağla Mula Saab adı ilə tanınan müqəddəs Muhamməd bin Abdallahın, rəhbərlik etdiyi Teybiyyə məbədinin başında bütün Dəhra bölgəsində

üsyan qaldırmış Bu Maza adı ilə tanınan Muahmməd bin Abdı, şeyxi, Sanusiyyə ordeninin başçısı şeyx Bu Amamanı göstərmək olar. [202]

Yuxarıda sadalanan faktlardan da göründüyü kimi, Əlcəzair sufilik məktəbi müqəddəs və mistik qütblər miriadası yaratmışdır, onların hamısı haqqında bu işdə məlumat vermək mümkün deyil. Lakin ən çox hörmət edilən və tanınların adını xatırlamağa dəyər. Bu müqəddəslik möhürünün başında Ticaniyyə ordeninin banisi, məşhur qnostik şərif sidi Əhməd ət-Ticani (1737/1781), Rəhmaniyyə ordenin banisi sidi şərif Məhəmməd bin Əbd ər-Rəhman əl-Quaştuli (1715/1793) və Sanusiyyə qardaşlığının banisi hassani şərifi sidi Muhamməd bin Əli əl-Xəttabi əl-Müstəğənmi durur. 1904-cü ildəki vəfatına qədər Rəhmaniyyə ordeninin ən böyük zaviyələrindən birinə rəhbərlik etmiş və məqbərəsi Bu Saada vadisində yerləşən şərifə Lalla Zeynəb bint sidi Muhamməd bin Belkacem əl-Hamiliyyə kimi Əlcəzairin müqəddəs qadınlarının Xəlvətiyyə təriqətinə verdyi töhfəni xatırlamaq lazımdır. Çoxsaylı qadın sufilər arasında ən məhşuru Rəbiyyə əl Ədəviyyə idi. Onun poetik deyimlərindən biri belə səslənir:

*Mən cəhənnəm qorxusuyla eyləsəm itaət Sənə*
*Qoy cəhənnəm atəşi olsun haman qismət mənə*
*Gərci cənnət arzusuyla üz tutarsam dərgaha*
*Et məni dərhal kənar, cənnəti neylərəm daha(tərcümə Ə.Ə. məxsusdur)*

Həmin dövrdə qadın cəmiyyətlərinin varlığı barədə yazan Əl İrbili onları ribat, kişi cəmiyyətlərini isə hənəkə adlandırırdı. Təkcə Hələb şəhərində 1150-1250-ci illər arasında təsis olunmuş yeddi qadın cəmiyyəti mövcud idi. Bağdadda olan bir neçə ribatın ən məhşuru isə Fatimə Raziyyəyə (521/1127 vəfat etmişdir) məxsus idi. Qahirədə 684/1285-ci ildə əl Malik əz Zahirə Baybarsın qızı tərəfindən Zeynəb bint Abül Bərəkət adlı qadın şeyx (şeyxə) və onun ardıcılları üçün inşa edilmiş ribat-əl-Bağdadiyyə mövcud idi.Qəribədir ki, sufi təriqətlərində qadınların rolu hələ də çox

cüzi olmasına baxmayaraq, təriqətin müqəddəs qadınları mövcud olmuşdur (Ayişə əl Mənubiyə, Əl Makra, Lalla Fatma və s.).

Antropoloq Zaim Xenşelaui və digərləri bunu insan cəmiyyətinin qədim dövrlərdən indiyədək patriarxal xarakterli olması ilə izah edirlər. Qadınların sufi təriqətlərində iştirakına dair çoxlu sayda misal olsa da, onların bu qardaşlıqlara verdiyi töhfə barədə geniş danışmaq mümkün deyil.

Tunisli tədqiqatçı Nelli Amri yazırdı ki, "qadınların sufizmə töhfəsi kəmiyyət deyil, keyfiyyətlə bağlıdır". Qadın sufiliyi bu gün istər Qərbdə, istərsə də müsəlman dünyasında ətraflı öyrənilməyən mövzulardan biri olaraq qalır. Kişilərin bu cəmiyyətdə say çoxluğu qadınların iştirakını istisna etmir. [175, 4]

"Müasir dövrdə sufi qardaşlığında qadınlar varmı?" sualına Katrin Tuayibinin cavabı müsbət olmuşdur. Şeyx, Qərbdəki qardaşlıqlarda qadın üzvlərin daha çox olduğunu, lakin bu təriqətdə qadınların ictimaiyyət qarşısına çıxmadığını bildirmişdir. Hazırda vəziyyət dəyişmişdir. Burhaniyyə təriqətinin bütün ölkələrdə çoxlu sayda qadın üzvü vardır. Məsələn, Almaniyada təriqət üzvlərinin təxminən yarısı qadındır.[236]

Burada yeri gəlmişkən, müasir Əlcəzair dövlətinin yaradıcısı Hassani şərifi əmir Əbdul-Qadir bin Muhyiddini də (1807-1883) xatırlamalıyıq. Əmir Əbdul-Qadirinşəxsində qadiriyyə və əkbəriyyə təlimləri birləşmişdir. O, İbn Ərəbinin meydana çıxardığı əkbəriyyə məktəbinin ən görkəmli şərhçilərindən biri idi. Onun İbn Ərəbinin ən böyük kitabı "Əl-futuhat əl-Məkkiyyə" kitabının ezoterik nəticələri haqqında şərhləri dünyanın ən nüfuzlu univerisitet proqramlarına daxil edilmişdir.

Ümumiyyətlə Əlcəzairdə və Şimali Afrika ölkələrində fəaliyyət göstərən sufi qardaşlıqları barədə qısa məlumat vermək məqsədəuyğun olardı. Rəsmi qeydiyyata alınmış 73 qardaşlığın yarısı XIX, 15-i isə XX əsrdə yaranmışdır və onlar aşağıdakı kimi bölünür:

19 qardaşlıq Xəlvətiyyəyə, 18 qardaşlıq Əhmədiyyəyə, 18 qardaşlıq isə Şimali Afrıkanın ən böyük qardaşlıgı olan Şaziliyyəyə aiddir.

Əsası, əslən İspaniyalı olan Mərakeşli mistik Əbül Həsən əş-Şirazi (1196/97-1258-ci illər) tərəfindən qoyulmuş Şaziliyyə qardaşlığının təlimi orta sufizm prinsiplərinə əsaslanırdı. [233]

Bu qardaşlıqlardan altısı əsasını İbrahim əl Disuqinin (1246-1288) qoyduğu Bürhaniyyəyə aiddir.(Şeyxin Disuq şəhərindəki məzarı bu gün də ziyarət yerinə çevrilmişdir).

Daha iki qardaşlıq, yaradıcısı Əbdülqadir Geylani (vəfatı 1166) olan Qədiriyyəyə (Sufi ordenlərin ən qədimi və ən geniş yayılmış qardaşlığıdır),ikisi Rifaiyyəyə, (əsasını Əbdülqadir Geylaninin gənc davamçılarından olan Əhməd əl-Rifai (vəfatı 1176) qoymuşdur),üçü Nəqşibəndiyyəyə və daha biri Mirqaniyyə Xatəmiyyə qardaşlığıdır. Qeydiyyatdan kənar və qanuni qeydə alınmış qardaşlıqların ümumi sayı isə 50-dən çoxdur. Hazırda Misirdə,ölkənin bütün ərazisini əhatə edən,təxminən 120-dən çox sufi qardaşlığı fəaliyyət göstərir (Əlcəzairdə onların sayı təxminən 400-dür). [139]

Əlcəzairdə və Misirdə fəaliyyət göstərən və Xəlvətiyyə təriqətinə mənsub olan müasir qardaşlıqlar aşağıdakılardan ibarətdir:

**Xəlvətiyyə ordeni**

1.**Azaziyyə**. Qardaşlığın şeyxi seyid Əbdürrəhim Məhəmməd İbrahim əl-Azazidir. Şərqiyyə əyalətində təməli qoyulan bu qardaşlıq özünü peyğəmbərin (s) qızı Fatimənin nəslindən gələn Sidi Azaz əl-Balaihinin davamçısı hesab edir. Qardaşlıq 20-ci əsrin əvvəlində əldə etdiyi rəsmi statusu uzun müddətə itirdi ki, bu da müstəsna hal idi. Rifaiyyəyə birləşən qardaşlıq 1930-cu ildən Xəlvətiyyə adlanır.

2. **Bəhvətiyyə Xəlvətiyyə.** Qardaşlığın şeyxi 1979-cu ildən etibarən seyid Umar Məhəmməd Əbdül Mital əl Bəhvatidir.

3. **DayfiyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Əhməd Məhəmməd Amin əl-Şavaribidir. Əsasını Məhəmməd İsmayıl Dayf (1854-1929) qoymuşdur. Dayf Şeyx əl-Bəkrinin onu rəsmi statusu olmadan qardaşlıq şeyxi kimi tanınmasına nail oldu. İsmayıl Dayf, oğlu Məhəmməd və onun nəslinin davamçıları Qarafada imam Şafiinin məqbərəsi yanında dəfn olunublar.

4. **Günaymiyyə Xəlvətiyyə**. Qardaşlığın şeyxi eyni zamanda sufi təriqətlərinin ali şeyxi olan seyid Əbdülvata əl-Taftazanidir. O, Qahirə Universitetinin fəlsəfə kafedrasının müdiridir. Qardaşlıq 1911-ci ildə rəsmi olaraq tanınmazdan qabaq Rifaiyyə ilə birləşib, sonradan isə ayrılıb. Qardaşlıq Yuxarı Misirdə daha məşhurdur. Qardaşlığı quran şeyxin məzarı təşkilatın iqamətgahının yerləşdiyi Kəfr əl-Künaymidədir.

5. **Qudiyyə Xəlvətiyyə**. Əsası 1904-cü ildə qoyulmuş qardaşlığın şeyxi 1981-ci ilin fevralından etibarən seyid Əbdül Alim Mustafa əl-Əsgəridir.

6. **GünaydiniyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi 1979-cu ildən etibarən şeyx Hüseyn əl-Dusiqi əl-Günaydidir. Bu üləma dəfələrlə Xalq məclisinə seçilib. Qardaşlığın əsasını qoymuş şeyx Məhəmməd əl-Günaydinin məzarı Bəni Svitdədir (hazırki şeyx həm də onun türbədarıdır).

7. **Həraviyyə Hənəfiyyə Xəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Amin Əhməd Amin əl-Həravidir. Qardaşlığın əsasını qoymuş Sidi İbrahim əl Həravinin məzarı Zaqaziqdədir.

8. **İlvaniyyə Xəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Malik Məhəmməd İlvandır. Təşkilatı yaradan şeyxin məqbərəsi Bilbeysdədir.

9. **Haşimiyyə Xəlvətiyyə**. Qardaşlığın şeyxi əl-Əzhər Universitetinin rektoru şeyx Mahmud Əhməd Haşimdir. Təşkilat 1980-ci ildə rəsmi şəkildə tanınıb.

10. **XudayriyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi özünün səhabələrin nəslindən olduğunu iddia edən seyid Məhəmməd Nur əl-Xudayridir. Qardaşlığın tarixi 15-ci əsrədək gedib çıxsa da, sonradan üzvlərinin çoxu təşkilatı tərk edib. Yalnız ötən əsrin

40-cı illərində qardaşlıq yenidən ortaya çıxmışdır. Hazırkı şeyxin öz əcdadlarının türbələrinə qarşı laqeydliyi qardaşlığın nüfuzunun düşməsinə səbəb oldu.

11. **Mərvaniyyə Xəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Məhəmməd Ömər Yusif Mərvandır.

12. **MuqaziyəXəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Məhəmməd Əli əl-Muqazi olub. Hazırda bu yeri heç kim tutmur. Əslən Nilin deltasından olan Məhəmməd Əmir əl-Muzaqinin yaratdığı bu qardaşlıq əl-Qum əl-Tavilin məqbərəsi ətrafında inkişaf etdi. 20-ci əsrin əvvəllərində başqa qardaşlıqlar böhran keçirdiyi zaman o Həmidiyyə ilə yanaşı ən dinamik təriqətlərdən idi.

13. **MisallimiyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi 1981-ci ilin oktyabrından etibarən seyid Kamal Məhəmməd əl-Seyid Həsən əl-Misallimidir. 13-cü əsrdə Bağdadda yaradılmış bu qardaşlıq şeyx əl-Bəkri tərəfindən rəsmi olaraq tanındı. Salim Əbu Müsalim əl-Həmdani əl-Saqirin məzarı Zaqaziqdədir. Bu Nilin deltasındakı ən hörmətli məqbərələrdəndir. Qizada isə nüfuzlu bir zaviyə mövcuddur.

14. **MüslihiyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Əhməd Fəthi Əbdülsalam əl-Müslihidir.

15. **QəsabiyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi Qərbiyyənin keçmiş valisi seyid Əhməd Əbdül Hadi əl-Qəsabidir. Qardaşlıq 1980-ci ildə tanınıb.

16. **Qayətiyyə**. Qardaşlığın şeyxi 1960-cı ildə Xalq Məclisinin üzvü olmuş seyid Kamal Əbdül Qəvad əl-Qayətidir. Qardaşlığın əsasını Lətif əl-Qayəti qoymuşdur (vəfatı 1842). Qayətiyyə “Urabi üsyan”ında ən fəal iştirak edən qardaşlıqlardandır. Buna görə də ingilislər şeyxi 1882-1888-ci illərdə Beyruta sürgün etmişdi. Qardaşllıq 1960-cı ildə tanınıb.

17. **SammaniyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Əbdüləziz Məhəmməd İbrahim əl-Camaldır. Qardaşlığın əsasını Suriya şeyxi əl-Bəkrinin tələbələrindən olan Məhəmməd Əbdülkərim əl-Saman (1715-1775) qoymuşdur. Bu gün əsasən Sudanda

fəaliyyət göstərir. Qardaşlıq mehdiçiləri müdafiə edir. Şeyx Həməd əl-Sammanın məzarı Qarafada, İmam Şafiinin məqbərəsi yanındadır. Qardaşlıq 1906-cı ildə tanınıb.

18. **Səviyyə Xəlvətiyyə**. Qardaşlığın şeyxi 1985-ci ilin sentyabrından etibarən Əhməd əl-Seyid Əhməd Əli əl-Savidir. Əl-Əzhər Universitetinin İlahiyyat fakültəsinin məzunu olan əl-Savi həm də bu məktəbin nüfuzlu üləmalarından biri kimi Misirin Vəqf nazirliyində işləyir. Qardaşlığın əsasını Məkkə əsilli seyid Əhməd əl-Seyid Əhməd əl-Savi (1764-1725) qoymuşdur. Bu qardaşlıq Xəlvətiyyənin ən vacib qollarındandır. Rəsmi olaraq 1979-cu ilin yanvarında tanınan təşkilat Misir, Yəmən və Hicazda yayıllıb.

19. **ŞəbraviyyəXəlvətiyyə**. Qardaşlığın şeyxi seyid Mustafa Əbdülxaliq əl-Şəbravidir. Nüfuzlu üləmalardan olmuş Şəbravi vaxtilə Vəqf nazirliyində hüquqşünas işləyib, 1952-ci ildən etibarən Sufi Şurasının üzvüdür. Bu qardaşlığın şeyxləri özlərinin xəlifə Ömərin nəslindən olduqlarına inanırlar. Qardaşlığın məscidi və məqbərəsi Dərrasədə yerləşir.

Bu sadalanan Xəlvətiyyə qardaşlıqlarından başqa, qeyri-rəsmi olaraq fəaliyyət göstərən bir neçə böyük qardaşlığın da mövcud olduğu məlumdur. Təkcə bu fakt Misir kimi böyük ölkədə Xəlvətiyyənin ictimai-siyasi və mədəni həyata, o cümlədən orduya, dövlət idarəetməsinə, biznesə, elmə nə qədər təsir etmək imkanlarının olduğunu göstərir.

## 3.2. Xəlvətiliyin Əlcəzairdə qolları

### 3.2.1. Rəhmaniyyə

Xəlvətiyyə təriqətinin Məğribdəki qollarının sayının çox olmasına baxmayaraq, iki qol daha geniş yayılması ilə fərqlənir. Bu qollardan birincisi Rəhmaniyyə qoludur. Xəlvətiyyə təriqətinin Əlcəzairə gətirilməsi XVIII əsrə təsadüf etmişdir. Bu qol adını öz yaradıcısı Məhəmməd bin Abdurrəhman əl-Qaştuli əl-Əzhəridən götürmüşdür.

Lakin Rəhmaniyyə qolunun tarixi daha qədimlərə gedib çıxır. Belə ki,onun əsas banilərindən biri iranlı Əbu Nəcib Səhravaridir. Lakin onun qaydalarının və təməlinin

sabitləşdirilməsi öz qardaşı oğlu, “Arif Əl Maarif” (biliklərin kvintessensiyaları) kitabının müəllifi Sidi Sihabəddin İbn Ömər İbn Məhəmməd Səhravardiyə (ölümü hicri 632) aiddir. Adların oxşarlığına görə onu tez-tez məşhur mistik və neoplatonist filosof Sihabədin Yahya İbn Həbəş Səhravardi ilə qarışdırırlar.

Ekzoterik elmlərə həsr olunmuş bir həyatdan sonra təriqətin tədrisini təbliğ etmək üçün yola düşən Səhravardi əmisi Əbu Nəcibin rəhbərliyi altında xəlvətiyyəyə daxil oldu və sona qədər orada qaldı. Sidi Abdu Lətif Əl Hələbidən (Suriyanın Hələb şəhəri) ilham alan məşhur şair və sufi səyyah Vird əs-Səhəri əsərinin müəllifi Sidi Mustafa Kamaləddin Əl Bikri (ölüm tarixi hicri 1162, miladi 1748) Xəlvəti təriqətinin Misirdə yayılmasının əsasını qoymuşdur. O, öz növbəsində nüfuzlu Əl Əzhər Universitetinin dekanı Sidi Bən Sələm Əl Həfnoini (ölümü h.1181-m.1767) bu cəmiyyətə qoşmuşdu.

O, Kabiliyə dağlarında doğulmuş gənci, Sidi Məhəmməd İbn Əbdürrəhman İbn Yusif Əl İdrisi Əl Həsəni Əzzuai Əl Əzhərini öz himayəsinə götürmüşdü. Bəzi mənbələrdə qeyd olunan məlumata əsasən, Sidi Məhəmməd doğulduğu Kaştulanın bərbər qəbiləsinin Ait Smail qolundandır. O, dərviş ailəsindən çıxmış və cox erkən yaşlardan dini elmlərə yönəlmişdir.

O, çoxsaylı dini və mənəvi təhsil mərkəzlərinin mövcudluğuna görə İşıqlı dağ adlanan Cəbəl Əl Nur zaviyəsində ilk dini təhsil alıb. Misirdən qayıdandan sonra öz dini məktəbini yaradan mübarək Şeyx Sidi Hüseyn İbn Ərəb İratənin yanında Qurani-Kərimi və dinin əsaslarını öyrəndi. Güman ki, Sidi Məhəmməd şeyxinin təsiri ilə öz növbəsində Əl-Əzhərə səfər etdi və orada sufilər üçün ayrılmış məğriblər guşəsinə yerləşdi.

O, orada Şeyx Əl Həfnauinin ölümündən sonra təriqətin başına keçən “Kiçik Malik” (məşhur rəyçi Xəlil) Şeyx Əhməd Əl-Dardiri ilə (1127-1207/1715-1786) dostlaşdı. [169, 208]

Sidi Məhəmməd, Əl-Dardiri vasitəsilə onu agah etmiş Şeyx Əl Həfnaui ilə görüşdü, təriqətdə onun irəliləməsinə istiqamət verdi və Kalvada onu qəbul etdi. Sonra Şeyx Əl Həfnaui onu Hindistana və Sudana uzun bir səyahətə göndərdi və o, digərləri arasında Darfur krallığı Sultanını da təriqətə cəlb etdi. Bu yerlərdə mənəvi səyahət 6 il davam etmişdir. Misirdən qayıdandan sonra şeyx ona ölkədən getməyə icazə verdi. 30 il fasilədən sonra o öz qrupu olan Ait Smailə qayıtdı və hicri tarixlə 1183-cü ilində birinci Məğrib Xəlvətiyyə dini məktəbinin əsasını qoydu. O, maliki qaydasında qrammatika və hüquq kitabının müəllifi Sidi Ərrəhmuni daxil, bir çox yerli müridləri təriqətə üzv etdi.

Əlcəzairə gəldikdən bir müddət sonra Hamma məhəlləsində bütün Əlcəzair ərazisinə nüfuz edəcək böyük zaviyəsini yaratdı. Bu dini məktəb yoxsul, yetim və xariciləri qəbul edən, həmçinin çoxsaylı elmləri tədris edən universitet idi. Bura xəlvətiyyə elminin sirrini açan imtiyazlı yer idi. Bütün ölkə daxilində və Konstantində yayılan təriqətin ardıcılları arasında şeyx Sidi İbn Əziz Əl Borci, Əl Mokrani üsyanının ruhani lideri Sidi Əməziən Əl Həddad, Ticani təriqətinin banisi Sidi Əhməd Ticani və başqaları da vardı.

O, ictimaiyyətə az məlum olan, çox hissəsinin əlyazma şəklində qaldığı bir çox əsər yazıb. [193, 507] Şeyx öz sonunun gəldiyini hiss edəndə, kəndinə geri döndü, orada vəfat etdi. Onun ölümündən sonra Ait Smail qəbrisanlığında onun qalıqlarını oğurlayıb böyük dini məktəbdə basdırmaq istəyən Əlcəzair rəhmaniləri və oğurluğu öyrənən rəhmani qəbilələri arasında münaqişə başladı. Qəbilə məzarı açılanda bu münaqişəyə son qoymaq qərara alındı. Məşhur əfsanədə deyilir ki, qəbir açılanda cəsədin ilk gündə olduğu kimi durduğu məlum oldu. Çoxlu sayda möcüzələrdən birinə şahid olduğuna görə Sidi Məhəmməddən bəri Bu Qabreyn (2 qəbrin müqəddəsi) adlandırıldı. [169, 205]

Rəhmaniyə təriqəti ölkə daxilində inkişaf etməyə davam edirdi. Burada və başqa yerlərdə bir çox zaviyə və təkiyyə yaranmışdı. Əlcəzairdə ardıcıllarının çox olması ilə bilinən Rəhmaniyə tez bir zamanda təriqət oldu.

Qeyd etmək lazımdır ki, Xəlvətiyyə təriqətinə mənsub qollar yadelli işğalçılara qarşı xalq kütlələrinin mübarizəsinə rəhbərliyi də bir çox hallarda öz üzərlərinə götürmüşdülər. 1830-cu ildə fransız əsgərlərinin gəlişi ilə bu ölkədə vəziyyət köklü sürətdə dəyişdirildi. 19-cu əsrin ikinci yarısı Əlcəzair tarixində faciəvi dövr oldu.Bu dövr yerli xalqın müstəmləkə işğalına qarşı güclü müqaviməti ilə səciyyələnir. Tezliklə Cihad bayrağının daşıyıcısı kimi Əmir Əbdülqadir ortaya çıxır. Əmir müqaviməti təşkil etmək və müasir dövlət yaratmaq üçün çalışır. O, ticarəti formalaşdırdı, yerli istehsalı yaratdı, səmərəli inzibati idarəetmənin əsasını qoydu. Bununla yanaşı, arxa cəbhənin hərbi bazasını, xüsusilə sədaqət andı içmək və əmrləri icra etmək üçün 1844-cü ilin bir günündə onu görməyə gələn dini məktəbin savadlı gənc və dini elmlərdə təcrübəli bir döyüşcüsü ilə qurdu. Bu şeyx Sidi Məhəmməd İbn Əbu Əl Qasım idi. O, Əmir ləqəbini qəbul etdi və xristian işğalçılara qarşı cihad vəzifələrini dərk edən müsəlmanları formalaşdırmaq üçün kəndinə qayıtmaq və zaviyələr yaratmaq əmri aldı. O, əslən Sidi Buzidin nəslindən, Cəbəl Rəşidin zəvvarlarından gələn, 11-ci əsrdə salınmış Əl Həməl şəhərciyindən idi.

Sidi Məhəmməd İbn Əbu Əl Qasim hicri tarixlə 1239-cu ildə anadan olub. O, ilkin təlimdən sonra biliyini dərinləşdirmək üçün Sidi Səid İbn Əbu Davudun dini məktəbinin yerləşdiyi Cəbəl-ən-Nura yollanır.

Orada təhsilini bitirir və öz növbəsində həmin yerdə tədrislə məşğul olur. Amma, Əl Hamelin Şorfasında nüfuz sahibi olan şeyxin istəyi üzərinə o, uşaqların təhslini təmin etmək üçün öz kəndinə qayıdır. Lakin onun bacarığı və ilahiyyat, mənəvi elmlərdəki biliyinə görə Uləd Cəlil dini məktəbinin qurucusu Sidi Əl Muxtar İbn Əbdürrəhman İbn Xəlifə onu yüksək səviyyəli Tolba (tələbələr) icmasının dini məktəbində təhsil verməyə çağırır. Şeyx Əl Muxtar əsas baş müəllim kimi dini

məktəbin idarəsini ona əmanət edir. Bu, Kalvada şeyx vəzifəsinə keçən Sidi Əl Muxtarın seçilən dini məktəbi idi. Tolba dini məktəbinin banisi Sidi Əli bən Əmar vasitəsi ilə Sidi Əl Muxtar cəmiyyətə daxil edildi. O özü Sidi Məhəmməd İbn Əbdürrəhmanın şagirdi Sidi Bən Əziz Əl Borcini, onun ölümündən sonra isə Şeyx Paşa Dərzi Əl Kodantini cəmiyyətə qoşdu.

Sidi Əl Muxtarın ölümündən sonra şeyx Əl Həmələ gəlir. Əmirin istəyinə müvafiq olaraq, o, böyük dini məktəb yaradır və müridləri Xalvaya gətirir. O, müqəddəs müharibə dəyərlərinin aşılanması aydın nəzərə çarpan, təlim almış ağıllı döyüşçülər vasitəsilə Əmirin cihadında fəal olaraq iştirak edib. Zaviyənin çox əhəmiyyətli işlərindən biri, Əmirin qoşunlarının müdafiə xəttini təşkil etməsi olmuşdur. Ora şeyxin maddi və mənəvi ehtiyaclarını təmin etdiyi minlərlə şagird qəbul edirlər və o məktəb dini elmlər, habelə maliki fiqh, tövhid, təsəvvüf, riyaziyyat, astronomiya, fəlsəfə və onların müxtəlif qollarını öyrədir. Böyük Əl Mokrani üsyanı Əmir Əbdülqadirin ordusuna sadiq olan şeyx Xəlvətinin vəzifəyə gəlməsinə səbəb olur.Sürgündən sonra, o, təvəzökarlıqla tədrisinə davam edir.

Əl Mokrani qiyamının ruhani lideri Şeyx Əli Həddad həbsdən əvvəl yazdığı vəsiyyətnaməsində oğlanlarına və öz davamçılarına “qırmızı kükürd” adlanan Şeyx Əl Həməllə birləşməyi tapşırır. [169, 205]

Əl Həddad həbsindən bir neçə ay sonra, 1920-ci ildə əsir olaraq vəfat etdi. Sürgündən qaçan Mokrani və Rəhmaniyənin bir çox şagirdləri şeyxin himayəsində olan Əl Həməldə yerləşdi, amma, öz torpaqlarından sürgün edilən və mülkiyyətlərindən məhrum edilənlər də az deyildi. Müstəmləkə üsuli-idarəsinə qarşı sərt mövqeyi ona baha başa gəldi, lakin əhali arasındakı nüfuzuna görə ona birbaşa hücumlar təşkil edilmədi. O, ev dustağı oldu və yalnız hicri 1315-ci ildə verilən xüsusi icazə ilə ölümünə qədər evdən çıxa bildi. Onun ölümündən sonra zaviyəyə rəhbərliyi 8 ildən çox müddətdə qızı Lalə Zeynəb həyata keçirdi.

İzabel Eberhart səyyahət qeydlərində bu müqəddəs qadınla qarşılaşmasını çox gözəl nüanslarla təsvir etmişdi. [161, 288]

Müstəmləkə rəhbərliyi təhlükəsizliyi təmin etmək bəhanəsi ilə yerli əhalinin zaviyələrə getməsini məhdudlaşdırırdı. Lakin nüfuzlu din adamları və zaviyənin rəhbəri Əlcəzairin qubernatoruna müraciət edərək zaviyələrin təkrarən açılmasına nail olur.

O dövrdən etibarən bu hadisə hər il Əl-Həməlin qəbrinin ziyarəti, zikr və mistik mahnıların oxunması mərasimi ilə qeyd edilir. Mərasimdə kişilərlə birgə bərbər qadınlar da iştirak edirlər.

Rəhmaniyyə qolunun müasir Əlcəzairin ictimai-siyasi və mədəni həyatında da mühüm rol oynadığı məlumdur.

### 3.2.2.Ticaniyyə

Qafqazda və Türkiyədə geniş yayılan Xəlvətiyyə təriqəti XV əsrdə Misirə və Yaxın Şərqə gəlib çatdı. XVIII əsrin sonunda Xəlvətiyyə davamçılarından biri şimal-qərbi Afrikada Ticaniyyə ordenini təsis edir. Əhməd Ticani 1737-ci ildə Əlcəzairin cənubunda dünyaya göz açmışdır. Onun ailəsi mənşə etibarı ilə yoxsul bərbər ailəsi olub, Tican qəbiləsinə aid edilirdilər.Müsəlmanlığın mənəvi yolu olan Ticaniyyənin əsası, 1781-1782-ci illərdə Əlcəzairdəki Ənə Əlmadidə Şeyx Əbu əl-Abbas Əhməd Ticani tərəfindən qoyulmuşdur. O, 1815-ci ildə vəfat etmiş və Mərakeşdəki Fəs şəhərində dəfn edilmişdir.Əhməd Ticani hələ erkən uşaqlıq çağlarında mənəvi yolların dərk edilməsində qeyri-adi qabiliyyət nümayiş etdirirdi. 15 yaşında olarkən o, artıq Quranı əzbər bilir, islam fəlsəfəsi və hüququndan xəbərdar idi. [162]

1798-ci ildəTicani Fəs şəhərində məskunlaşır.Məlumdur ki o, İbn Əbu Zeyd əl-Kəyrəvaninin sufizm və ənənəvi islamın əlaqəsinə həsr olunmuş “Risalə”sini və Xəlil ibn İshakın o dövrün müsəlman hüququnu özündə cəmləşdirmiş sanballı “Müktəşər” əsərini dərindən öyrənirdi. Əhməd həmçinin İbn Rəşid əl-Əqdarinin məhşur sufi şeyxlərindən bəhs edən fəlsəfi traktatı ilə də tanış idi. [142]

1773-cü ilin dekabrında o, həcc ziyarətində oldu. Burada, islam dünyasının ürəyi döyünən yerdə, gələcək şeyx məşhur hindli sufi Şeyx Əhməd İbn Abdullahla tanış olur. Məkkədəcə vəfat edən şeyx, ömrünün ölümdən əvvəlki son iki ayını Əhməd Ticani ilə təlim keçərək öz ənənəsinin ən gizli sirrlərini ona öyrədir. Fes şəhərinə dönməzdən əvvəl gələcək şeyx Əlcəzairin Tlemsen, Tunisin Sus şəhərlirində, Mədinədə və Qahirədə olur.

Səyahət zamanı onun görüşdüyü böyük Məğrib alimləri arasında Əbu Məhəmməd əl-Teyb, Məhəmməd əl-Vəncəli, Abdulla əl-Ərəbi, Əbül Abbas Əhməd əl-Təvah, Əbu Abdulla Məhəmməd b. Abdur-Rəhman Əl-Əzhəri və Mövla İdrislə ünsiyyətdə olmuşdur.

Məkkəyə Həcc ziyarətinə gedərkən Əhməd Ticani Misirdə Mahmud əl-Kürdinin rəhbərlik etdiyi Xəlvətiyyə ordeninə qoşulur. Mahmud əl-Kürdi Şeyx Əhməd əl-Ticaniyə ali müqəddəslikdən daha yüksək olan dini məqam alacağını xəbər verir. [176, 188]

Busemqunda din alimləri ilə görüşdükdən sonra da o, uzun müddət öz təlimini yaymağa davam edir və Qütbaniyə əl Uzma təriqətinin rəhbəri seçilir. Bu mərasimdə onu müşayiət edən Sidi Həcc əl-Xarəzmi bu əhvalatı belə nəql edir: “Allahın adını zikr etdikdən sonra peyğəmbərin şəninə mədhiyyələr söyləndi. Mən Seyid Ticaninin Ərəfat dağına çəkildiyinin şahidi oldum. Hadisə gecədən xeyli keçmiş, sübhə yaxın baş verdi. Seyid əlini mənə uzatdı və mən bir anın içində gördüm ki, Ərəfat dağındayam. Dağda bizdən başqa kimsə yox idi. İlahidən böyük bir çırağa bənzəyən yaşıl işıq onun üzərinə düşdü, qeybdən bir əl onun başına yaşıl papaq qoydu. O, həmin papağı bu gün də başında daşıyır ki, bu da özünəməxsus merac əlamətidir”. Bundan sonra onlar bir göz qırpımında əvvəlki yerlərinə qayıtdılar.

Şeyx İbn Ərabi əl-Hatiminin danışdığı əhvalat Fəs şəhərində baş vermişdi. O, daha sonra qeyd etdi: “Peyğəmbər möhürü yalnız əsilzadə ailəsindən çıxmış məğribli bir insanda təzahür edə bilər. O adam bizim aramızda hazırda yaşayır və mən onu

Fəsdə görmüşəm. Müəyyən etdim ki, Allah onun möhürünü öz qullarından gizlədib”.[244]

Şeyx İbn Ərabi “peyğəmbər möhürü” ilə bağlı bütün müstəsna məqamları öz kitabında göstərib və kitabda öz künyəsinin (Ərəblərdə “əb” (kişilərdə) və “ümm” (qadınlarda) ön şəkilçiləri ilə birlikdə işlənən adlar dəstəsi) Əbül Abbas olduğunu da xatırladıb. Bu künyəni bir çox ərəb şair və yazıçısı Əhməd adı ilə birgə işlədib. Peyğəmbər (s) kimi Ticani də sağlığında ikiüzlü, riyakar və məkrli insanların əməllərindən əziyyət çəkib. Məhz bu şəhərdə seyid Ticani iki yüksək məqama yetişib ki, bunlardan biri də xatimiyyədir (müqəddəslərin möhürü: bu bütün dərəcələrin ən yüksəyidir). İkinci məqam isə həmin ilin səfər ayının 18-də yetişdiyi xatimiyyədir. O, peyğəmbərlərlə Ələviyyə məzhəbi arasında vasitəçi hesab edilir.

Həyatının sonuncu günü Ticani öz ətrafındakılara dedi: “Mənə gecəni yanımda qala biləcək 5 nəfər gətirin”. Sonra fiikrini dəqiqləşdirmək üçün əlavə etdi ki, xidmətçi qadın istəmir, çünki kişi ilə qadının bir yerdə çox yaxın olmasına şərait yaradılmasının əleyhinədir. O həmçinin imam Qəzalinin poemasının gətirilməsini xahiş etdi. Qəzali kimi o da kitabı yastığının altına qoydu. Bundan sonra o, vəfat etdi.

Mənim öldüyümü görən dostlara

Ağlayaraq yasa girən dostlara

Fatihə surəsi deyən dostlara

Soruşun bu kədər ölən üçünmü?

Yoxsa ki, sizinlə qalan üçünmü?

Yəqin məni ölmüş hesab edirsiz

Allah and olsun ki, səhv edirsiz

Birovuz libasım olan bu bədən

Sanki paltar idi mənə əzəldən

Balıqqulağındakı mirvari tək

Zindanı eyləyə bilməyirdim tərk

Bir quş kimi mən bu qəfəsdən uçdum

Qəfəs qaldı, mən azadlığa qaçdım

Həmd olsun azadlıq verən Allaha

Yüksək dərgahda yer verən Allaha

Mən də sizlər kimi ölüydüm, fəqət

Yenidən dirildim, bu bir həqiqət

Mötəbər bir məclis üzvləriylə

Görürəm doğrunu Haqq gözləriylə

Qorunan dərgahda xəbər tutdum mən

Dünəndən, bu gündən və gələcəkdən.*(tərcümə Ə.Ə. məxsusdur)*

Bu şeirlə Əl Qəzali Məhəmməd Peygəmbərin (s) "İnsanlar yuxudadırlar, yalnız öləndən sonra ayılacaqlar" hədisini nəzmlə ifadə etmişdir. [245]

**Ticaniyyənin xarakteristikası və ayinlər.**

Yuxarıda qeyd edildiyi kimi, Ticaniyyə Məğrib mənşəlidir və Afrikanın bir sıra ölkələrində geniş yayılmışdır. Kamerun, (Kamerunda XX əsrin əvvəllərində sultan İbrahim Njoyya tərəfindən qəbul edilmiş Ticaniyyə təlimi günümüzdə ən geniş yayılmış və tətbiq olunan təlimdir. Maraqlıdır ki, Kamerunun sufizm vasitəsilə (ticaniyyə vasitəsilə) islamlaşdırılması məhz Bamuna kral sülaləsinin 17-ci nümayəndəsi olan, 1887-1933-cü illərdə ölkəni idarə etmiş İbrahim Njoyya trərfindən həyata keçirilmişdir. Kamerun əhalisinin 95%-i bu ordenin ardıcıllarıdır.) Seneqal, Böyük Səhra kimi yerlərdə də bu təriqətin mənsubları çoxluq təşkil edirlər. Ticaniyyənin xarakterini açmaq məqsədilə onun bəzi xüsiyyətlərinə nəzər salmaq zəruridir:

Ticaniyyə təriqətinin davamçıları üçün elmə sevgi, missinoerlik, aşkarlıq kultu, gənclik və qadın başlanğıcı, ekumenizm, tolerantlıq kimi xüsusiyyətlər səciyyəvidir. Müqəddəslərin həddən artıq şişirdilməsi bəyənilmir. Ticanilər tərəfindən adətən dünyəvi hakimiyyət sözsüz qəbul edilir ki, bu da Əlcəzairdə və digər Şimali Afrika ölkələrində hakimiyyət nümayəndələri ilə qarşıdurmalardan çəkinməyə kömək edir.

Ticaniyyə ən sonuncu yaranmış sufi cərəyanlarından hesab edilir. Bu cərəyanın mahiyyətini başa düşmək üçün bir mühüm məsələyə fikir vermək lazımdır: ticanilər mənsub olduqları cərəyanın özünəməxsus, xüsusi xarakterə malik olduğunu hesab edirlər. Bu inam isə müqayisə və oxşarlığa əsaslanır. Müsəlmanlar islamı sonuncu din və sonuncu ilahi mesaj hesab edirlər. Ticanilər də öz növbəsində, mənsub olduqları təriqəti bütün sufi qardaşlıqlarının ən sonuncusu, yekunu hesab edirlər. Üstəgəl, Məhəmməd (s) sonuncu peyğəmbər, yəni "xatəmül ənbiya" olduğu kimi, Ticani də "xatəmül övliya"dır. Nəticə etibarı ilə bu qardaşlıq sufilikdə həm konsepsiya, həm də praktika baxımından islahatlar aparmaq istəyir.

Bu inam onların həyatlarının, fəaliyyət və təlimlərinin müxtəlif cəhətlərində özünü aşkar surətdə büruzə verir. Mistika ilə bağlı ayinlər də qırılma nöqtəsinə gəlib çatmışdır. Artıq onlar digər sufilər kimi dünyəvi həyatın müvəqqəti qayğılarından uzaqlaşaraq səhraya, yaxud xəlvətə çəkilmir, gündəlik problemlərin öhdəsindən gəlmək üçün zikr və duaların gücündən istifadə edirdilər. Serin Bababakar Si (1885-1957) məşhur şeirlərinin birində qeyd edir ki, "Əhməd Ticanı öz ardıcıllarını xəlvətə çəkilmədən ta haqq yoluna gələnə qədər tərbiyələndirirdi. Bu qabiliyyət onda Allah vergisi idi". [140, 429]

Ticaniyyə təlimində islam qaydalarına ciddi əməl edilməsi əsas şərtlərdəndir. Şeyxin bu məsələdə israrlı olduğunu onun haqqında yazılmış əsərlər də təsdiq edir. [140, 429]

Ticaniyyə qardaşlığının məşhur nümayəndələrindən olan Amadu Hampate Ba (1901-1991) yazırdı ki, "Ticaniyyə dövrümüzün şərtlərinə uyğundur", "bu cərəyan

üləmaların təliminin 3 əsas tələbi ilə tam üst-üstə düşür.” Belə ki, bura iman, Allaha təslim olma və xeyirxahlıq daxildir. Sufilikdə zikrin əhəmiyyətinə gəlincə, ticanilər bu əməli öz təlimlərinin əsasına çeviriblər. [141, 230-231]

Lakin müasir dövrün gətirdiyi bəzi problemlər Ticaniyyədən də yan keçməmişdir. Burada mənəvi sapmaların fəsadları xüsusilə diqqəti cəlb edir.
Ticaniyyə qardaşlığı islamın qərbi Afrikada yaılmasında mühüm rol oynamışdır və bu gün də onların təlimləri öz yarandığı yerdə, yəni Məğribdə saxlanmaqdadır. “Cihadçı” qruplardan fərqli olaraq sufi qardaşlıqları Afrika cəmiyyətinin daha dərindən islamlaşmasına nail olub. Sufilik və qardaşlıqların müasir ərəb cəmiyyətindəki vəziyyətinin əksinə olaraq, sufilik müsəlman Afrikası üçün əsas bazadır. [138]

Sosial mədəni və siyasi rolu ilə yanaşı, sufilik ərəb-Afrika və xüsusən də Mərakeş-Qərbi Afrika əlaqələrinin dərinləşməsi və möhkəmlənməsində başlıca rola malikdir. Bəzən ortaya çıxdığı ölkədə (Əlcəzair) və Mərakeşdə tanınmamasına baxmayaraq, ticanilik iki əsrdən çox müddətdə ərəb tarixçilərinin “Qaralar ölkəsi” (bilad əs-sudan) adlandırdıqları ərazilərlə ərəb dünyasının ən uzaq məskənləri (xüsusilə də Məğrib) arasında əlaqə rolunu oynadı. Qardaşlıq bu diyarlara həm də şeyx Xəlil əl-Malikinin “Müxtəsər”i, Əbdülvahid ibn Əşirin (1582-1631) “Mətn”i və İbn Əbu Zeyd əl-Qayravaninin (922-996) “Risalə”si timsalında malikiliyi gətirdi. [200]

Sufiliyin görkəmli tədqiqatçısı, professor Zaim Xenşelau qeyd edir ki, Ticaniyyə təriqətinin mühüm xüsusiyyətlərindən biri ordenin təsisçisinə verilmiş “müqəddəslik möhürü” statusunun  mövcud olmasıdır. Bu status Əhməd Ticaninin məhşur sələfi İbn Ərəbiyə (1165-1240) məxsus olmuşdur. “Müqəddəslik möhürü” anlayışı sufi davranışına ilk dəfə hicrətin 3-cü əsrində Xorasanda, Həkim əl Timrizinin (820-932)  “Müqəddəslik möhürü” traktatı vasitəsilə gətirilmiş, məhz bu səbəbdən də o, ölkədən sürgün edilmişdir. Bu anlayışın dəqiq mənası Peyğəmbərin (s) mistik enerjisinə varislik anlamına gəlir.Böyük müəllim İbn Ərəbi bu enerjini əvvəlcə

Bejayyedə, sonra isə Məkkədə nazil olmuş silsilə görüntülər vasitəsilə almışdır. Bu qeyri-adi epizod altı əsr sonra yenidən təkrar olunmuş, bu dəfə görüntülər Əhməd Ticaniyə nazil edilmişdir.[201, 3]

2017-ci ilin iyul ayında Harmattan (Paris) nəşriyyatı Seneqallı alim Usmane Dianın Seneqal ədəbiyyatında təqdim olunan və araşdırılan Ticaniyyə təlimini anlamaq üçün əsas fikirləri oxuculara çatdıran "Seneqal ədəbiyyatında Ticaniyyə" adlı kitabını nəşr etdirmişdir. [188]

Beləliklə,bir çox ölkədə Ticaniyyə təriqətinin nüfuzu və tərəfdarlarının sayı artır, təriqət Sudan və Seneqalda, o cümlədən Əlcəzairdə xüsusilə böyük çəkiyə malik olur. Hazırda bu təriqət adınıçəkdyimiz üç ölkədə siyasətə və ictimai həyatın digər sahələrinə nüfuz edən ən böyük təşkilatdır. [156 a]

Bütün bu faktlar müasir Afrika həyatında Ticaniyyə tərəfdarlarının nə qədər güclü təsirə malik olduqlarının göstəricisi hesab edilə bilər.

# FƏSİL IV

# XƏLVƏTİYYƏ TƏRIQƏTİNDƏ MÜASİR İNKİŞAF MEYLLƏRİ

## 4.1.Müasir dini-fəlsəfi fikirlərin sufizmə təsirləri

XX əsr bəşər həyatına böyük arzularla, növbəti qızıl dövrün başlanması ümidi ilə daxil olsa da, dünyanın dörddə üçünün cinayətlə əhatə edilməsi və gələcək nəsillərin məyusluğu və ümidsizliyi ilə başa çatdı. Fərdiyyət normaya çevrildi, maddi rifah bütün ideologiyaları silib atdı, istehlak ağıl və azadlığın göstəricisi oldu. Vəhşi liberalizm mədəniyyət, incəsənət, dil və elm kimi əmtəə xarakteri daşımayan sahələrə merkantil yanaşma tərzinin genişlənməsinə səbəb oldu. Bazar qanunlarına diqqət etdikdə görürük ki, burada sosial əlaqələrin davam etməsini şərtləndirən qürur, ləyaqət, həmrəylik kimi dəyərləri tapmaqmümkün deyildir. İdealların olmaması və həll edilə bilməyən ziddiyyətlər Qərb cəmiyyətinin daxilinə qoyulmuş bombadır. Bu gün Qərb cəmiyyəti inkişaf xəstəliyinə tutulub. Bu xəstəlik insanın təhlükəni gördüyü halda belə geriyə dönməsinə imkan vermir.

Müsəlman dünyasında da vəziyyət bundan fərqli deyil. Hazırda dinindən, irqindən, millətindən asılı olmayaraq, dünyanın bir sıra ölkələrində hökumətlər xalqları dərin bir boşluğa atıb. Əsrlər boyu insan təbiəti ram etməyə çalışıb. Bəs görəsən insan öz-özünə sual veribmi ki, nə zamansa özü-özünü ram etməli olduğu vaxt gələcək? Rəqabət və anonimlik prinsipləri ilə işləyən cəmiyyət insanı insan üçün canavara çevrilib. İnformasiya cəmiyyəti anonim qeydiyyat nişanına çevrilmiş, informasiyalaşmış insandan yalnız genetik potensial və fiziki güc tələb edir. Onun sosial təsnifatında gələcəyə sevgi, metafizika və dini məsələlər daxil deyil. Bütün bu sadalananların fonunda humanizm, sevgi və mistika əvvəllər olmadığı qədər böyük əhəmiyyət kəsb edir, istehlak cəmiyyətinin əsirinə çevrilmiş fərdin xilaskarı olaraq özünü göstərir. Təbii ki, müasir dövrün özü ilə gətirdiyi müəyyən yeni tendensiyalar, dinin və fəlsəfi fikrin modern təzahür formaları sufizmdən də yan ötməmişdir.

R.Qarodi yazır: “üç dünyanın müdrikliyi və peyğəmbərliyi bizə sübut etdi ki, insan yalnız daxilindəki eqonu məhv etnmək üçün dayanmadan mübarizə aparacağı təqdirdə mütləq dəyərə qovuşa bilər”.[157, 226]

Bu gün dini həyat tərzinin obyektini müəyyən etmək və onun mədəniyyətlərarası dialoqun diqqət mərkəzində olduyğu bir dövrdəki yerini tapmaq əvvəlki dövrlə müqayisədə daha vacibdir. Yəni, insan eyni zamanda müasirliklə də çuğlaşmalı, dünyaya sülh mesajı verməlidir. Bu baxımdan sufilik böyük əhəmiyyətə malikdir. Hər şeydən əvvəl bunu təsbit etmək lazımdır ki, sufilik ilk növbədə humanitar elmdir: Tarixi, siyasi və sosial konteksdə tədqiq edilən bir elm olaraq, cəmiyyətin həyatında baş verən dəyişikliklərdən təsirlənir və özü də bu müəyyən dəyişikliklərə səbəb olur.

Sufiliyin baniləri və görkəmli nümayəndələri hər zaman öz bilikləri, tolerantlıqlarlı və islamı dərindən bilmələri ilə seçilmiş, öz əsərləri ilə dünyaya çox böyük mədəniyyət və humanizm bəxş etmişlər. Lakin hal-hazırda sufizm özü dünyadakı proseslərdən təsirlənmə mərhələsindən keçməkdədir.Bu baxımdan 21 dekabr 2015-ci ildə Mərakeşin Madaq şəhərində baş tutmuş Qədriyyə və Budşişiyə təriqətindən olan sufilərin beynəlxalq görüşü böyük əhəmiyyət daşıyırdı. Görüşün mövzusu “Sufilik və məna axtarışı: uyğunlaşma, ortaq məxrəcə gəlmə və gözəllik dəyərlərinin yayılmasında zaviyələrin rolu” idi. Məsələ budur ki, sufiliyin cəmiyyətdə yerinin və rolunun kiçilməsi bu konfransda qeyd edilən gözəl ideyalarla üst-üstə düşmür. Siyasi və sosial-federalist rolunu başa vurduqdan sonra sufilik dərnək səviyyəsinə enib və cəmiyyətə heç bir təsiri qalmayıb. Həm də bu tendensiya nəinki Məğrib ölkələrinə, eləcə də Türkiyə, İran, Suriya kimi sufiliyin tarixən dərin köklərə və nüfuza malik olduğu dövlətlərə də aid edilə bilər.

Şeyx Xalid Bentune qeyd edir ki, “islam yaxın gələcəyin sülh, tolerantlıq və sevgi dinidir”. Bu məsələ bir çox ölkədə şəksiz qəbul olunur. Şeyx əlavə edir ki, “hər il zorakılıq dünyaya 9.45 milyard dollara başa gəlir, sülh isə daha sərfəlidir”. [242]

Qeyd edək ki, 1945-ci ildə Mostaqanemdə anadan olmuş Şeyx Xalid Bentune 1975-ci ildən Ələviyyə qardaşlığının mənəvi rəhbəridir və dünyada minlərlə ardıcılı var. 2014-cü ilin oktrabrında O, Oranda (Əlcəzair) "Sözü qadınlara verək" adlı beynəlxalq konqres təşkil etdi. Məqsəd qadınların bəşəriyyətin həyatındakı əhəmiyyətini göstərmək idi

Bu konqresdə Şeyx MT-nin Dünya günü çərçivəsində hazırladığı "birgə yaşamaq" adlı petisiyasını imzalanmağa açıq elan etdi. Şeyx bu petisiya ilə dinindən, dilindən, irqindən və cinsindən asılı olmayaraq bütün insanları xoş niyyət nümayiş etdirərək bu petisiyanı imzalamağa çağırdı. Şeyx belə hesab edir ki "birgə yaşamağı istəyənlərin sayı nə qədər çox olsa onların üzərinə götürdüyü öhdəliklər dünyanı dəyişəcək" [240]

Bu reallıqları nəzərə alaraq, təsəvvüf şeyxlərinin və sufi alimlərinin əsas diqqəti müasir dünyada dəyərlərin böhranına və sufi təliminin bu böhranın aşılmasında oynaya biləcəyi rola yönəlmişdir. Müasir cəmiyyətlər çox ciddi məna problemi ilə üzləşib, onların dəyərlər sistemi ciddi şəkildə laxlayıb. Dəyərlərin böhranı ekstremizmin də əl-qol açmasına gətirib çıxarır. Dinin daxili əsaslarına və ruh aləminə fikir vermədən ortaya çıxan ekstremizm insan təbiətinin naqisliyindən qaynaqlanır. Bu problemin öhdəsindən gəlmək üçün bəşəriyyət təkcə dini deyil, eyni zamanda intellektual, sosial və iqtisadi baxımdan da ortaq nöqtəni tapmalı, dözümlülüyün əsas dəyərlərini müəyyən etməlidir. Bu ortaq məxrəcin tapılması üçün İslam dini, o cümlədən onun mənəvi təlimi olan sufilik bir model kimi tətbiq edilə bilər.

Terror, xüsusən də terrorun islamla identikləşdirilməsi sufizm ideyalarının əhəmiyyətini daha da artıran faktorlardan hesab edilə bilər. Fanatizm, fitnə və terrorçuluğun, xüsusən də gənclər arasında yayılmasının qarşısını almaq üçün sufiliklə bağlı tədqiqatlar dəstəklənməli və geniş miqyasda yayılmalıdır.

Sufilik islamofobiya deyil. Bəzi qərb dairələrində sufilik islama alternativ kimi təqdim olunur. Belə hesab edilir ki, klassik islam “arxaikdir, dövrlə uyğunlaşmır, təcavüzkardır”. Sufilik isə, əksinə olaraq “tolerant, sülhsevər və ümumbəşəridir”.

Tarixin müəyyən dövrlərində dinlə sufizm arasında qarşıdurma hallarına da rast gəlinmişdir. Qeyd etmək lazımdır ki, sufizm və onun ideallarını ciddi dəyişikliyə uğradan populyar din, son nəticədə təriqətlərin iyerarxiyasında təmsil olunanlara orijinal sufilik və həqiqi islamın icazə vermədiyi səlahiyyətləri əldə etməyə imkan verdi. Bir çox ölkələrdə yaranmış sufi qardaşlıqları dini-fəlsəfi fikirlərin, eləcə də yerli adət-ənənələrin təsiri ilə müəyyən dəyişikliklərə məruz qalırlar. Bu da müsəlman etiqadının yerli xalqların inancları ilə necə uyğunlaşdığını bir daha göstərir. [208]

Məhz bu səbəbdən sufilik islamın yayılmasında başlıca rol oynamışdır. Buna görə də, islam hazırda yayıldığı coğrafiyada sıxışdırıla bilməməsi üçün birbaşa sufi qardaşlıqlarının fəaliyyətinə borcludur desək mübaliğəyə yol verməri̇k. Uzaq Hindistandan tutmuş Afrikanın ucqarlarına qədər sufilik milyonlarla insanın islamı qəbul etməsinə vasitəçi olmuşdur. Yaşadığımız dövrdə də Afrikada islamın yayılmasında başlıca amil olaraq sufizmi, əsas etibarı ilə isə Xəlvətiyyə təriqətinin müxtəlif qollarını göstərə bilərik.

Bununla belə, sufilikdəki dini sistem bütün cərəyanlardan olan islahatçılar, dünyəvi liberallar və radikallar tərəfindən ciddi tənqidlərə məruz qalmışdır. Onlar iddia edirlər ki, bu təlim kasıblığa, ətalətə, cahilliyə aparır. Radikal islamçılar isə iddia edirlər ki, sufizmdə xalq inanclarına həqiqi islamdan daha çox yer ayrılır və beləliklə də, dində təhrif və bidətlər meydana çıxır. XIX əsrin sonlarında dini mətnlərin hərfi mənada başa düşülməsini tələb edən, bütün digər izahları qəbul etməyən islahatçı islamçıların fikirləri sufilərin baxışları ilə toqquşdu. Əl-Əfqani, Məhəmməd Əbduh, Rəşid Rida və digər sələfilər sufiliyi müsəlman cəmiyyətinin geridə qalmasının başlıca səbəbi kimi göstərirdilər. [214]

1904-cü ildə “Əl-Mənar” qəzetində belə bir ittiham xarakterli yazı yer almışdı: “Bəs təriqət şeyxlərinin artan nüfuzunun müsəlmanlara faydası nə oldu? Bir tərəfdən, bu gün sufiliyin mənası təhrif olunub və həqiqi sufilik mövcud deyil... Bu gün sufilikdən yalnız zikr adlanan hay-küy və hərəkətlər qalıb ki, həqiqi sufi bunu yalnız tənqid etməlidir. Digər tərəfdən, şeyxlərin mistik qüvvəyə malik olduqları fikri təlqin edilərək onların qəbirlərinin hörməti artırılır. Bu gün şeyxlərin məzarları müqəddəsləşdirilir və onların hansısa mistik qüvvəyə malik olduqları iddia olunur. Bu da Allahın Kitabına və peyğəmbərin sünnəsinə ziddir.

Müasir sufizmin əleyhidarları iddia edirlər ki, özünütərbiyə metodu olan sufizm sonradan bütün fırıldaqçılara, şeyxlərin demaqogiyalarına və saxtaklarlığa yol açıb. Bəziləri isə hətta deyirlər ki, “bütün dilənçilər və parazitlər özlərini yeni təriqətlərin şeyxləri elan ediblər. Beləcə islam quldurların ümidinə qalıb”. [217, 70-74]

Sufilərin bu tənqidlərə qarşı ortaya tutarlı dəlil qoya biləcək liderləri yox idi. Ötən əsrin 20-ci illərində sufilərin zikr mərasimləri Ənsar əl-Sünnə əl-Məhəmmədiyyə kimi (əhli-sünnə) təşkilatların ciddi tənqidlərinə tuş gəlirdi. Bununla belə, sufi idealı qorunub yaşadılırdı. Hətta görkəmli islam ideoloqu Həsən əl-Bənna Müsəlman qardaşlarını sələfi hərəkatı deyil, sufi reallığı kimi təsvir edirdi.

Qeyd etmək lazımdır ki, müasir dövrdə də İslam dini daxilindəki müxtəlif dini və siyasi cərəyanlar Xəlvətiyyə təriqətinə təsir göstərməkdə davam edirlər. Bu baxımdan Əlcəzairdə radikal təkfirçilərlə sufilər arasında olan qarşıdurmalar xarakterik hesab edilə bilər. Bəzi hallarda KİV-də bu qarşıdurmaların doqmatik deyil, siyasi və etnokulturoloji əsaslar üzərində yarandığından bəhs edilsə də, hər halda bu mübarizənin yalnız nüfuz davası olduğunu söyləmək, məsələyə səthi yanaşmaq demək olardı. Əlcəzairin mürəkkəb etnoqrafik strukturu, bəzi allarda sufi təriqətlərinin öz aralarında birləşməsinə imkan vermir, hətta təriqət daxilində belə müridlər öz mürşidləri ətrafında doqmatik prinsiplərə görə deyil, daha çox milli

mənsubiyyətə əsasən birləşirlər. Belə hallar isə radikal təkfirçilərlə mübarizədə təriqətin zəifləməsinə gətirib çıxarır.

Hər hansı müqəddəsin və ya onun nəslindən olanların xarizmatik hakimiyyətinə əsaslanan sufi qardaşlığı maddi aləmdə bir insanın digərindən üstün ola biləcəyini qəbul edirdi. Şeyxin öz müridi ilə münasibəti sonuncunu bu gizli aləmə nüfuz edəcəyinə, hiss və məhəbbətini təmizləmək yolu ilə ilahi varlığa qovuşmasına imkan verdiyinə inanırdı. Allahın öz yaratdığı bəndəsi ilə  belə bir irrasional və vertikal münasibəti eksklüziv xarakterlidir. Müasir Misirdə isə siyasi və digər maraqlar xatirinə sufilərə başqa tərzdə yanaşılır. Yəni, hər bir inanc şəxsin və cəmiyyətin qəlbində olmalıdır.

Lakin sufizm tərəfdarları yalnız ənənəvi din təmsilçilərinin, radikal dindarların tənqidlərinə məruz qalmırlar.Dini radikalizmə qarşı mübarizə aparılması məqsədilə, 2016-cı ilin 18-20 may tarixlərində  Əlcəzairin Mostaqnem şəhərində keçirilən sufilik üzrə Beynəlxalq İttifaqın 1-ci Beynəlxalq Konqresində Əlcəzairin sufi təriqətlərinin 120 nümayəndəsi, 40 müsəlman dövlətinin nümayəndələri və digər dövlətlərin 10 müsəlman icmasının nümayəndələri iştirak etmişlər.[246]

Öz rolunu layiqincə oynaya bilməsi üçün sufilyə yenidən rəhbərlər seçilməli, ideyalar ortaya qoyulmalı və həqiqət axtarışında irəli gedilməlidir. Bütün cərəyanlardan, o cümlədən Qərb cərəyanlarından gələn elmi həqiqət və tənqidi yanaşma da yaddan çıxmamalıdır. Sufilik alətə çevrilməməli, tam əksinə nəzəriyyə halına gətirilməlidir. Sufilik göründüyündən daha böyük və daha ciddidir. Hazırda sufi təfəkkür heç bir zaman olmadığı qədər yenidən qurulmaqdadır.

10, 11, 12 dekabr 2016–cı il tarixində Mərakeşdə(Madah şəhərində) Ümümdünya sufi təriqətlərinin “Sufilik və dünya mədəniyyəti:birgə yaşamaq və sivilizasiyalar dünyası dəyərlərinin təstiq edilməsi üçün universal islam dünyagörüşləri” mövzusunda görüşü keçirilmişdir.Görüş iştirakçıları təstiq etmişlər ki, müasir cəmiyyətin başlıca problemi sülh ideyasıdır.Qloballaşdırılmış cəmiyyət

sülhün və xalqların sülh şəraitində yaşamasının nə qədər kövrək olduğunu bizə nümayiş etdirir.Allahın adlarından və atributlarından biri olan Sülh digər xalqlara qarşı ədalətsizliyi və aqressivliyi qadagan edir, birgə həyat naminə mərhəmətə və tolerantlıga çağırır.

Konfrans iştrakçılarının yekun reyinə görə, sufulik islamın döyünən ürəyidir,bu dinin ardıcaları bütün dünyaya onun tolerant,bütün sivilizasiyalara sülh və qarşılıqlı hörmət hissləri aşılayan həqiqi simasına göstərməlidirlər.[239]

Fransız tədqiqatçı Prof. Jan-Jak TibonAbu Abd al-Rahman al-Sulamiyyə həsr ettiyi monografiyasında qeyd edir ki, fütüvvanın sufizm tərəfindən qəbul edilərək ona inteqrasıya olunması üzərində düşünmək çox maraqlıdır.Çoxsaylı lokal formalarının mövcud olmasına  baxmayaraq fütüvvanın bir əsas və mühüm xüsusiyyəti təşkilatın kollektiv etik davranış formasını müəyyən etməsidir. İlkin mənbələrdə, ələlxüsus Sulaminin yazılarında  əks olunmuş fütüvva haqqındakı bilgiləri öyrənərək qətiyyətlə demək olar ki, sufilik fütüvvanı islamlaşdıraraq ona qeyri-adi mənəviyyat aşılamış, bununla da ona sufiliyin iki mərkəzi konsepsiyasına – yoldaşlıq və gözəl davranış-əxlaq konsepsiyalarına təsir etmək imkanı vermişdir.Bununla da fütüvva digər tərəflə davranışın ideal qaydalarına cevirilmişdir.

Sulami təsdiq edir ki: Hər mənəvi məqam  və hər bir hal səndən fütüvvanın müxtəlif növlərini tələb edir: Yaradana münasibətdə fütüvva, Peyğəmbərə münasibətdə fütüvva, dostlara, müəllimə, yaxınlara, uşaqlara və sənin əməllərini yazan mələklərə münasibətdə fütüvva. İdeal davranışlı ol ki, həyatın bütün aspektləri ilə uzlaşa biləsən. [198, 6] İslam dini meydana gəldiyi ilk günlərdən etibarən fərdi və kollektiv həyat elementlərinin ayrı-ayrılıqda baxılmasından imtina etmişdur. Həm ayrıca bir fərdin, həm də cəmiyyətin son məqsədi Allaha xidmət etməkdən və ilahi qanunlara əməl etməkdən ibarət olmaqla eynidir.

İlahi qanunlar dini vəzifələrin məcəlləsi kimi təsdiqlənir. İslam qanunlarını qəbul etmiş hər bir kəs ehtimal olunan bir müqaviləyə imza atmış olur: Allah

tərəfindən müəyyən edilmiş qanunlardan başqa onun digər vəzifələri icra etmək hüququ yoxdur. Bununla belə, ictimai məcəllə tələb edir ki, bütün iman gətirənlər cəmiyyətin digər üzvlərinin hüquqlarına hörmətlə yanaşmalıdırlar.Bu, müsəlman hüquq sisteminə mənəvi və hüquqi yanaşmanın məhək daşıdır. [148, 186]

Bütün bu deyilənlər əsasında belə nəticəyə gəlmək olar ki, Əlcəzairdə Xəlvətiyyə təriqətinin mistik yönü son dövrlər ərzində ciddi dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklər xüsusən mistik düşüncədə özünü daha ciddi əks etdirməkdədir. Əlcəzairin İslamçı islahatları nəzərdə tutan partizanları vətəndaş müharibəsi illərində Xəlvətiyyənin və eləcə də digər sufi təriqətlərinin mistisizmini arxaik tendensiya hesab edirdilər. Lakin İslam mistisizminin inkişafı Əlcəzairdə özünəməxsus şəkildə, müəyyən yüksəliş və tənəzzül periodları ilə davam etməkdədir. Xəlvətiyyənin dini sistem olaraq daimiliyi və qalıcılığı Əlcəzairdə onun rituallarının davamlılığı şəklində də özünü göstərməkdədir. Zaviyələr və qardaşlıqlar müasir Əlcəzair, həmçinin digər Şimali Afrika ölkələrinin həyatında sufizm institutlarının varlığını təmin edən əsas amillər hesab edilir.

Ötən əsrin 80-ci illərində Əlcəzairdə radikal islam baş qaldıranda və yerli dini institutları aradan qaldırmaq istəyəndə, ölkədə dini zəmində gərginlik xeyli yüksəlmişdi. Azadlıq müharibəsinin başlamasına səbəb olaraq Tlemsen əyalətində sufizm institutlarının qadağan edilməsinin göstərilməsi heç də təsadüfi deyildir.

Sonrakı dövrlərdə, 2000-ci illərdə yenidən Xəlvətiyyə və digər təriqətlər canlanmağa başladılar. 1992-ci ildən bəri dayandırılmış olan yerli zaviyələrin ziyarəti bərpa edildi. Qardaşlıqların Fransada yaşayan üzvləri bu hadisəniböyük sevinclə qarşılayıb ziyarətlərdə iştirak edirlər. Lakin istənilən halda, artıq Əlcəzairdə mistik meyllər və sufi institutları, 100 il əvvəlki ilə müqayisədə xeyli zəifləmişdir. Buna baxmayaraq, siyasi hakimiyyətin hərbi zorakılığı dayandırmaqda acizliyi, insanların yenidən sufizmə yönəlməsinə gətirib çıxaran faktorlar arasındadır. Bu faktı həm də

Xəlvətiyyənin modern erada hələ də özünü qoruyub saxlaya bilməsinin təzahürü hesab etmək olar.

Müasir dövrün istehlak cəmiyyətinin özüylə gətirdiyi yeni meyllər, insana mənəvi baxımdan deyil, istehlakçı aspektindən yanaşmaya üstünlük verən və Qərb fəlsəfi fikrində də bəzi hallarda öz təsdiqini tapan düşüncələr, təsəvvüflə qarşı-qarşıya dayanırlar. Sufi qardaşlığı düşüncəsi fərdiyyətçi, istehlakçı "mən" ilə üzləşməli olur. Fərdiyyətçi "mən"dən imtina edilməsi artıq təkcə müsəlman sufilərinin deyil, böyük hind müdriklərinin diqqət mərkəzindədir.

Əbu Yezid əl-Bistami yazırdı: "Mən yox olduqda Allah özü mənim içimdə güzgüyə çevrilir." Bu fikirləri özünə rəhbər bilən təsəvvüf tərəfdarları fərdiyyətçi "mənə" qarşı mübarizə apardıqları halda, Qərbin istehlak cəmiyyətinin nəhəng reklam və təbliğat maşını Allahda yox olmağa çalışan sufi qardaşlıqlarını geridə qalmış düşüncənin təzahür forması olaraq göstərməyə çalışır. Belə ziddiyyətli bir şəraitdə İslam ölkələrində mövcud olan sufi təriqətləri öz tarixlərinin növbəti çətin sınağından keçməli olurlar.

## 4.2. Xəlvətiliyin mistik mahiyyətinin müasir İslam fəlsəfi nöqteyi-nəzərindən tədqiqi və təbliği

Məlum olduğu kimi, müasir dini-fəlsəfi fikirlər, eləcə də dünya miqyasında baş verən başqa hadisələr digər sufi təriqətləri kimi Xəlvətiyyəyə də təsir göstərməkdədir. Məntiqi düşüncə ilə yanaşdıqda, əsas prinsipləri fərdin cəmiyyətdən ayrılaraq inzivaya çəkilməsi, təklikdə mənəvi yüksəlişlə məşğul olaraq Allaha qovuşması olan Xəlvətiyyənin hazırda baş verən proseslərdən daha çox təsirlənməsi düşünülə bilər. Xəlvətiyyənin özünəməxsus mistik düşüncə sistemi kənar təsirlərə qarşı daha həssas olduğu üçün, baş verən dəyişikliklər daha kəskin formada özünü göstərməkdədir.

Xəlvətiyyənin mistik düşüncə sistemi ilə bağlı danışdıqda, ilk növbədə onun insanın qəlbi ilə bağlı olduğu qeyd edilməlidir. Təsəvvüf təriqəti olmaq etibarı ilə,

Xəlvətiyyə təkliyə çəkilmək, şeyxə təslim olub öz iradəsindən uzaqlaşaraq mənəvi kamilləşmək, vəhdəti-vücud və vəhdəti-şühud kimi düşüncələr üzərində qurulmuşdur. Xəlvətiyyənin mistik düşüncə sisteminin qarşısına qoyduğu başlıca problem, insan qəlbinin xəstəliklərdən, zikrin fikirlərdən təmizlənməsidir. İnsanın daxilinə qapanması, bütün mistik sistemin insanın təmizlənməsi üzərində qurulması faktı nəzərə alındıqda, müasir dünyanın çoxsaylı dini-fəlsəfi cərəyanları Xəlvətiyyəni getdikcə daha da kölgədə qoyurlar. Lakin nə qədər ziddiyyətli olsa da, təsəvvüf təriqətlərinin, o cümlədən Xəlvətiyyənin mistik gücü müəyyən qüvvələrin ondan bəhrələnməsinə də səbəb olur. Əlbəttə, belə hallarda onlar heç də təriqətin ehtiva etdiyi prinsipləri deyil, bu prinsiplərin özlərinə uyğunlaşdırılmış formalarını əsas götürürlər.

Belə hallara misal olaraq, Əlcəzairdə radikal islamçılarla mübarizə aparmaq üçün təsəvvüf təlqinlərindən istifadə edilməsini göstərə bilərik. Hazırda Əlcəzair hökuməti silahlı mübarizənin fayda vermədiyini görərək, radikal qiyamçılara qarşı sufi yanaşması göstərməyə çalışır. Bu ölkədə hökumət təsəvvüf təbliğatı aparmaq məqsədilə televiziya və radio kanalları açmışdır, bütün bu tədbirlərdə məqsəd sələfi ideologiyasının Əlcəzair insanlarının təbiətinə uyğun olmadığını, onların ənənəvi islama geri dönmələrini təmin etməkdir. Göründüyü kimi, Məğribdə hakim sufi təriqəti rolunu oynayan Xəlvətiyyənin qolları (əsas etibarilə Ticaniyyə qolu) radikal islama və terrorçu təşkilatlara qarşı ideoloji mübarizə cəbhəsində istifadə edilməyə başlamışdır. 1990-cı illərdən bəri ölkədə radikal islamçılarla dünyəvi hökumətin apardığı silahlı mübarizə 200 min nəfərdən çox insanın həyatı bahasına başa gəlmişdir. Belə bir şərtlər altında, Xəlvətiyyə təriqətinin sülh və humanizm çağırışlarından istifadə edilməsi, onun mistik düşüncə sisteminin müasir dövrün şərtlərinə uyğunlaşdırılması başa düşüləndir. [125]

Xəlvətiyyənin özündə ehtiva etdiyi sülhsevər prinsiplərdən istifadə zamanı, heç də həmişə səmimi davranılmadığını, müəyyən qüvvələrin əslində təsəvvüf

təriqətlərinin mistik düşünc sistemində cüzi dəyişikliklər edərək, onlardan öz məqsədlərinə uyğun istifadə etdiklərini müşahidə etmək mümkündür. Qərbin beyin mərkəzlərində radikal islama qarşı sufi təriqətlərinin istifadə edilməsi ilə bağlı planlar hazırlanan zaman, Xəlvətiyyənin də düşüncə sisteminə bəzi dəyişikliklərin edilməsi, müxtəlif islami kanallar vasitəsilə təriqət daxili düşüncənin dəyişdirilməsi halları nəzərdə tutulur.

Tunisin keçmiş din naziri Larusi əl Mizuri qeyd edir ki, fanatizm, fitnə və terrorçuluğun, (xüsusən də gənclər arasında) yayılmasının qarşısını almaq üçün sufiliklə bağlı tədqiqatlar dəstəklənməli və geniş miqyasda yayılmalıdır. O, eyni zamanda Fransa Beynəlxalq Radiosuna (RFI) müsahibəsində islam sivilizasiyası mütəxəssislərinin nəzarəti altında bir ərəb-müsəlman saytı hazırlanmasını da tövsiyə edirdi. [238]

Strasburq Universitetinin islamşünaslıq və müsəlman mistikası üzrə mütəxəssisi Erik Jofroy Afrikada və Fransada sufilərin artıq təşkilatlanmaq lazım olduğunu başa düşdüklərini yazır. O qeyd edir ki, həm sufilərin özləri, həm də qardaşlıqlar arasında son 1 ildə çox sayda belə təşəbbüs olub. Artıq onlar səhnəyə çıxmalıdırlar. [238]

Qərbdə Xəlvətiyyənin təsir gücünün nəzərə alınması heç də təsadüfi deyildir. Tarixdən məlum olduğu kimi, hələ Osmanlı fəthləri zamanı Xəlvətiyyə təriqətinə mənsub dərvişlər "dərviş-qazi" formatında düşmənə qarşı səfərlərə çıxırdılar. Təkcə sıravi dərvişlərin deyil, eləcə də sufi şeyxlərinin də bu səfərlərdə iştirak etmələri faktları elmə məlumdur. Eləcə də digər sufi ordeni olan Səfəviyyənin də əsas hərbi qüvvəsinin qızılbaş dərvişlərindən ibarət olması faktını yaddan çıxarmaq olmaz.

Bütün bu deyilənlər sufilərin düşüncə sistemində yalnız nəfsə qarşı cihad deyil, həm də xarici düşmənlərə qarşı cihad anlayışının mövcud olduğunu göstərir. Əsrlər boyu Osmanlı hərbi qüvvələrinin tərkibində ən vacib döyüş tapşırıqlarını yerinə yetirən, kəşfiyyatçı və avanqard qüvvələrin əsasını təşkil edən Xəlvəti mənsublarının

böyük döyüş potensialı İslam ölkələrinə təsir etmək istəyən qüvvələrə yaxşı məlumdur. Görünür bu döyüş potensialını neytrallaşdırmaq planlarına görə, Xəlvətiyyənin mistik düşüncə sistemində yalnız nəfsə qarşı cihad anlayışının saxlanılmasına, lakin xarici düşmənə qarşı mübarizə fikirlərinin aradan qaldırılması gizli şəkildə də olsa təriqət daxilinə yeridilməyə çalışılır.

Ümumiyyətlə, Xəlvətiyyə dərvişlərinin aktiv mübarizəyə atılmaları faktı ideoloji hazırlıq səviyyəsinə təsir edən elə mühüm faktorlardan xəbər verir ki, belə mənəvi-ideoloji faktorlar Qərb dövlətlərinin ordusunda və cəmiyyətində mövcud deyildir. Bu səbəbdən də İslam ölkələrinə təsirlərini artırmağa çalışan qüvvələr, xüsusilə Məğrib ölkələrində Xəlvətiyyənin müxtəlif qollarından "mülayim islam" yaradılması məqsədilə istifadə etməyə, digər tərəfdən də Xəlvətiyyənin mistik düşüncə sistemindəki şərə qarşı mübarizə və barışmazlığı aradan qaldırmağa çalışırlar. Cihad ruhundan məhrum islam anlayışı yaratmaqla bağlı işlər, xüsusilə ABŞ-ın RAND Korporasiyası tərəfindən fəal şəkildə planlaşdırılır. Ona görə də son illərdə Xəlvətiyyənin mistik düşüncə sisteminə təsir edən faktorlardan danışan zaman, bu prosesin heç də həmişə təbii şəkildə getdiyini söyləyə bilmərik.

Burada bir məsələyə toxunmaq da yerinə düşərdi. Modern ərəb fikir adamları arasında təsəvvüfəqarşı tənqidlər XX əsrdən etibarən geniş vüsət almışdır. Bu adamlar arasında islam maarifçiləri adını almış bir çox ziyalılar, siyasi islamla bağlı təşkilatlar, ənənəvi İslam tərəfdarı olan alimlər, eləcə də dünyəvi hakimiyyət tərəfdarı olan liberallar, demokratlar, marksistlər, müəyyən millətçi qruplardır. Maraqlıdır ki, Məğrib ölkələrində təsəvvüfün sosial və intellektual funksiyalarının aşağı düşməsi ilə, sələfilərin təsirinin artması üst-üstə düşür. Bu da sələfi düşüncəsi ilə Xəlvətilərin mistik dünyagörüşü arasındakı ziddiyyətlərin kəskinləşməsinə gətirib çıxarmışdır. [230]

Əgər XIX əsrdə Xəlvətiyyə təriqətinə mənsub olmaq müsəlman olmağın atributu hesab edilirdisə, praqmatik və puritan islamçı görüşlərin yayılması, bu

tendensiyaya da son qoydu. Getdikcə sürətlə yayılan maarifçi islam hərəkatı təsəvvüfü az qala islamdan xaric olan bir cərəyan kimi görür, bütün bu hallar isə Xəlvəti düşüncəsinin formalaşmasında öz təsirlərini qoyurdu.

Vəhhabilik hərəkatın qurucusu Əbdül-Vəhhab dində olan bir çox bidətlərin səbəbi kimi təsəvvüf təriqətlərini görür və onlara qarşı mübarizə aparmağı qarşısına məqsəd kimi qoyurdu. Bütün bu meyllər Xəlvətiyyənin mistik düşüncəsindəki təvəkkül anlayışını zəiflətdi və onu fatalizm kimi göstərdi. Eləcə də sufilərin xəlvətə çəkilməsinin Quran və Peyğəmbərin sünnətinə zidd olduğu iddiaları irəli sürülür, mədəni və ictimai tərəqqiyə qarşı bir mövqedə olduğu bildirilirdi. Ümumiyyətlə, islam maarifçilərinin və radikal islamçıların mistisizmə olan münasibətinin kökləri əslində daha qədim dövrlərə gedib çıxırdı. Orta əsrlərdə yaşamış İbn Teymiyyə mistisizmi vəsvəsələr kimi qələmə verirdi.

Xəlvətiyyə təriqətinin mistik düşüncə sisteminə təsir edən amillər sırasında millətlərarası və müxtəlif formasında özünü büruzə verən yeni qlobal əlaqələri göstərə bilərik. Bütün dünya boyunca yayılmış xəlvəti təriqəti üzvləri arasında uzaq məsafələri postmodern dövrün sosial əlaqələri hesabına qısaltmaq halları müşahidə olunmaqdadır. Mobil rabitə vasitələri, sosial şəbəkələr günümüzün elə reallıqlarına çevrilmişdir ki, hər hansı bir sufi təriqətini belə, bu vasitələr olmadan təsəvvür etmək mümkün deyildir. Elektron kommunikasiya vasitələri Xəlvətiyyə mənsublarının qarşılıqlı münasibətlərinə, bu qarşılıqlı münasibətlər isə təriqət daxilində mövcud olan düşüncə sisteminə öz təsirlərini göstərir. Eləcə də müxtəlif formal təşkilatlar meydana çıxır, qruplaşmaların modern formaları müşahidə edilir. Müasir dördə xaricdə yaşayan, bizneslə məşğul olan təriqət üzvləri ilə şeyxlər arasında əlaqələrin qurulmasında elektron informasiya vasitələri müstəsna rola malikdir. Lakin bu tipli əlaqələr ənənəvi üzbəüz ünsiyyəti əvəz etmədiyindən, əvvəllər müşahidə edilməyən yeni fenomenlərin də ortaya çıxması təbiidir.

Xüsusilə Xəlvətiyyənin geniş yayıldığı Məğrib ölkələrində, ticarət və miqrasiya ilə əlaqədar olaraq əhali qruplarının yerdəyişmə halları təriqətin üzvləri arasındakı münasibətlərdə ciddi dəyişikliklərə səbəb olmuşdur. Lakin istənilən halda, “evdə” qalan təriqət üzvləri ilə gənclər arasında münasibətlərin qorunub saxlanıldığını əminliklə söyləmək mümkündür.

Xəlvətiyyənin məruz qaldığı təsirlər sırasında İranda İslam İnqilabının qələbəsini, eləcə də iranlı mütəfəkkir və sosioloq Əli Şəriətinin yaratdığı yeni islam sosiologiyasının sufizmə qarşı münasibətini də göstərmək olar. Bütün bu baş verən hadisələr İranda Xəlvətiyyənin mövqeyini xeyli zəiflətmişdir. [213]

Lakin təriqət burada özünün əvvəlki düşüncə sistemini qoruyub saxlamağa nail olmuşdur. Halbuki Məğrib ölkələrində, xüsusən də Ticaniyyə qolunun daxilində yeni tipli sufi şeyxlərinin meydana gəlməsi təriqətin fəaliyyətində yeniliklər yaratmışdır. Xəlvətiyyənin mistik düşüncə sistemi müəyyən dəyişikliklərə məruz qalmış, müasir şəhər gənclərinin mədəniyyəti bu sistemə təsir göstərmişdir. İslam, xristianlıq və Afrika dinlərinin dəyərlərinə qarşı laqeydlik, Afrika millətçiliyi getdikcə daha çox müşahidə edilməkdədir.

Müasir dövrün dəyişiklikləri həyatın bütün sahələrində olduğu kimi, Xəlvətiyyənin də mistik düşüncə sistemində getdikcə daha çox iz qoymaqdadır. Ümumiyyətlə, Xəlvətiyyənin mistik düşüncə sistemi və adət-ənənələrinin spesifikliyi, müasir şərtlər altında onların qorunub saxlanılmasını getdikcə çətinləşdirir. Məsələn, Xəlvətiyyə təriqətində, insanın öz nəfsindən arınması üçün təkliyə və xəlvətə çəkilmə kimi, özünəməxsus müxtəlif yollar və üsullar tarixən təkmilləşdirilmişdir. Ələlxüsus Osmanlı imperiyası zamanında (Kastamonuda Şabani məqamı, İstanbulda Sünbül Sinan və Mərkəz Əfəndi məqamları), Orta Şərqdə (Hələbdə Hilaliyyə), Misirdə (Qahirədə Dəmirdaşiyyə və İbrahim Gülşəni məqamları) mövcud olan qollarda bu özünü daha aşkar surətdə göstərir. Bu təriqətlərdə oyuq ağaclarda, mağaralarda və ya hücrələrdə icra olunan çilələr, müəyyən vaxtlarda meşə və ya dağlarda icra olunan

müstəqil təklik, sufi təkyələrində və zaviyələrində istiqamətli və əsaslanmış xəlvət kimi hallar hazırkı informasiya texnologiyaları əsrində insanın tənhalığına və təfəkkürünə çox cüzi vaxt ayrıldığı dövrdə yerinə yetirilməsi daha da çətin prosedurlara çevrilmişdir. Müasir dövrün şərtlərinin Xəlvətiyyənin mistik düşüncə sisteminə də təsir göstərməsi təbii və qanunauyğun proses kimi qəbul edilə bilər.

## NƏTİCƏ

Dünya mədəniyyətinin formalaşmasına böyük töhfələr vermiş İslam sivilizasiyasının başlıca istiqamətlərindən biri də sufizmdir. Sufizm, islamın dini-fəlsəfi, mənəvi və əxlaqi həyat tərzini formalaşdıran təsəvvüf poeziyadan tutmuş orduya, dövlət idarəetməsindən tutmuş böyük təşkilatlara qədər bir çox sahələrə nüfuz etmiş, Orta əsrlərin ictimai –siyasi və mədəni mühitinin formalaşmasında mühüm təsir gücünə malik olmuşdur. Sufizm ideyaları XI əsrin ortalarında rəsmi islamın onunla sərt və amansız mübarizəsinə baxmayaraq sürətlə bütün müsəlman dünyasına yayılmağa başlasa da, onun tarixi kökləri daha qədimə, islamın təşəkkül tapdığı dövrlərə qədər gedib çıxır. Rəsmi islam nümayəndələri tərəfindən bu dövr üçün sufilərin işləyib hazırladığı və irəli sürdüyü başlıca konsepsiyaların kəskin pislənilməsi və qəbul edilməməsi sufiliyi müsəlman ideoloji müxalifəti durumuna gətirdi, onun tərəfdarlarını isə nəinki öz mövqelərini mübahisədə müdafiə etməyə,

həm də bəzən hakimiyyətin təqiblərindən yaxa qurtarmaq üçün onların üstünü pərdələməyə məcbur etdi. Beləliklə, sufilər təşkilatlanmağa, böyük və güclü təşkilatlar yaratmağa başladılar. Belə təriqətlərin ən böyüyü və məşhurlarından biri Xəzər sahillərindən yaranaraq dünyanın bir çox bölgələrinə yayılmış Xəlvətiyyə olmuşdur.

